RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 20 (9765) 30 yanvar 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Prezident İlham Əliyev 1 saylı seçki məntəqəsində səs verib



**Yanvarın 29-da Azərbaycanda növbəti bələdiyyə seçkiləri keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhərinin 7 saylı Səbail Seçki Dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində səs verib.**

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.

Qeyd edək ki, Bakı şəhərinin 7 saylı Səbail Seçki Dairəsinin 1 saylı seçki məntəqəsində 576 seçici qeydiyyata alınıb. Bu seçki dairəsi üzrə 31 namizəd mübarizə aparıb.





## Azərbaycan-Çin dövlətlərarası əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi məmnunluq doğurur



### Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə

Hörmətli cənab Sədr!

Qarşıdan gələn Bahar bayramı münasibətilə Sizə və Sizin simanızda dost Çin xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Çin təqvimi ilə yeni ilin qədəm basmasını qeyd edən, təbiətin oyanışının və həyatın yenidən canlanmasının rəmzi olan Çuntsze bayramının bütün xalqınıza xoş əhvali-ruhiyyə, bol ruzi-bərəkət və rifah bəxş etməsini arzulayıram.

Azərbaycan-Çin dövlətlərarası əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi məmnunluq doğurur. Biz Çin ilə sağlam təməllər üzərində qurulmuş, qarşılıqlı inam və etimada əsaslanan əməkdaşlığımızın hərtərəfli inkişafına böyük önəm veririk. Əminəm ki, dostluq münasibətlərimizin və qarşılıqlı fəaliyyətimizin xalqlarımızın iradəsinə uyğun olaraq daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bu bayram münasibətilə bir daha Sizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

## Bələdiyyə seçkiləri: 26 illik tarix

### Yerli özünüidarəetmə orqanlarına keçirilən sayca 6-cı seçkilər də gözləntiləri doğrultdu

Azərbaycanda ilk bələdiyyə seçkiləri 1999-cu ildə keçirilib. İlk bələdiyyə seçkilərinə hazırlıq dövründə püşkatma yolu ilə 74 ərazi seçki komissiyası və 4683 məntəqə seçki komissiyası yaradılıb. Bunların tərkibində ümumən 90 min nəfərdən artıq vətəndaş seçkinin təşkili ilə məşğul olub. Həmçinin seçkilərdə 43 min nəfərdən çox vətəndaş bələdiyyə üzvlüyünə namizəd olmaq üçün müraciət edib.

Müraciət edənlərin təqribən 51 faizi bitərəf, 49 faizi isə siyasi partiyaların üzvləri olmuşdular. Seçki günü respublika üzrə seçki siyahılarına daxil olmuş 4 milyon 312 min 265 nəfər seçicinin 52,6 faizi səsvermədə iştirak edib. Səsvermənin nəticəsi olaraq 20456 nəfər bələdiyyə üzvü seçilib. 51 şəhər, 8 şəhərdə rayon, 123 qəsəbə və 2 409 kənd bələdiyyəsi seçilib.

Aktiv siyasi təşkilatlardan YAP, AXCP və Müsavat seçkilərə qatılıb və müxtəlif sayda bələdiyyələr qazanıblar. Azərbaycan Milli İstiqlal Partiyası (AMİP) seçkilərdə iştirak etməyib.

Növbəti seçkilər 5 il sonra, 2004-cü ildə baş tutub. Bələdiyyə seçkilərində ümumilikdə 38 041 namizəd iştirak edib, onlardan 21 mindən çoxu Yeni Azərbaycan Partiyasının üzvü olub.

Bələdiyyə seçkilərində ölkə üzrə seçicilərin ümumi sayının 52,6 faizi səsvermədə iştirak edib. Seçilmiş 20 346 bələdiyyə üzvündən 19 516 nəfəri kişi (95,92 faiz), 830 nəfəri isə qadın (4,08 faiz ) olub.

Sonrakı bələdiyyə seçkisi 2009-cu ildə baş tutub. Seçkilər 118 seçki dairəsi və 4813 seçki məntəqəsi üzrə keçirilib, 15 min 682 bələdiyyə üzvünün seçilməsi üçün 1718 bələdiyyəni əhatə edib. Seçkilərdə cəmi 32.4 faiz seçici iştirak edib.

Bələdiyyələrə üzv seçilmiş şəxslərdən 10 min 290-nı Yeni Azərbaycan Partiyası, 132-si Böyük Quruluş Partiyası, 81-i Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, 62-si Ana Vətən Partiyası, 61-i Vətəndaş Həmrəyliyi Partiyası, 41-i Azərbaycan Ümid Partiyası, 15-i Azərbaycan Demokratik İslahatlar Siyasi Partiyası, 14-ü Vətəndaş Birliyi Partiyası, 5-i Azərbaycan Sosial Rifah Partiyası, 4-ü isə Müsavat Partiyası tərəfindən namizədliyi irəli sürülmüş şəxslər olub. Həmçinin seçilmiş bələdiyyə üzvlərindən 4157-si bitərəf, 157-si isə partiya mənsubiyyətini göstərməmiş şəxs olublar.

→ 4

# Bütün dairələrdə seçkilər normal keçib

## Mərkəzi Seçki Komissiyası bələdiyyə seçkilərinin ilkin nəticələrini açıqlayıb

**"Yanvarın 29-da Azərbaycanda mövcud olan 685 bələdiyyəyə seçkilər keçirilib. 685 bələdiyyəyə 8071 üzv seçilməli idi və bu bələdiyyələr Azərbaycanda mövcud olan 125 dairənin 118-nin ərazisini əhatə edib. Gün ərzində seçicilərin fəallığı ilə bağlı ictimaiyyətə beş dəfə məlumat verilib. Yekunda 1 milyon 874 min 810 nəfər səsvermədə iştirak edib ki, bu da ümumi seçicilərin 31,45 faizini təşkil edir. Ümumiyyətlə, bütün dairələrdə seçkilər normal keçib, gün ərzində Mərkəzi Seçki Komissiyasına seçkilərin nəticəsinə təsir edə biləcək heç bir məlumat daxil olmayıb".**




AZƏRTAC xəbər verir ki, bu sözləri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bələdiyyə seçkilərinin ilkin nəticələri ilə bağlı keçirdiyi mətbuat konfransında deyib.

Ümumiyyətlə, Mərkəzi Seçki Komissiyasına və "qaynar xətt"ə heç bir şikayətin daxil olmadığını vurğulayan M.Pənahov bütün məntəqələrin vaxtında - saat 08:00-da açıldığını və 19:00-da bağlandığını bildirib.

→ 3

# Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797 (Cild I); 2024, № 1, maddə 7, № 4, maddə 365, № 5 (I kitab), maddələr 488, 489, 503; Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 52-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 82.4-82.8-ci maddələr əlavə edilsin:

"82.4. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Mərkəzdə saxlanılması müddəti onların Mərkəzdə yerləşdirilməsi barədə qərara uyğun olaraq Mərkəzə qəbul edildikləri andan hesablanır. Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onların Mərkəzdə yerləşdirilməsi barədə qəbul edilmiş qərarda göstərilən müddətdən artıq Mərkəzdə saxlanıla bilməzlər. Bu müddət başa çatanadək həmin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Mərkəzdə saxlanılması müddətinin uzadılması, yaxud azad edilməsi (və ya buraxılması) məsələsi həll olunmalıdır. Mərkəz rəisi bu barədə əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Mərkəzdə yerləşdirilməsi müddətinin başa çatmasına 1 (bir) iş günü qalmış müvafiq icra hakimiyyəti orqanına şifahi və ya yazılı qaydada məlumat verir. Məhkəmənin qərarı əsasında uzadılma halları istisna olmaqla, müvafiq icra hakimiyyəti orqanı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Mərkəzdə saxlanılması müddətinin uzadılması, yaxud azad edilməsi (və ya buraxılması) haqqında qərar qəbul edir.

82.5. Mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Mərkəzdə yerləşdirilməsi müddətinin uzadılması, yaxud azad edilməsi (və ya buraxılması) haqqında qərar Mərkəzə daxil olduqda bu Məcəllənin 82.6-cı maddəsi nəzərə alınmaqla dərhal icra edilməlidir.

82.6. Daxil olmuş qərarda göstərilən məlumatlarla əcnəbinin və vətəndaşlığı olmayan şəxsin şəxsi işindəki məlumatlar uyğun gəlmədikdə Mərkəzin işçisi dərhal bu barədə Mərkəzin rəisinə məlumat verir və qərarın icrası bu Məcəllənin 82.7-ci maddəsinə uyğun olaraq dayandırılır.

82.7. Bu Məcəllənin 82.6-cı maddəsində nəzərdə tutulmuş halda Mərkəz işçisi qərarın düzgün tərtib edilməsini və şəxsi işin materiallarına uyğunluğunu yoxlayır. Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin şəxsiyyəti dəqiqləşdirildikdən dərhal sonra həmin əcnəbi və vətəndaşlığı olmayan şəxs barəsində qəbul edilmiş qərar icra edilir. Əcnəbi və vətəndaşlığı olmayan şəxs həmin qərarla tanış edilir.

82.8. Mərkəzin rəisi aşağıdakı hallarda müvafiq qərar olmadan protokol tərtib edir və bu barədə əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Mərkəzdə məcburi yerləşdirilməsi barədə qərar qəbul etmiş vəzifəli şəxsə və ya hakimə məlumat verməklə Mərkəzdə yerləşdirilmiş əcnəbini və vətəndaşlığı olmayan şəxsi azad edir:

82.8.1. əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Mərkəzdə yerləşdirilməsi barədə qəbul edilmiş qərarda müəyyən olunmuş müddət başa çatdıqda və bu müddət uzadılmadıqda;

82.8.2. əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Mərkəzdə yerləşdirilməsinin bu Məcəllədə nəzərdə tutulmuş son müddəti başa çatdıqda.".

2. 85.4-cü maddəyə "halları" sözündən sonra ",habelə yemək və maddi-məişət normaları" sözləri əlavə edilsin.

3. 86.0.15-ci maddədə "təkliflərin, şikayətlərin və ərizələrin" sözləri "müraciətlərin" sözü ilə əvəz edilsin.

4. 87-ci maddə üzrə:

4.1. 87.1.6-cı maddədə "təxirə salınmadan əlaqəyə girmək" sözləri "dərhal əlaqə saxlamaq" sözləri ilə əvəz edilsin;

4.2. 87.1.12-ci maddədə "təklif, ərizə və şikayətlərinə" sözləri "müraciətlərinə" sözü ilə əvəz edilsin;

4.3. 87.1.13-cü maddədə "təklif, ərizə və şikayətlərlə müraciət etmək" sözləri "müraciət ünvanlamaq" sözləri ilə əvəz edilsin;

4.4. 87.1.19-cu maddədən "yaxın qohumlarına pul baratları" sözləri çıxarılsın.

5. Aşağıdakı məzmunda 88-1-88-11-ci və 89-1-ci maddələr əlavə edilsin:

**"Maddə 88-1. Mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin şəxsi təhlükəsizlik hüququ**

88-1.1. Mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin həyatına, sağlamlığına, yaxud şəxsiyyətinə qarşı Mərkəzdə saxlanılan digər əcnəbilər və vətəndaşlığı olmayan şəxslər və ya başqa şəxslər tərəfindən təhlükə yaranarsa, o, Mərkəzin rəisinə təhlükəsizliyinin təmin olunması üçün yazılı və ya şifahi qaydada müraciət etmək hüququna malikdir. Mərkəzin rəisi belə təhlükəyə məruz qalan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin təhlükəsizliyini təmin etmək üçün dərhal lazımi tədbirlər görməlidir.

88-1.2. Mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin həyatına və sağlamlığına, yaxud şəxsiyyətinə qarşı Mərkəzin işçiləri tərəfindən təhlükə yaranarsa, Mərkəzin rəisi belə təhlükəyə məruz qalan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin təhlükəsizliyini təmin etmək üçün dərhal lazımi tədbirlər görməli və bu barədə müvafiq icra hakimiyyəti orqanını məlumatlandırmalıdır.

**Maddə 88-2. Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yazışmaları**

88-2.1. Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bu Məcəllənin 88-2.4-cü maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, məhdudiyyətsiz sayda məktub, teleqram almaq və ya öz vəsaitləri hesabına göndərmək hüququna malikdirlər.

88-2.2. Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət hesabına bir ay ərzində iki dəfə məktub və ya teleqram göndərmək hüququna malikdirlər.

88-2.3. Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin məktub və teleqram göndərməsi bu Məcəllənin 88-3.2-ci maddəsində müəyyən edilmiş müddətdə və senzura qaydalarına uyğun olaraq həyata keçirilir.

88-2.4. Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müdafiəçi və ya hüquqi yardım göstərən digər şəxslərlə yazışmaları istisna olmaqla, onların aldıqları və göndərdikləri digər yazışmalar hazırlanan cinayətlərin qarşısını almaq, cinayət təqibini və şəxslərin təhlükəsizliyini təmin etmək məqsədilə cinayət prosesini həyata keçirən orqanın və ya Mərkəzdə rejimi təmin etmək üçün Mərkəz rəisinin əsaslandırılmış qərarı ilə məhdudlaşdırıla və ya senzuradan keçirilə bilər. Bu maddədə nəzərdə tutulan hüququn məhdudlaşdırılmasına dair qərardan inzibati və (və ya) məhkəmə qaydasında şikayət verilə bilər.

88-2.5. Qadağan olunmuş əşyaların ötürülməsinin qarşısını almaq məqsədilə Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin adına gələn və onlar tərəfindən göndərilən məktublar onların iştirakı ilə Mərkəzin işçisi tərəfindən açılır. Bu halda həmin məktubların oxunmasına yol verilmir.

88-2.6. Mərkəzdən azad edilmiş (və ya buraxılmış) əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ünvanına daxil olan məktublar Mərkəzin rəisi tərəfindən ən geci   1 iş günü müddətində həmin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşadığı (olduğu) ünvana göndərilir.

88-2.7. Azərbaycan Respublikasının ərazisini tərk etmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ünvanına gələn məktub və teleqramlar həmin məktubu və ya teleqramı göndərən şəxsə qaytarılır.

**Maddə 88-3. Müraciətlərin göndərilməsi**

88-3.1. Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ibtidai araşdırma orqanına, prokurora, məhkəməyə, müvafiq icra hakimiyyəti orqanına, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana) və Milli preventiv qrupuna, BMT-nin insan hüquqlarının və azadlıqlarının müdafiəsi ilə məşğul olan qurumlarına, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə və ya işgəncənin və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinə ünvanladıqları müraciətlər 1 gündən gec olmayaraq (istirahət və iş günü hesab edilməyən bayram günləri, səsvermə və ümumxalq hüzn günü istisna olmaqla) aidiyyəti üzrə göndərilir. Bu müraciətlər, habelə onlara verilən cavablar senzuradan keçirilmir.

88-3.2. Bu Məcəllənin 88-3.1-ci maddəsində nəzərdə tutulmuş dövlət orqanları (qurumları) və vəzifəli şəxslər istisna olmaqla, Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən digər dövlət orqanlarına (qurumlarına) və vəzifəli şəxslərə ünvanlanan müraciətlər 24 saat müddətində aidiyyəti üzrə göndərilir. Bu müraciətlər, habelə onlara verilən cavablar bu Məcəllənin 88-2.4-cü maddəsində nəzərdə tutulan hallarda senzuradan keçirilə bilər.

88-3.3. Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müraciətləri ilə əlaqədar Mərkəzin ünvanına daxil olan cavab məktublarının surətləri 1 gündən gec olmayaraq, teleqramların surətləri isə dərhal onlara təqdim edilir.

88-3.4. Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər müraciət göndərdiklərinə görə hər hansı şəkildə təqib edilə bilməzlər.

**Maddə 88-4. Mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin digər şəxslərlə əlaqələri**

88-4.1. Mərkəzdə saxlanılan əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə Mərkəzdə yerləşdirilməsi barədə qərarın ona elan olunduğu andan görüşlərin sayı və müddəti məhdudlaşdırılmadan müdafiəçisi və qanuni nümayəndəsi ilə təklikdə görüşməsinə və konfidensial ünsiyyət saxlamasına şərait yaradılır.

88-4.2. Mərkəzə məcburi yerləşdirilən əcnəbi və vətəndaşlığı olmayan şəxs Mərkəzə qəbul edildikdən dərhal sonra Mərkəzdə saxlanılması barədə yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə bu barədə məlumat vermək üçün bir dəfə telefonla zəng etmək hüququna malikdir. Mərkəzə məcburi yerləşdirilən əcnəbi və vətəndaşlığı olmayan şəxs həftədə dörd dəfə 25 dəqiqəyədək bu Məcəllənin 88-4.4-cü maddəsinin tələbləri gözlənilməklə telefonla danışmaq hüququna malikdir. Yaxın qohumunun ölümü, həyatını təhlükə altına alan ağır xəstəliyi və təbii fəlakətlə əlaqədar Mərkəzdə məcburi yerləşdirilən əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə Mərkəzin rəisi tərəfindən əlavə telefon danışığına icazə verilir.

88-4.3. Müdafiəçisi ilə telefon danışıqları və görüşləri istisna olmaqla, Mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin telefon danışıqlarından və görüşlərdən istifadə etmək hüququ hazırlanan cinayətlərin qarşısını almaq, cinayət təqibini və şəxslərin təhlükəsizliyini təmin etmək məqsədilə cinayət prosesini həyata keçirən orqanın və ya Mərkəzdə rejimi təmin etmək zərurəti yarandıqda, Mərkəzin rəisinin əsaslandırılmış qərarı ilə müəyyən müddətə məhdudlaşdırıla bilər. Belə qərar qəbul edildikdə, Mərkəzdə saxlanılan əcnəbi və vətəndaşlığı olmayan şəxs həmin hüquqlardan yalnız müvafiq qərarı qəbul etmiş vəzifəli şəxsin yazılı razılığı olduqda istifadə edir. Bu maddədə nəzərdə tutulan hüququn məhdudlaşdırılmasına dair qərardan inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

88-4.4. Mərkəzdə yerləşdirilən şəxsin Mərkəzdə saxlanıldığı (tutularaq gətirilən şəxslərin isə həmçinin tutulduğu yer) barədə onun vətəndaşı olduğu və ya daimi yaşadığı dövlətin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliyinə və ya konsulluğuna, yaxud ona himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilata dərhal məlumat verilir və belə məlumatın verildiyi qeydə alınır.

88-4.5. Mərkəzdə saxlanılan əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə vətəndaşı olduğu və ya daimi yaşadığı dövlətin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliyi və ya konsulluğu ilə, habelə himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlarla dərhal əlaqə saxlamaq imkanı yaradılır.

**Maddə 88-5. Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yemək və maddi-məişət təminatı**

88-5.1. Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər gündə üç dəfə yemək və maddi-məişət normalarına uyğun, keyfiyyət baxımından müasir gigiyena tələblərinə və qida normalarına cavab verən pulsuz, Mərkəzdə hazırlanmış isti yeməklə təmin edilirlər. Yeməklər hazırlanarkən, Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşı, sağlamlıq vəziyyəti və dini ənənələri nəzərə alınır.

88-5.2. Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Mərkəzdə sanitariya-gigiyena və yanğın təhlükəsizliyi qaydalarının tələblərinə uyğun olaraq zəruri maddi-məişət şəraiti ilə təmin olunurlar. Onların Mərkəzdə insan ləyaqətini alçaldan şəraitdə saxlanılması qadağandır.

88-5.3. Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istifadə sahəsi hər nəfərə dörd kvadratmetrdən az olmayan yaşayış otaqlarında saxlanılır və fərdi çarpayı, habelə yataq ləvazimatları ilə təmin olunurlar.

88-5.4. Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin münasib paltarı olmadıqda, onlar iqlimə uyğun paltarla təmin edilirlər. Belə paltar insan ləyaqətinə uyğun olmalı, habelə azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə verilən paltardan fərqlənməlidir.

**Maddə 88-6. Mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin tibbi-sanitariya təminatı**

88-6.1. Mərkəzdə saxlanılan əcnəbi və vətəndaşlığı olmayan şəxs Mərkəzə qəbul edildiyi andan 24 saat müddətində tibbi müayinədən keçirilir, qəbul edilən hər bir əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə tibbi kitabça tərtib olunur. Tibbi müayinə digər şəxslərin iştirakı olmadan (təhlükəsizlik tədbirləri ilə bağlı hallar istisna olmaqla) tibb işçiləri tərəfindən aparılır.

88-6.2. Tibbi müayinə zamanı əcnəbidə və vətəndaşlığı olmayan şəxsdə bədən xəsarətləri və ya Mərkəzə yerləşdiriləne qədər onun hər hansı işgəncəyə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftara məruz qalması müşahidə olunarsa, bu barədə tibb işçisi tərəfindən dərhal Mərkəz işçisinə məlumat verilir.

88-6.3. İşgəncə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftarla əlaqədar şikayətlər, habelə tibbi müayinə zamanı aşkar edilən işgəncə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar nəticəsində törədildiyi ehtimal edilən bədən xəsarətləri barədə yazılı məlumatlar müvafiq icra hakimiyyəti orqanı vasitəsilə araşdırma aparılması üçün dərhal müvafiq prokurorluq orqanına göndərilir.

88-6.4. Mərkəzdə saxlanılan əcnəbi və vətəndaşlığı olmayan şəxs xəstələndikdə və ya bədən xəsarəti aldıqda, onların tibbi müayinəsi tibb işçiləri tərəfindən dərhal həyata keçirilir. Tibbi müayinənin nəticələri qeydə alınaraq, Mərkəzdə saxlanılan əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə, eləcə də müraciət olduqda, həmin əcnəbinin və vətəndaşlığı olmayan şəxsin müdafiəçisinə təqdim edilir.

88-6.5. Mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin, yaxud onun müdafiəçisinin vəsatəti ilə Mərkəz rəisinin qərarı əsasında tibbi müayinəyə başqa tibb müəssisələrinin həkim mütəxəssisləri cəlb edilə bilərlər. Bu halda, dəvət edilən həkim mütəxəssislər tərəfindən keçirilən tibbi müayinənin xərcləri bu barədə vəsatət verən şəxsin vəsaiti hesabına ödənilir.

88-6.6. Mərkəzdə saxlanılan əcnəbi və vətəndaşlığı olmayan şəxs Mərkəzdən azad edilməzdən (və ya buraxılmazdan) və ya digər Mərkəzə köçürülməzdən əvvəl tibb işçiləri tərəfindən tibbi müayinədən keçirilir və bu barədə tibbi kitabçada qeyd aparılır.

88-6.7. Mərkəzdə saxlanılan əcnəbi və vətəndaşlığı olmayan şəxs ağır xəstəliyə tutulduqda və ya vəfat etdikdə, Mərkəzin rəisi bu barədə dərhal həmin şəxsin yaxın qohumlarına (teleqram vasitəsilə), vəfat etdikdə, həmçinin onların vətəndaşı olduqları və ya daimi yaşadıqları dövlətin Azərbaycan Respublikasındakı diplomatik və ya konsulluq nümayəndəliklərinə, habelə əcnəbi və vətəndaşlığı olmayan şəxsə himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlara və aidiyyəti dövlət orqanlarına məlumat verilməsini təmin edir.

88-6.8. Mərkəzdə saxlanılan əcnəbidə və vətəndaşlığı olmayan şəxsdə özünə və ya ətrafdakılara qarşı təhlükəli davranışla müşahidə olunan psixi pozuntu halları olduqda, o tibb işçisinin rəyinə əsasən ən geci 24 saat müddətində təcrid edilməklə Mərkəzdə saxlanılan digər əcnəbilərdən və vətəndaşlığı olmayan şəxslərdən ayrı saxlanılır. Bu müddətdə həyata keçirilən tibbi tədbirlər səmərəli olmadıqda, həmin əcnəbinin və vətəndaşlığı olmayan şəxsin psixiatriya yardımı almaq üçün müvafiq ixtisaslaşdırılmış tibb müəssisəsinə köçürülməsi üçün tədbirlər görülür.

88-6.9. Mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin meyiti məhkəmə-tibb ekspertizası keçirildikdən və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş digər prosessual hərəkətlər aparıldıqdan sonra onun qohumlarına təhvil verilir. Mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin öldüyü vaxtdan 7 gün müddətində meyitin təhvil verilməsi barədə müraciət daxil olmadıqda o, dövlət vəsaiti hesabına dəfn edilir. Həmin müddətdə meyitin daha uzun müddət saxlanılması barədə müraciət daxil olduqda, meyit müraciət edən şəxsin vəsaiti hesabına 30 günədək müddətdə müvafiq icra hakimiyyəti orqanının müvafiq qurumunun meyitxanasında saxlanılır.

**Maddə 88-7. Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini ayinlərin yerinə yetirilməsi, dini ləvazimatdan və ədəbiyyatdan istifadə edilməsi**

88-7.1. Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vicdan və dini azadlığına təminat verilir. Onlar Mərkəzdə dini ayinləri yerinə yetirmək, dini ləvazimatdan və ədəbiyyatdan istifadə etmək hüququna malikdirlər. Dini ayinlərin yerinə yetirilməsi üçün Mərkəzin rəisi tərəfindən müvafiq şərait yaradılır. Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin saxlandıqları yaşayış otaqlarında və yaxud bu məqsədlər üçün nəzərdə tutulmuş xüsusi otaqlarda dini ayinlərin yerinə yetirilməsi Mərkəzdə saxlanılan digər əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarını pozmamalıdır.

88-7.2. Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin xahişi ilə Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçmiş dini birliklərdən onlara mənəvi yardım göstərilməsi və dini ayinlərin icra edilməsi üçün din xadimləri dəvət oluna bilərlər.

**Maddə 88-8. Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən bağlama, sovqat, banderol, pul baratlarının alınması və ya göndərilməsi**

88-8.1. Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər say məhdudiyyəti olmadan iş günlərində bağlama, sovqat və banderol almaq və ya göndərmək, həmçinin şəxsi hesabları vasitəsilə pul baratları almaq və ya göndərmək hüququna malikdirlər.

88-8.2. Mərkəzdə saxlanılan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə qadağan olunmuş əşyaların ötürülməsinin qarşısını almaq məqsədilə sovqata onu gətirmiş şəxsin, bağlama və banderollara isə Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə Mərkəz işçisi tərəfindən baxış keçirilir.

88-8.3. Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin adına göndərilən bağlama və banderollarda, gətirilən sovqatlarda qadağan olunmuş əşyalar aşkar edildikdə, həmin əşyalar tərtib edilmiş axtarış protokolunda müvafiq qeydlər aparılmaqla götürülür və Mərkəzin anbarına təhvil verilir, yaxud Mərkəz rəisinin əsaslandırılmış qərarına əsasən məhv edilir. Protokol və əşyanın məhv edildiyi halda, Mərkəz rəisinin qərarı əcnəbinin və vətəndaşlığı olmayan şəxsin şəxsi işinə əlavə olunur.

**Maddə 88-9. Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin mülki hüquq və ailə münasibətlərində iştirakı**

88-9.1. Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər şəxsən və ya öz nümayəndələrinin vasitəsilə mülki hüquq münasibətlərində iştirak edir, ailə qanunvericiliyinin tələblərinə uyğun olaraq nikah bağlayır, nikahı pozur, habelə digər ailə münasibətlərində iştirak edirlər.

88-9.2. Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər notarius xidmətlərindən istifadə etmək hüququna malikdirlər.

**Maddə 88-10. Mərkəzdə saxlanılan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə münasibətdə işgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın tətbiq edilməməsi**

Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər heç bir halda işgəncəyə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qala bilməzlər.

**Maddə 88-11. Mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin yeməkdən imtina etdikdə görülən tədbirlər**

88-11.1. Mərkəzdə saxlanılan əcnəbi və vətəndaşlığı olmayan şəxs yeməkdən imtina etdikdə, Mərkəzin rəisi və ya onu əvəz edən şəxs, həkimin iştirakı ilə bunun səbəbini aydınlaşdırmalı, bu barədə dərhal müvafiq icra hakimiyyəti orqanına yazılı məlumat verməlidir.

88-11.2. Yeməkdən imtina etmənin səbəbləri əsaslı olduqda, Mərkəzin rəisi Mərkəzdə saxlanılan əcnəbi və vətəndaşlığı olmayan şəxs tərəfindən irəli sürülən qanuni tələblərin təmin edilməsi üçün dərhal tədbirlər görür. İrəli sürülmüş tələblərin dərhal təmin edilməsi mümkün olmadıqda, Mərkəzdə saxlanılan əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə müvafiq izah verilir və həmin tələblərin təmin edilməsi üçün tədbirlər görülür.

88-11.3. Yeməkdən imtina edən Mərkəzdə saxlanılan əcnəbi və vətəndaşlığı olmayan şəxs Mərkəz rəisinin və ya onu əvəz edən şəxsin əsaslandırılmış qərarı ilə Mərkəzdə saxlanılan digər əcnəbilərdən və vətəndaşlığı olmayan şəxslərdən ayrı saxlanılır və ona həkim nəzarəti təyin edilir.

88-11.4. Yeməkdən imtina edən Mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Mərkəzdə saxlanılma rejiminin öhdəliklərindən azad edilməsi həkimin tibbi rəyi əsasında həyata keçirilir.

88-11.5. Yeməkdən imtina edən Mərkəzdə saxlanılan əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə bu barədə müvafiq qeyd aparılmaqla gündə üç dəfəyemək verilir və ona yeməyi qəbul etmək təklif olunur. Bu təklif rədd edildikdə, yeməkdən imtina yeməklərin gətirilməsi haqqında qeydiyyatın aparıldığı vərəqdə qeyd olunur və həmin vərəq əcnəbinin və vətəndaşlığı olmayan şəxsin şəxsi işinə əlavə edilir.

88-11.6. Yeməkdən imtina edən Mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin həyatı üçün təhlükə yarandıqda və o, özü haqqında real qərar qəbul etmək qabiliyyətini itirdikdə, həkimin yazılı rəyinə əsasən və onun iştirakı ilə Mərkəzdə saxlanılan yeməkdən imtina edən əcnəbinin və vətəndaşlığı olmayan şəxsin səhhətinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər, o cümlədən həmin şəxsin ləyaqətini alçaltmamaq şərtilə məcburi qaydada qidalandırılması həyata keçirilir.

88-11.7. Mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin yemək qəbulundan imtina etməsi onun digər Mərkəzlərə göndərilməsinə mane olmur. Mərkəzdə saxlanılan yemək qəbulundan imtina edən əcnəbinin və vətəndaşlığı olmayan şəxsin digər Mərkəzlərə göndərilməsi tibb işçisinin müşayiəti ilə həyata keçirilir.";

**"Maddə 89-1. Mərkəzdə tətbiq edilən həvəsləndirmə tədbirləri**

89-1.0. Mərkəzdə saxlanılan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə nümunəvi davranışına görə Mərkəz rəisinin və ya onu əvəz edən şəxsin qərarı ilə aşağıdakı həvəsləndirmə tədbirləri tətbiq edilir:

89-1.0.1. təşəkkür elan etmək;

89-1.0.2. verilmiş tənbeh tədbirini vaxtından əvvəl götürmək.".

6. 91.5-ci maddənin birinci cümləsində "anbara" sözü "Mərkəzin anbarına" sözləri ilə əvəz edilsin.

7. 92.1-ci maddə üzrə:

7.1. 92.1.8-ci maddədə "təklif, şikayət və ərizələrini" sözləri "müraciətlərini" sözü ilə əvəz edilsin;

7.2. 92.1.9-cu maddədə "məktub, teleqram, təklif, ərizə və şikayətlərinin" sözləri "müraciətlərinin" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2024-cü il*

# "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 82-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli  713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 82-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 82.4-cü maddəsinin dördüncü və beşinci cümlələrində, 88-1.2-ci maddəsində, 88-3.1-ci maddəsinin birinci cümləsində, 88-6.3-cü və 88-11.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir;

1.2. həmin Məcəllənin 88-6.9-cu maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 82-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 803 (Cild I); 2024, № 11, maddə 1200; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 275 nömrəli Fərmanı) aşağıdakı məzmunda 5.18-1-ci bənd əlavə edilsin:

"5.18-1. həmin Məcəllənin 88-6.9-cu maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 yanvar 2025-ci il*

# "III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 198 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 198 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 847) 1-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsinin tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Təşkilat Komitəsinin sədri**

Samir Şərifov - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsi sədrinin müavini**

Azərbaycan Respublikasının gənclər və idman naziri

**Təşkilat Komitəsinin üzvləri:**

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini
Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini
Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini
Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktorunun müavini
Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyəti sədrinin müavini
Heydər Əliyev Beynəlxalq Aeroportu direktorunun müavini
"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini
"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi baş direktorunun müavini
"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vitse-prezidenti
Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti
"CBC Sport" televiziya kanalının baş direktoru
Oğuz Rayon İcra Hakimiyyətinin başçısı
Bərdə Rayon İcra Hakimiyyəti başçısının müavini
Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini
Goranboy Rayon İcra Hakimiyyəti başçısının müavini
Göygöl Rayon İcra Hakimiyyəti başçısının müavini
İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının müavini
Qazax Rayon İcra Hakimiyyəti başçısının müavini
Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini
Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısının müavini
Naftalan Şəhər İcra Hakimiyyəti başçısının müavini
Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini
Şəmkir Rayon İcra Hakimiyyəti başçısının müavini
Tərtər Rayon İcra Hakimiyyəti başçısının müavini
Tovuz Rayon İcra Hakimiyyəti başçısının müavini
Yevlax Şəhər İcra Hakimiyyəti başçısının müavini.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2025-ci il*

# Baş nazir Əli Əsədov bələdiyyə seçkilərində səs verib



**Yanvarın 29-da bələdiyyə seçkilərinin başlandığı səhər saatlarından 7 saylı Səbail Rayon Seçki Dairəsinin 2 saylı seçki məntəqəsində də fəallıq var idi.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov bu seçki məntəqəsinə gələrək səs verib.

Məntəqədə 1332 seçici qeydiyyata alınıb.

Qeyd edək ki, 685 bələdiyyəyə 8071 üzv seçmək üçün Azərbaycan seçiciləri öz hüquqlarından istifadə ediblər.

Bələdiyyə seçkilərində qeydə alınan namizədlərin sayı 16 min 238 nəfərdir. Seçki bülletenlərinə 16 min 92 nəfərin adı daxil edilib.

Hazırda Azərbaycanda bələdiyyə seçkilərində səsvermə hüququ olan 5 milyon 961 min 987 seçici var.

Bələdiyyə seçkilərində müşahidəçi qismində iştirak etmək üçün ümumilikdə 70 min 625 yerli müşahidəçi akkreditasiyadan keçib.

# Milli Məclisin Sədri Sahibə Qafarova 11 saylı seçki məntəqəsində səs verib



**Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova yanvarın 29-da 19 saylı Nərimanov I Seçki Dairəsinin 11 saylı seçki məntəqəsində səs verib.**

AZƏRTAC xəbər verir ki, məntəqədə səsvermənin gedişini yerli müşahidəçilər izləyiblər. Səhər saatlarından etibarən 11 saylı seçki məntəqəsində də seçicilərin fəallığı müşahidə olunub. Məntəqədə 1482 seçici qeydiyyatdadır.

Qeyd edək ki, yanvarın 29-da səhər saat 8:00-da Azərbaycan Respublikasında bələdiyyə seçkiləri ilə əlaqədar səsvermə başlayıb. Səsvermə 118 seçki dairəsi üzrə 5846 məntəqədə keçirilib. Seçkilərdə 16 min 92 namizəd mübarizə aparıb. Seçkilər zamanı respublika üzrə 685 bələdiyyəyə 8071 üzv seçiləcək. Səsvermə saat 19:00-da başa çatıb.

# Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev 34 saylı seçki məntəqəsində səs verib




**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev yanvarın 29-da 16 saylı Yasamal II Seçki Dairəsinin 34 saylı seçki məntəqəsində səs verib.**

AZƏRTAC xəbər verir ki, bu seçki məntəqəsində də seçicilər öz hüquqlarından fəal şəkildə istifadə edirdilər.

Qeyd edək ki, bələdiyyə seçkilərində 16 min 92 namizəd mübarizə aparıb. Seçkilər zamanı respublika üzrə 685 bələdiyyəyə 8071 üzv seçiləcək.

Səsvermə 118 seçki dairəsi üzrə 5846 seçki məntəqəsində keçirilib.

# Mərkəzi Seçki Komissiyasının sədri 31 saylı seçki məntəqəsində səs verib

**Yanvarın 29-da Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov bələdiyyə seçkilərində səs verib. AZƏRTAC xəbər verir ki, MSK-nın sədri 21 saylı Nəsimi-Binəqədi Seçki Dairəsinin 31 saylı seçki məntəqəsində səsvermə hüququndan istifadə edib.**

Qeyd edək ki, 685 bələdiyyəyə 8071 üzv seçmək üçün Azərbaycan seçiciləri öz hüquqlarından istifadə ediblər.

Bələdiyyə seçkilərində qeydə alınan namizədlərin sayı 16 min 238 nəfərdir. Seçki bülletenlərinə 16 min 92 nəfərin adı daxil edilib.

Hazırda Azərbaycanda bələdiyyə seçkilərində səsvermə hüququ olan 5 milyon 961 min 987 seçici var.

Bələdiyyə seçkilərində müşahidəçi qismində iştirak etmək üçün ümumilikdə 70 min 625 yerli müşahidəçi akkreditasiyadan keçib.



# Baş prokuror bələdiyyə seçkilərində səs verib



Baş prokuror Kamran Əliyev 15 saylı Yasamal I Seçki Dairəsinin 15 saylı seçki məntəqəsində səs verib.

# Bütün dairələrdə seçkilər normal keçib

## Mərkəzi Seçki Komissiyası bələdiyyə seçkilərinin ilkin nəticələrini açıqlayıb






*Əvvəli 1-ci səh.*

Qeyd edib ki, məntəqələrdə olan seçicilərin hamısı azad, sərbəst şəkildə səs verdikdən sonra artıq seçkilərə yekun vurulub və məntəqə seçki komissiyasının protokolları Seçki Məcəlləsinin tələbinə uyğun olaraq müşayiətlə dairə seçki komissiyasına çatdırılıb. Sonra isə həmin nəticələr Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilib.

Diqqətə çatdırılıb ki, bələdiyyə seçkiləri keçirilən 118 dairə seçki komissiyasının hamısından, həmçinin 4872 seçki məntəqəsindən, yəni ümumi məntəqələrin 83,34 faizindən məlumatlar artıq MSK-nın internet səhifəsində yerləşdirilib. Ümumilikdə 660 bələdiyyədən məlumatlar daxil olub. Lider namizədlərin sayı isə 7791 nəfərdir. Ümumilikdə bu vaxtadək tam formalaşmış bələdiyyələrin sayı 413-dür. Bu da ümumi bələdiyyələrin 60,29 faizini təşkil edir. Bu, çox yüksək göstəricidir.

Məzahir Pənahov əlavə edib ki, aşağı seçki komissiyaları öz vəzifələrinin öhdələrindən qısa müddətdə çox yüksək səviyyədə gəliblər. Qalan cüzi məlumatlar daxil olduqca MSK-nın internet səhifəsində yerləşdiriləcək.

"Dairə seçki komissiyalarının protokolları yanvarın 30-dan etibarən MSK-ya daxil olmağa başlayacaq. Bundan sonra biz ilkin protokol məlumatları əsasında ictimaiyyəti nəticələrlə tanış edəcəyik", - deyə Məzahir Pənahov vurğulayıb.

# Paytaxtda bələdiyyə seçkiləri demokratik standartlara tam uyğun şəkildə keçirildi

## Səsvermə seçki qanunvericiliyinə uyğun keçirildi

Yanvarın 29-u ölkəmizin tarixinə bələdiyyə seçkiləri günü kimi düşdü. Fəallıq nümayiş etdirən vətəndaşlar seçki məntəqələrinə gələrək proqram və platformalarını yüksək dəyərləndirdikləri namizədə səs verdilər, onlara etimad göstərdilər.





Onu da qeyd edək ki, seçicilərin azad, sərbəst və şəffaf şəkildə səs vermələri üçün ən müasir texniki avadanlıqlarla təmin olunmuş məntəqələrdə hər cür şərait yaradılmışdı. Bu şəraiti seçicilər böyük razılıqla qarşılamışdılar.

7 saylı Səbail Rayon Seçki Dairəsinin 37 saylı məntəqəsində olarkən biz bunun şahidi olduq. Məntəqədə seçki prosesinin keçirilməsi müşahidəçilər tərəfindən də diqqətlə izlənilirdi. Əsas məqsəd o idi ki, bələdiyyə seçkiləri demokratik və şəffaf keçirilsin, hər hansı bir pozuntuya yol verilməsin.

Seçicilərlə yanaşı, seçki prosesini izləyən müşahidəçilərlə də görüşüb söhbət etdik, onların fikir və düşüncələrini öyrəndik. İlk həmsöhbətimiz olan Yeni Azərbaycan Partiyasının müşahidəçisi Məhsəti Əsgərova dedi ki, seçkilərin gedişini çox diqqətlə izləyirik. Seçkilərdə seçici fəallığı elə ilk dəqiqələrdən hiss olunmağa başladı. Məntəqədə seçicilərin səs vermələri üçün lazımi şərait yaradılıb. Seçki prosesi çox yüksək səviyyədə təşkil olunub. İndiyə qədər heç bir şikayət qeydə alınmayıb. Proses seçki qanunvericiliyinə uyğun davam edir.

Öz təşəbbüsü ilə müşahidəçi olan Bəniyə Qarayeva dedi ki, seçki prosesi səhər saat səkkizdən başlayıb. Seçicilər məntəqəyə gələrək sərbəst şəkildə müəyyənləşdirdikləri namizədlərə səs verirlər. Onların səs vermələri üçün məntəqədə hərtərəfli şərait var. Ötən müddət ərzində heç bir nöqsan müşahidə etməmişik. Məntəqədə işləyən komissiya üzvləri seçicilərlə maarifləndirmə söhbətləri aparır, səsvermənin qaydalarını onlara ətraflı izah edirlər. Hər kəs öz işini, öz vəzifəsini məsuliyyətlə yerinə yetirir.

- Mən də öz təşəbbüsümlə seçkilərdə müşahidəçi kimi iştirak edirəm, - deyə Şəlalə Seyidova söhbətimizə qoşuldu:

- Vətəndaşların seçkilərdə fəal iştirak etməsi bizi çox sevindirir. Məntəqəyə daxil olan insanların üzü gülür, gözlərindən sevinc duyulur. Hər addımda hiss olunur ki, xalqımız bələdiyyə seçkilərinə böyük önəm verir, onu yüksək dəyərləndirir. Ona görə də səhər lap ertədən ən yaxşı namizədə səs vermək üçün məntəqəyə gəlirlər. Düşünürəm ki, seçkiyə verilən yüksək dəyər bu günümüzə, sabahımıza və gələcəyimizə olan münasibətdir. Bu, qazanılacaq uğurlardan və zəfərlərdən xəbər verir.

Yeni Azərbaycan Partiyasından müşahidəçi olan Şövkət Həsənli dedi ki, yaşlı bir kişi səs verməyə gəlmişdi. Bunu görəndə çox sevindim. Bu insanların yaşı çox olsa da vətəndaşlıq məsuliyyətlərini unutmurlar. Bilirlər ki, seçkilərdə hər səsin yeri var. Gənclərimiz də belə yaşlı insanlara baxıb nümunə götürür, yüksək ovqatla məntəqələrə gəlib səsvermə prosesində fəal iştirak edirlər. Seçki prosesində heç bir qanun pozuntusu müşahidə olunmayıb. Bütün bunlar seçkiyə yüksəksəviyyəli hazırlığın nəticəsidir.

Daha sonra müşahidəçilərdən Mehriban İsmayılova, Kəmalə Əlizadə, Aynur Rəhimli, Suqra Qurbanova və başqaları ilə görüşüb söhbət etdik. Onlar seçki prosesinin çox yüksək səviyyədə, fəal şəkildə keçirildiyini, heç bir qanun pozuntusunun qeydə alınmadığını bildirdilər.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

## Seçicilərin fəallığı gələcək bələdiyyə üzvlərinin məsuliyyətini artırır

Sabunçu rayonunun da seçiciləri öz hüquqlarından istifadə edərək etimad göstərdikləri namizədlərə səs verdilər.



Sabunçu rayonu 27 saylı II Seçki Dairəsinin 29, 34 və 38 saylı seçki məntəqələrinə yollandıq. Rayondakı 67 saylı tam orta məktəbdə yerləşən 34 saylı seçki məntəqəsində əvvəlcə müşahidəçilərin fikirlərini öyrəndik. Müşahidəçi Səadət Əliyusifova seçkinin şəffaf, demokratik və azad keçdiyini diqqətə çatdırdı. Digər müşahidəçilər Mehriban Nuriyeva və Natiqə Məmmədova da seçkinin gedişindən razılıqlarını ifadə etdilər.

Məntəqənin sədri İradə Bayramova seçkiyə hazırlıqların, təbliğat işlərinin lazımi qaydada aparıldığını dedi. Öyrəndik ki burada qeydiyyata alınan seçicilərin sayı 1470 nəfərdir: "Gördüyünüz kimi, seçicilər gəlirlər. Məktəbin həyətində qoyduğumuz lövhədən adlarını, ünvanlarını tapırlar. Bütün seçki qaydalarına riayət edərək istədikləri namizədlərə səs verirlər. Qaydaya uyğun olaraq, səsverməyə səhər saat 8-də başlamışıq. İndiyə qədərki seçici fəallığı qaneedicidir".

Səsvermədə iştirak edən seçicilərin də fikir və rəylərini öyrəndik. İradə Həsənova dedi: "Seçkilərdə fəal iştirak etmək hər bir seçicinin vətəndaşlıq borçudur. Gəlmişik öz vətəndaşlıq borcumuzu yerinə yetirək. Öz seçdiyim namizədlərə səs verdim". Söhbət etdiyimiz digər seçicilər - Kristina Hacıyeva, Şölə Mustafayeva, Natiq Hüseynov, Cənnət Hacıyev, Çimnaz Maqsudova, Aygün Hüseynova və başqaları da öz vətəndaşlıq mövqelərini bildirmək, ölkəmizin uğurları naminə səs vermək üçün gəldiklərini dedilər.

"Bələdiyyə seçkilərinə hazırlıq qənaətbəxşdir. Təbliğat yaxşı aparılıb. Seçicilər öz hüquq və vəzifələrini bilirlər". Bunu baş çəkdiyimiz 29 saylı seçki məntəqəsinin sədri Elnarə Əmirova bizimlə söhbətində dedi: "Məntəqəmizdə 1360 seçici var. Seçicilər fəallıq göstərirlər. Biz də çalışırıq ki, üzərimizə düşən vəzifələrin öhdəsindən layiqincə gələk ki, məntəqəyə gələn seçicilər heç bir problemlə qarşılaşmasınlar".

Seçkidə öz təşəbbüsü ilə iştirak edən müşahidəçi Ülviyyə Əhmədova seçkinin davam etdiyi müddətdə heç bir pozuntunun qeydə alınmadığını söylədi. Digər müşahidəçi - Yeni Azərbaycan Partiyasının nümayəndəsi Xalidə Rzayeva da dedi ki, seçki başlandığı vaxtdan seçici fəallığı müşahidə olunur: "Seçicilərimiz məntəqəyə gəlir, öz hüquqlarından istifadə edirlər".

Məntəqədə fikirlərini öyrəndiyimiz seçicilər də səsvermənin gedişindən razı qaldıqlarını söylədilər. Leyli Quliyeva, Oktay Qasımov, Samid Abasov və başqaları çox rahat şəkildə səs verdiklərini, lazımi şəraitin yaradıldığını vurğuladılar. Onların hər biri seçdikləri namizədlərə səs verdiklərini qeyd etdilər.

Dairənin 38-ci seçki məntəqəsində də seçkiyə ciddi hazırlıq görüldüyü ilk baxışdan diqqəti cəlb etdi. Məntəqənin sədri Samiyə Abdulkərimova seçici hüququna malik olan hər kəsin sərbəst şəkildə səs verdiyini bildirdi: "Məntəqəmizdə 1352 seçici var. Seçkinin tam obyektiv, şəffaf, demokratik şəraitdə keçdiyi göz önündədir. Seçicilərin səsvermədə fəal iştirak etmələri də bizi sevindirir". Seçicilər Səhrad Mirzəyev, Gülbuta Qasımova, Kəmalə Hacıyeva və başqaları qeyd etdilər ki, seçki prosesi çox yaxşı səviyyədə təşkil olunub.

Müşahidəçi Aytən Yaqubova isə səsvermənin qanunvericiliyin tələblərinə uyğun keçirildiyini, səsvermə prosesində heç bir neqativ halla qarşılaşmadıqlarını dedilər. Digər müşahidəçi - Yeni Azərbaycan Partiyasının nümayəndəsi Səma Quliyeva seçki prosesinin şəffaf və ədalətli keçdiyini, heç bir neqativ halın qeydə alınmadığını bildirdi.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# Bələdiyyə seçkiləri: 26 illik tarix

### Yerli özünüidarəetmə orqanlarına keçirilən sayca 6-cı seçkilər də gözləntiləri doğrultdu

Ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş Azərbaycanda yanvarın 29-da ilk bələdiyyə seçkiləri keçirildi. Sayca 6-cı bələdiyyə seçkiləri ölkə ərazisindəki 118 seçki dairəsini əhatə edən 5 min 846 məntəqədə baş tutdu. 685 bələdiyyənin 8 min 71 üzvü üçün 16 min 92 namizəd mübarizə apardı.



Seçicilərin azad və sərbəst səs verməsi üçün hər cür zəruri avadanlıqlarla təmin edilmiş məntəqələrə 6 milyon 52 min 721 seçki bülleteni paylanılmışdı. Bələdiyyə seçkilərində səsvermə hüququ olan seçicilərin sayı 5 milyon 961 min 987, seçkiləri izləmək üçün qeydiyyatdan keçən yerli müşahidəçilərin sayı isə 70 min 625 nəfər idi.

Səsvermənin şəffaflığını təmin etmək üçün bütün digər vasitələrlə yanaşı, 1000 seçki məntəqəsində veb-kameralar da quraşdırılmışdı.

Öncə ölkəmizdə yerli özünüidarəetmə orqanlarına keçirilən seçkilərin tarixinə nəzər yetirək. Azərbaycanda ilk bələdiyyə seçkiləri 1999-cu ildə keçirilib. İlk bələdiyyə seçkilərinə hazırlıq dövründə püşkatma yolu ilə 74 ərazi seçki komissiyası və 4683 məntəqə seçki komissiyası yaradılıb. Bunların tərkibində ümumən 90 min nəfərdən artıq vətəndaş seçkinin təşkili ilə məşğul olub. Həmçinin seçkilərdə 43 min nəfərdən çox vətəndaş bələdiyyə üzvlüyünə namizəd olmaq üçün müraciət edib.

Müraciət edənlərin təqribən 51 faizi bitərəf, 49 faizi isə siyasi partiyaların üzvləri olmuşdular. Seçki günü respublika üzrə seçki siyahılarına daxil olmuş 4 milyon 312 min 265 nəfər seçicinin 52,6 faizi səsvermədə iştirak edib. Səsvermənin nəticəsi olaraq 20456 nəfər bələdiyyə üzvü seçilib. 51 şəhər, 8 şəhərdə rayon, 123 qəsəbə və 2 409 kənd bələdiyyəsi seçilib.

Aktiv siyasi təşkilatlardan YAP, AXCP və Müsavat seçkilərə qatılıb və müxtəlif sayda bələdiyyələr qazanıblar. Azərbaycan Milli İstiqlal Partiyası (AMİP) seçkilərdə iştirak etməyib.

Növbəti seçkilər 5 il sonra, 2004-cü ildə baş tutub. Bələdiyyə seçkilərində ümumilikdə 38 041 namizəd iştirak edib, onlardan 21 mindən çoxu Yeni Azərbaycan Partiyasının üzvü olub.

Bələdiyyə seçkilərində ölkə üzrə seçicilərin ümumi sayının 52,6 faizi səsvermədə iştirak edib. Seçilmiş 20 346 bələdiyyə üzvündən 19 516 nəfəri kişi (95,92 faiz), 830 nəfəri isə qadın (4,08 faizi ) olub.

Sonrakı bələdiyyə seçkisi 2009-cu ildə baş tutub. Seçkilər 118 seçki dairəsi və 4813 seçki məntəqəsi üzrə keçirilib, 15 min 682 bələdiyyə üzvünün seçilməsi üçün 1718 bələdiyyəni əhatə edib. Seçkilərdə cəmi 32.4 faiz seçici iştirak edib.

Bələdiyyələrə üzv seçilmiş şəxslərdən 10 min 290-nı Yeni Azərbaycan Partiyası, 132-si Böyük Quruluş Partiyası, 81-i Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, 62-si Ana Vətən Partiyası, 61-i Vətəndaş Həmrəyliyi Partiyası, 41-i Azərbaycan Ümid Partiyası, 15-i Azərbaycan Demokratik İslahatlar Siyasi Partiyası, 14-ü Vətəndaş Birliyi Partiyası, 5-i Azərbaycan Sosial Rifah Partiyası, 4-ü isə Müsavat Partiyası tərəfindən namizədliyi irəli sürülmüş şəxslər olub. Həmçinin seçilmiş bələdiyyə üzvlərindən 4157-si bitərəf, 157-si isə partiya mənsubiyyətini göstərməmiş şəxs olublar.

2014-cü ildə baş tutan seçkilərdə isə 1607 bələdiyyəyə 15035 üzv seçilməsi nəzərdə tutulub. 37077 namizədin adı bələdiyyələr üzrə seçki bülletenlərinə daxil edilib. Bu namizədlərin 13907-nin namizədliyi 8 siyasi partiya tərəfindən, 109-u təşəbbüs qrupu tərəfindən irəli sürülüb, 23061 nəfər isə öz namizədliklərini fərdi qaydada irəli sürüb.

2019-cu il seçkilərində iştirak üçün 41 463 namizəd qeydiyyatdan keçib, rəsmi olaraq isə 13 partiya iştirak qərarı verib. İlkin nəticələrə əsasən seçilmiş bələdiyyə üzvlərindən 5882 nəfəri qadın, 9272 nəfəri isə kişi olub. Bu, Azərbaycan tarixində qadınların bələdiyyə təmsilçiliyində rekord göstəricidir.

Ümumiyyətlə, Azərbaycan son 30 ildə seçki sahəsində də böyük təcrübə qazanıb. Demokratik ölkələrin, beynəlxalq təşkilatların təcrübəsi və milli dəyərlərin vəhdəti kimi formalaşan milli seçki sistemi ötən dövrdə Azərbaycanın çoxşaxəli inkişafına böyük töhfələr verib. Ölkəmizdə keçirilən çoxsaylı seçkilərin hər biri əvvəlkilərdən daha keyfiyyətli şəkildə təşkil olunub.

Əlbəttə ki, seçkinin keyfiyyət göstəricisi demokratiya, ədalət və şəffaflıqdır. Bu mənada Azərbaycanın təcrübəsi seçkidən-seçkiyə daha da modernləşib. Bu gün ölkəmizin seçki təcrübəsi müxtəlif dövlətlər tərəfindən öyrənilir. Ölkəmizdə 1993-cü ildən indiyə qədər keçirilmiş seçki proseslərində Azərbaycan cəmiyyəti heç bir maneə olmadan öz iradəsini ortaya qoyub. Ötən seçkilərdə olduğu kimi, yanvarın 29-da keçirilən bələdiyyə seçkilərində də şəffaflığın, demokratik prinsiplərin təmin olunması üçün bütün zəruri addımlar atılmışdı. Vətəndaşlar sərbəst şəkildə məntəqələrə gələrək yaşadıqları ərazinin özünüidarəetmə orqanının formalaşması üçün seçimlərini etdilər və əminliklə demək olar ki, bu seçkilər də Azərbaycan dövlətinin qüdrətinin, suveren gücünün təntənəsi oldu.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

## "Yaşlı nəslin nümayəndələri səsvermədə həvəslə iştirak etdilər"

"Seçicilər, əsasən də yaşlı nəslin nümayəndələri həvəslə səsvermədə iştirak etdilər".




AZƏRTAC xəbər verir ki, bu sözləri 7 saylı Səbail Seçki Dairəsinin 1 saylı seçki məntəqəsinin seçki prosesini izləyən müşahidəçi Fidan Əhmədova söyləyib. Müşahidəçi seçici fəallığının əsasən axşam saatlarında gözləniləcəyini diqqətə çatdırıb.

Seçkilərə öz təşəbbüsü ilə müşahidəçi olaraq qoşulan F.Əhmədova səsvermə prosesinin şəffaf şəkildə keçdiyini vurğulayıb.

## "Səsvermədə hər hansı qanun pozuntusu qeydə alınmadı"

"Bakıda 35 saylı Xətai III Seçki Dairəsinin 9 saylı məntəqəsində seçki prosesi şəffaf keçirildi".



Bunu "Report"a açıqlamasında məntəqənin müşahidəçisi Ziyafət Bağırova deyib.

O, əvvəlki seçkilərdə də məntəqədə müşahidəçi qismində iştirak etdiyini xatırladıb:

"Əvvəlki seçkilərdə olduğu kimi, indi də məntəqədə fəallıq müşahidə olundu. Proses şəffaf keçirilmiş, seçicilərin rahat səs verməsi üçün hər bir şərait yaradılmışdır. Məntəqədə hər yaşdan olan seçici var. Səsvermə prosesində hər hansı bir qanun pozuntusu qeydə alınmadı".

Qeyd edək ki, Azərbaycanda bələdiyyə seçkiləridir. Səsvermə ölkə ərazisindəki 118 seçki dairəsini əhatə edən 5 min 846 seçki məntəqəsində keçirildi. Bələdiyyə seçkilərində səsvermə hüququ olan 5 milyon 961 min 987 seçici var və 685 bələdiyyənin 8 min 71 üzvü üçün 16 min 92 namizəd mübarizə aparıb.

## "Sevindirici hal odur ki, gənclərin səsverməyə böyük marağı var"




"Azərbaycan xalqının bələdiyyə seçkilərinə marağı böyükdür". Bu sözləri AZƏRTAC-a açıqlamasında 23 saylı Nəsimi-Səbail Seçki Dairəsinin 12 saylı seçki məntəqəsində müşahidəçi qismində iştirak edən Mehriban İbrahimova deyib.

O, məntəqədə seçicilər üçün lazımi şəraitin yaradıldığını bildirib: "Vətəndaşlar bələdiyyə seçkilərində iştirak etmək üçün məntəqəyə gələrək öz konstitusiya hüquqlarından istifadə edirlər. Seçki prosesi şəffaf və nizam-intizamlı keçir. Səsvermə prosesində indiyə qədər heç bir qanun pozuntusu qeydə alınmayıb. Sevindirici hal odur ki, gənclərin səsverməyə böyük marağı var".

# Paytaxtda bələdiyyə seçkiləri demokratik standartlara tam uyğun şəkildə keçirildi

## Qaradağda seçicilər azad şəkildə iradələrini ifadə edirdilər





**Yanvarın 29-da keçirilən bələdiyyə seçkiləri zamanı 11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin 26, 30, 31 və 32 saylı məntəqələrinə baş çəkdik. Sözügedən məntəqələrdə yaradılan şəraitlə tanış olduq, səsvermə prosesini izlədik, müşahidəçi və seçicilərlə həmsöhbət olduq.**

"Bütün seçkilərdə fəal iştirak edirəm. Bir vətəndaş olaraq özümə borc bildim ki, bələdiyyə seçkilərində də gəlib səs verim. Qaradağ rayonunun gələcək inkişafı üçün layiqli işlər görəcəyinə əmin olduğum namizədə səs verdim". Bu sözləri, 11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin 30 saylı məntəqəsinə gələrək səs verən 32 yaşlı Tünzalə Cəlilova söylədi.

Səhər saatları olmasına baxmayaraq, səs vermək üçün bu məntəqəyə üz tutanların çox olduğunu müşahidə etdik. Eyni zamanda seçicilərin əksəriyyətinin gənclər olması da diqqətimizdən yayınmadı.

11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin 30 saylı məntəqə seçki komissiyasının sədri İntizar İsmayılova məlumat verdi ki, bu məntəqə üzrə seçicilərin ümumi sayı 1477 nəfərdir. Seçki məntəqəsindən kənarda səsvermə ilə bağlı müraciət olmadığını bildirən İntizar İsmayılova qeyd etdi ki, məntəqə hər bir şəraitlə təmin olunub və seçicilər səsvermədə sərbəst şəkildə iştirak edirlər.

### Suverenliyimizin bərpasından sonra keçirilən üçüncü seçki

"Fəxr hissi ilə deyim ki, bələdiyyə seçkiləri suverenliyimizin bərpasından sonra ölkəmizdə keçirilən üçüncü seçkidir. Məlum olduğu kimi, ötən ilin fevralında prezident seçkiləri, sentyabrında isə Milli Məclisə seçkilər həyata keçirilib. Xalqımız hər iki seçkidə bütöv Azərbaycanın vətəndaşları kimi böyük ruh yüksəkliyi ilə iştirak edərək azad iradələrini ifadə ediblər".

11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin 31 saylı məntəqə seçki komissiyasının sədri Vüsal Süleymanlı vurğuladı ki, xalqımız bələdiyyə seçkilərində fəallıq nümayiş etdirərək layiq bildikləri namizədlərə səs verirlər".

V.Süleymanlı məlumat verdi ki, bu dairə üzrə ümumilikdə 15 yer uğrunda 36 namizəd mübarizə aparır: "Səs verən seçicilərin dəqiq sayı günün sonunda bilinəcək, amma indiyəqədərki müşahidələrimə əsasən deyə bilərəm ki, məntəqəmizdə seçici fəallığı normaldır. Hətta onu da deyim ki, 18 yaşında ilk dəfə səs verən xanım seçicimiz də artıq səs verib. Məntəqədə seçkilərin şəffaflığının təmin olunması üçün hər bir şərait yaradılıb".

31 saylı seçki məntəqəsində könüllü müşahidəçi olan Səfa Əhmədovanın sözlərinə görə, ilk dəfədir ki, seçkilərdə iştirak edir: "Seçicilərin fəallıq nümayiş etdirdiyini görürəm. İndiyə qədər məntəqədə hər hansı qanun pozuntusuna rast gəlməmişəm".

11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin 32 saylı məntəqə seçki komissiyasının sədri Zeynəb Vəliyeva bildirdi ki, ümumilikdə məntəqə üzrə 1402 seçici var: "Seçki prosesi qaydasında keçir. Seçkinin ilk saatlarından seçicilərin aktivliyini müşahidə edirik. 82 yaşlı qocaman seçicimiz də artıq gəlib səsvermədə iştirak edib. Səsvermə üçün məntəqədə hər bir şərait yaradılıb".

Seçici Firavan Hüseynova söylədi ki, layiq bildiyi gənc namizədə səs verib: "Çünki onun bələdiyyə işçisi kimi uğurlu fəaliyyət göstərəcəyinə inanıram".

Həmsöhbət olduğumuz seçici Nəriman Qəhrəmanov da doğru seçim etdiyini dedi.

### Seçicilər layiq bildikləri namizədlərə səs verdilər

Binəqədi-Qaradağ Seçki Dairəsinin 26 saylı məntəqə seçki komissiyasının sədri Maqsud Heydərov bildirdi ki, məntəqə üzrə ümumilikdə 1394 seçici var: "Məntəqədə sərbəst səsvermə üçün hər cür şərait yaradılıb. İnsanlar məntəqəyə gələrək azad şəkildə öz iradələrini ifadə edirdilər. Seçici aktivliyi hiss olunurdu. Günün birinci yarısı olmasına baxmayaraq, artıq iki yüzə yaxın insan səs vermişdi. Ümumiyyətlə, vətəndaşlar böyük həvəs və məsuliyyətlə seçkidə iştirak edirdilər. Səhər saatlarında yaşı 90-ı keçmiş kişi seçicimiz əlində əsa səs verməyə gəlmişdi. O söyləyirdi ki, seçkiyə gəlib səs verməklə vətəndaşlıq borcunu yerinə yetirir".

Seçici Rövşən Cəfərovla həmsöhbət olduqda dedi ki, əhalimizin seçkilərdə böyük həvəs və məsuliyyətlə iştirak etdiyini görmək onu sevindirir. O özü də layiq bildiyi gənc namizədə səs verib.

11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin yuxarıda sadalanan məntəqələrində müşahidə etdiyimiz seçki prosesi bizdə belə fikir formalaşdırdı ki, bələdiyyə seçkilərində vətəndaşlarımız azad şəkildə seçki hüququndan istifadə edərək istədikləri namizədə səs verdilər.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Demokratik və şəffaf seçki ənənəsinin növbəti təzahürü

### Nizami rayonunda da seçici fəallığı müşahidə olundu

**Ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş Azərbaycanda dünən bələdiyyə seçkiləri keçirildi. 1999-cu ildən bəri keçirilən sayca 6-cı ümumrespublika seçkisində 16 min 92 namizəd mübarizə apardı.**



Seçicilərin azad və sərbəst səs verməsi üçün hər cür zəruri avadanlıqlarla təmin edilmiş məntəqələrə 6 milyon 52 min 721 seçki bülleteni paylanılmışdı. Bələdiyyə seçkilərində səsvermə hüququ olan seçicilərin sayı 5 milyon 961 min 987, seçkiləri izləmək üçün qeydiyyatdan keçən yerli müşahidəçilərin sayı isə 70 min 625 nəfər idi.

Səsvermənin şəffaflığını təmin etmək üçün bütün digər vasitələrlə yanaşı, 1000 seçki məntəqəsində veb-kameralar da quraşdırılmışdı.

Biz də seçki prosesini 25 saylı Nizami II Seçki Dairəsinin məntəqələrində izlədik. 25 saylı seçki dairəsi üzrə 29 namizəd mübarizə aparırdı. Seçicilərin məntəqələrə yaxınlaşaraq öz konstitusion hüquqlarından istifadə etdiyini müşahidə etdik. Ümumilikdə seçki məntəqələri üzrə seçici fəallığını orta hesab etmək olardı. Dairə Seçki Komissiyasının sədri Heydər Vəliyevdən seçki prosesi ilə bağlı məlumatları öyrəndik. O qeyd etdi ki, bələdiyyə seçkilərində şəffaflığın və aşkarlığın təmin olunması üçün 25 saylı Nizami II Seçki Dairəsi üzrə 34 seçki məntəqəsində vətəndaşların iradələrini sərbəst ifadə etməsi üçün hər bir şərait yaradılıb. Həmin məntəqələr üzrə 48474 seçici var: "Nizami II Seçki Dairəsi üzrə 34 məntəqədən 10-da veb-kameralar quraşdırılıb. Bu kameralar vasitəsilə seçki prosesini müşahidə etmək mümkündür".

DSK sədri bildirdi ki, bundan başqa, seçki dairəsinin 34 məntəqəsində 423 yerli müşahidəçi seçki prosesini izləyir. Müəyyən olunmuş saatlarda məntəqələrdən seçici sayı və aktivliyi barədə məlumatlar daxil olur. "Səhər saatlarında əsasən, 5467 seçici məntəqələrə yaxınlaşaraq öz seçim hüququndan sərbəst şəkildə istifadə edib, istədiyi namizədə səs verib. Hələ ki seçici fəallığı 11,28 faizdir. Seçici aktivliyinin orta səviyyədə olduğunu demək olar", - deyə o əlavə edib.

H.Vəliyev onu da vurğuladı ki, məntəqəyə yaxınlaşa bilməyən, ərizə ilə müraciət edən xəstə, yaşlı şəxslərə bülletenlər daşınan qutularda mənzillərinə çatdırılır və onlar istədiyi namizədə rahatlıqla səs verə bilirlər.

Seçki prosesini izlədiyimiz 25 saylı Nizami II Seçki Dairəsinin 17 saylı məntəqə seçki komissiyasının sədri Sevinc Bayramova qeyd etdi ki, saat 10:00-a olan məlumata əsasən, 96 nəfər səs verib: "Bu saata görə, aktivlik yaxşıdır. Seçki prosesini 13 yerli müşahidəçi izləyir. Məntəqə üzrə seçici siyahısında ümumilikdə 1472 nəfər qeydiyyatdadır. Seçki prosesi şəffaf şəkildə, heç bir problem olmadan keçir. Seçicilər məntəqəyə yaxınlaşaraq seçki hüquqlarından sərbəst şəkildə istifadə edərək istədikləri namizədə səs verirlər".

Seçki dairəsinin 18 saylı seçki məntəqəsinin sədri Vahid Bayramov da bildirdi ki, seçici fəallığı müşahidə olunur. Məntəqədə 9 yerli müşahidəçi prosesi izləyir. İndiyə kimi hər hansı qanun pozuntusu qeydə alınmayıb, bununla bağlı müraciət daxil olmayıb.

Məntəqə üzrə 1496 seçicinin qeydiyyatda olduğunu deyən komissiya sədri qeyd etdi ki, saat 10:00-a qədər 64 nəfər səs verib: "Məntəqədə şəffaflığın təmin olunması üçün hər bir şərait yaradılıb. Eyni zamanda yerli müşahidəçilər də prosesi izləyirlər. Məntəqədə veb-kamera quraşdırılıb ki, bunun da sayəsində seçki prosesini uzaqdan canlı izləmək mümkündür", - deyə V.Bayramov əlavə etdi.

25 saylı Nizami II Seçki Dairəsinin 19 saylı seçki məntəqəsində də səsvermə prosesini müşahidə etdik. Məntəqə seçki komissiyasının sədri Maral Seyidəliyeva qəzetimizə açıqlamasında bildirdi ki, məntəqə üzrə siyahıda 1352 seçici var: "Səhər saatları olmasına baxmayaraq, seçici fəallığını görürük. Saat 10:00-a olan məlumata əsasən, 88 nəfər səs verib. İndiyədək hər hansı qanun pozuntusu qeydə alınmayıb. Seçicilər məntəqəyə yaxınlaşaraq bülleteni götürüb istədikləri namizədə səs verib gedirlər".

M.Seyidəliyeva qeyd etdi ki, seçki prosesini 12 yerli müşahidəçi izləyir. Onlardan da qanun pozuntusu ilə bağlı indiyədək hər hansı məlumat daxil olmayıb. "Məntəqədə seçki prosesinin şəffaf və demokratik şəraitdə keçirilməsi üçün hər bir şərait yaradılıb. Proses nizamlı şəkildə davam edir", - deyə məntəqə seçki komissiyasının sədri əlavə etdi.

Nizami rayonunda 25 saylı Seçki Dairəsinə daxil olan məntəqələrdə seçki prosesinin qaydalara uyğun, heç bir problem olmadan davam etdiyini müşahidə etdik.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Seçkilər yerli özünüidarəetmə orqanına marağın artdığını təsdiqlədi

### Bu, Binəqədi rayonunda da müşahidə olundu

**Yanvarın 29-da ölkəmizdə keçirilən sayca 6-cı bələdiyyə seçkilərini müşahidə etmək məqsədilə 10 saylı Binəqədi III Seçki Dairəsinin 13 saylı seçki məntəqəsində olduq. Səhərin yenicə açılmasına baxmayaraq, seçki məntəqəsinin qarşısında qələbəlik var idi. Seçicilər səsvermə anının başlanacağı dəqiqələri gözləyirdilər. Çox keçmir ki, vaxt yetişir. Məntəqə seçki komissiyasının sədri Gülər Məcidova saat 08:00-da səsvermənin başlandığını elan edir. Beləliklə, seçici fəallığı ilə müşahidə olunan 13 saylı məntəqədə səsvermə başlayır.**

284 nömrəli orta məktəbin binasında yerləşən məntəqədə seçicilərin öz konstitusion hüquqlarını reallaşdırmaları üçün bütün lazımi şərait yaradılıb. Seçkiləri müşahidə etmək üçün məntəqədə veb-kameralar quraşdırılıb. Müşahidəçilərlə söhbət edirik. Dostuxanım Ağayeva deyir ki, Yeni Azərbaycan Partiyasının üzvüyəm. Biləcəri qəsəbəsində yaşayıram. Bələdiyyələr yerli özünüidarətmə orqandır. Qəsəbə sakini olaraq istəyirəm ki, ən yaxşı namizədlər bu gün Biləcəri bələdiyyəsini təmsil etsinlər. Düşündüm ki, seçkiləri müşahidə etməklə mən də vətəndaşlıq borcumu yerinə yetirmiş olaram. Səslər sayılıb nəticələr bəlli olana kimi seçki məntəqəsini tərk etməyəcəyəm. Əgər hiss etsəm ki, kimlərsə seçkiyə müdaxilə etmək istəyir, dərhal, dairə və MSK-ya qanunsuzluq haqqında məlumat verəcəyəm. Əgər belə bir hal baş versə, digər müşahidəçilərlə birlikdə onu aktlaşdıracağıq. İnanıram ki, məntəqədə heç bir qanun pozuntusu olmayacaq. Vətəndaşlar sərbəst şəkildə seçimlərini edirlər. Məntəqədə veb-kameranın quraşdırılması müşahidəçilərin də işini yüngülləşdirib.

Söhbətimizi digər müşahidəçi Dürdanə Sədirova ilə davam etdirik. Dürdanə xanım deyir ki, bələdiyyə seçkilərinə maraq xeyli artıb. Biləcəri bələdiyyəsi üzrə 33 namizəd qeydə alınıb. Təbliğat kampaniyası dövründə namizədlər ev-ev gəzərək sakinlərlə görüşüb öz təbliğatlarını aparıblar. Görünən odur ki, təbliğatın düzgün aparılması seçicilərin fəallığına da təsir edib. Namizədlərin nümayəndələri də sərbəst şəkildə müşahidə aparırlar. Bu seçkilər ədalətli rəqabətlə müşahidə olunur. Namizədlər cəmiyyətin müxtəlif təbəqələri, ayrı-ayrı siyasi təşkilatların nümayəndələridir. Sağlam rəqabət olan yerdə nəticələr də ürəkaçan olur. İstədiyimiz budur ki, ən yaxşı namizədlər bələdiyyə üzvü seçilsin. Ona görə buradayıq ki, seçkilər ədalətli keçirilsin. Hər hansı kənar müdaxilə olmasın. Düşünürəm ki, heç kim buna getməz. Ciddi nəzarət mexanizmindən başqa ictimai qınaq da var. Onu da qeyd edim ki, namizədlər hamısı tanıdığımız, gündəlik üzləşdiyimiz nüfuzlu şəxslərdir. İstəyirik ki, daha çox haqqı olanlar seçilsin.

Səsvermədə iştirak edən gənc bir xanım diqqətimizi çəkir. Hiss olunur ki, xanım ilk dəfə səsvermədə iştirak edir. Məntəqə seçki komissiyasının sədri Gülər Məcidova səsvermənin qaydalarını izah edib gənc xanımı səsvermə kamerasına istiqamətləndirir...





Onunla tanış oluruq. Çinarə Şeydayeva ilk dəfə bələdiyyə seçkilərində iştirak etdiyini deyir: "Namizədlərdən bir neçəsini şəxsən tanıyıram. Təbliğat dövründə tanımadıqlarım namizədlər də evimizə gəlib, öz seçki platformaları haqqında bizi məlumatlandırıblar. Açığını deyəcəyəm, düşünürəm ki, hər bir vətəndaş seçkidə fəal iştirak etsə, həm bələdiyyələrin layiq olanlarla formalaşmasına nail olmaq olar, həm də seçkidə qeyri-neqativ halların qarşısını almış olarıq. Mən ilk dəfədir ki, bələdiyyə seçkilərində səs verirəm. Heç bir kənar müdaxilə olmadı. İstədiyim namizədə səs verdim".

Məntəqə seçki komissiyasının sədri məlumat verdi ki, 13 saylı məntəqədə 1290 namizəd qeydə alınıb. Biz saat 10 radələrində məntəqəni tərk etdik. Məntəqədə olarkən 149 seçici konstitusiya hüququndan istifadə edərək sərbəst şəkildə səs verdi. Onu da qeyd edək ki, seçici fəallığı artan temp üzrə müşahidə olunurdu.

Yolumuzu Biləcəri qəsəbəsindəki 5 saylı məntəqədən saldıq. Seçki məntəqəsinin qarşısında səs vermiş seçicilərlə Sevinc Babayeva, Aynurə Hacıyeva, Eyyub Xəlilovla qarşılaşdıq. Onlardan səsvermənin necə keçirildiyini soruşduqda Sevinc xanım dedi:

- Məntəqədə veb-kamera quraşdırılıb. Seçkini çoxsaylı müşahidəçilər izləyir. Bundan əlavə, bələdiyyə üzvlüyünə namizədlərin nümayəndələri də seçkiləri müşahidə edirlər. Səsvermə heç bir kənar müdaxilə olmadan keçirilir. İnanırıq ki, bu bələdiyyə seçkiləri həm seçki fəallığına, həm də demokratik keçməsinə görə tarixə düşəcək.

Məntəqəyə daxil olub qeydiyyatdan keçirik. Məntəqə seçki komissiyasının sədri Solmaz Kazımova məlumat verir ki, burada səsvermə üçün 1271 namizəd qeyd alınıb. Hələlik 197 nəfər səsvermədə iştirak edib. Bu gün keçirilən seçkidə çox ciddi şəkildə seçici fəallığı müşahidə olunmaqdadır. Məntəqədə müxtəlif ictimai təşkilatları, siyası partiyaları təmsil edən çoxsaylı müşahidəçilər qrupu iştirak edirdi.

Müşahidəçilərdən Gülnarə Fərəcova ilə söhbət edirik. O dedi: "Səsvermə başlayan andan buradayıq. Seçkilərə maraq artdığı kimi, ictimai nəzarət də güclüdür. Hətta səsvermədə iştirak edən seçicilər belə səs verdikdən sonra məntəqədə dayanıb səsverməni müşahidə edirlər. Bu vaxta kimi heç bir qanun pozuntusuna, kənar müdaxiləyə rast gəlməmişik.

Digər müşahidəçi Şəhla Muradova ilə söhbətimizi davam etdiririk. Şəhla xanım qeyd edir ki, seçkiləri müşahidə etmək qərarına gəlib: "Fikirləşdim ki, öz taleyimizə biganə qalmayım. Bələdiyyələr xalqa ən əlçatan özünüidarəetmə orqanıdır. Problemlərimizi bilən insanların bələdiyyə üzvü seçilməsi üçün hamılıqla seçkidə fəal iştirak etməliyik. Ona görə buradayıq ki, seçkidə ən layiqli namizədlərin aldıqları səsin qorunmasında, seçkilərin ədalətli keçirilməsində iştirak edək. Ən azından mən də vicdanım qarşısında hesabat verəndə deyə bilim ki, vətəndaş olaraq üzərimə düşən işi layiqincə yerinə yetirdim".

10 saylı Biləcəri III Seçki Dairəsinin 8, 1 və 2 saylı məntəqələrində də səsvermənin gedişini müşahidə etdik.

1 saylı seçki məntəqəsində rastlaşdığımız səhnə istər-istəməz diqqətimizi çəkdi. Qəsəbə sakini Mehrab Sadiq oğlu Rəfiyev səs verməyə oğlu Rəhim Rəfili ilə gəlmişdi. Mehrab dedi ki, oğlum Rəfinin 18 yaşı təzə tamam olub. Rəhim bu gün ilk dəfə seçkilərdə iştirak edir. Belə bir məqamda onun yanında olmaq istədim. Rəhimin seçiminə hörmətlə yanaşacağam. Kaş oğlumun səs verdiyi bələdiyyə üzvləri etimadı doğrultsunlar.

Söhbəti gənc seçici Rəhim Rəfili ilə davam etdiririk:

- Çox həyəcanlıyam. Böyüdüyüm, müstəqil həyata atıldığım, hətta seçmək, səsvermə şansı qazandığım üçün sevinirəm. Bu gün burada seçici olaraq iştirak edirəm. Etiraf edim ki, iddialıyam. Gələcəkdə seçkilərdə namizəd kimi iştirak etmək, xalqıma, vətənimə və dövlətimə qulluq etmək niyyətindəyəm. Vətənə, millətə və dövlətimizə xeyirli olsun. Səsvermədə heç bir müdaxilə olmadı. Seçimimi sərbəst, azad şəkildə ifadə etdim.

Xatırladaq ki, 10 saylı Binəqədi III Seçki Dairəsi 2 bələdiyyəni əhatə edir: bunlar Binəqədi qəsəbə bələdiyyəsi və Biləcəri bələdiyyəsidir. Seçki dairəsində 42 daimi seçki məntəqəsi və müvəqqəti yaradılmış 1 seçki məntəqəsindən ibarətdir. Dairə üzrə daimi seçici siyahılarındakı seçicilərin sayı 52610 nəfərdir. 3, 5, 13, 16, 21, 32, 37 seçki məntəqələrində veb-kamera quraşdırılıb. Dairə Seçki Komissiyasında olanda komissiyanın sədri İsgəndər Əliyev bildirdi ki, hələlik hər hansı qanun pozuntusu, seçkiyə kənar müdaxilə barədə seçki dairəsində heç bir şikayət və müraciət qeydə alınmayıb.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Paytaxtda bələdiyyə seçkiləri demokratik standartlara tam uyğun şəkildə keçirildi

## Seçicilər məntəqələrə yüksək ovqatla gəlirdilər

### Səbail rayonunda onlar vətəndaşlıq borclarını həvəslə yerinə yetirirdilər







**Yanvarın 29-da seçicilər fəal şəkildə məntəqələrə gələrək ən yaxşı namizədə səs verdilər. Onların azad və sərbəst səs verməsi üçün məntəqələrdə hər cür şərait yaradılmışdı.**

7 saylı Səbail Rayon Seçki Dairəsinin 37 saylı məntəqəsində olarkən biz bunu yaxından müşahidə etdik. Məntəqə seçki komissiyasının sədri Aytən Quluyeva dedi ki, səsvermə səhər saat 8-dən başlayıb. Qısa müddət ərzində xeyli seçici məntəqəyə üz tutaraq layiq bildikləri namizədlərə səs veriblər. Seçicilərin səs vermələri üçün məntəqədə əlverişli şərait yaradılıb. Məntəqə zəruri texniki avadanlıqlarla təmin edilib. Seçki prosesində elə ilk dəqiqələrdən fəallıq hiss olunur. Seçicilər öz vətəndaşlıq borclarını böyük həvəslə, yüksək ovqatla yerinə yetirirlər. Məntəqədə səsvermə hüququ olan seçicilərin sayı 1473 nəfər təşkil edir. Onlardan 9 nəfərinin yaşı səksəndən yuxarıdır. 3 nəfər seçicimiz isə bu gün ilk dəfə səs verdilər. İlk dəfə səsvermədə iştirak edən seçicilərə hədiyyələr də təqdim olundu. Qoy bu əlamətdar gün onların yaddaşında dərin iz salsın. Bələdiyyə seçkilərində 12 yer uğrunda 24 namizəd mübarizə aparır: "Seçkilərin şəffaf və demokratik şəkildə keçirilməsi üçün hər cür şərait yaradılıb. İlk addımda məntəqəyə daxil olan seçicilərin fanarla barmaqlarının izi yoxlanılır. Yoxlama zamanı həmin seçicilərin başqa məntəqədə səs verib-vermədikləri dəqiqləşdirilir. Belə bir fakt aşkarlananda həmin seçiciyə bülleten verilmir. Yeri gəlmişkən bildirim ki, indiyə qədər belə bir fakt aşkarlanmayıb. Seçki prosesi nizamı ilə davam edir. Seçicilər qeydiyyatdan keçdikdən sonra seçki komissiyasının üzvləri tərəfindən onlara  bülletenlər verilir. Səs vermək üçün məntəqədə 6 seçki kabinəsi yaradılıb. Seçki bülleteni alan seçicilər kabinələrə daxil olaraq sərbəst şəkildə istədikləri namizədə səs verirlər. Sonra bülleteni məntəqənin mərkəzindəki şəffaf qutuya atırlar".

Məntəqə seçki komissiyasının sədri Aytən Quluyeva komissiya üzvlərinin məsuliyyətliliyindən də söz açdı. Bildirdi ki, katiblər Aygün İbadova, Aygün Qəhrəmanova, üzvlər İnarə Əhmədova, Nahid Həmidov və Aynur Şirinova işlərinin öhdəsindən layiqincə gəlirlər. Seçki məntəqəsinə üz tutan seçiciləri təbəssümlə, xoş ovqatla qarşılayır, dəyərli məsləhət və tövsiyələr verirlər. Bütün bunlar onu göstərir ki, komissiya üzvləri işlərinə böyük məsuliyyət və diqqətlə yanaşırlar.

Seçicilərlə görüşüb söhbət etdik. Həmsöhbəti olduğumuz seçicilər məntəqədə onların səs vermələri üçün yaradılmış şəraitdən razılıqlarını bildirirlər.

Seçici Şəfiqə İmanova dedi ki, mən bütün seçkilərdə, həm prezident, həm parlament, həm də bələdiyyə seçkilərində fəal iştirak etmişəm. Bu gün də bələdiyyə seçkilərində iştirak edirəm. Bunu özümün vətəndaşlıq borcu hesab edirəm. Gərək hamı bu seçkilərdə fəal iştirak edib ən yaxşı, ən bacarıqlı namizədə səs versin. Seçki məntəqəsində yaradılmış şəraitdən çox razıyıq. Burada seçicilərin səs vermələri üçün bütün rahatlıq yaradılıb. Bir qalır bizim seçici kimi seçimimizi etməyimiz. Mən seçici kimi bunu yüksək ovqatla, böyük həvəslə etdim. Proqramını, platformasını bəyəndiyim namizədə səs verdim.

- Məntəqəyə daxil olan kimi burada seçicilər üçün yaradılmış şəraiti görəndə ürəyimiz açılır, - deyə Hamil Rəhmanov söhbətimizə qoşuldu. - Bələdiyyə seçkiləri hər birimiz üçün mühüm əhəmiyyət daşıyır. Buna görə də məntəqədə böyük canlanma müşahidə olunur. Seçicilər səsvermədə fəal iştirak edərək çox şəffaf və demokratik şəkildə istədikləri namizədə səs verirlər. Seçki demokratik şəraitdə keçirildiyinə görə inanırıq ki, ən layiqli namizədlər seçiləcək.

Seçici İsmayıl İsmayılov səsvermə kabinəsində namizədinə səs verdikdən sonra şəffaf qutuya yaxınlaşdı. Seçki ilə bağlı fikrini və ürək sözlərini belə ifadə etdi: "Seçki məntəqəsindəki fəallığı görəndə sevindim. Deməli, xalqımız bələdiyyə seçkilərinə böyük önəm verir. İnsanlar seçki məntəqələrinə gələrək səslərini ən yaxşı namizədlərə verirlər. İnanıram ki, bugünkü seçki demokratikliyi və şəffaflığı ilə tarixə düşəcək.

Məntəqəyə gələn seçicilərin ardı-arası kəsilmir. Seçicilər seçkilərdə çox fəal və yüksək ovqatla iştirak edib ən yaxşı namizədə səs verirdilər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*



## "Gənc nəslin səsvermədə fəallığı məni çox sevindirir"

**19 saylı Nərimanov I Seçki Dairəsinin 16 saylı məntəqəsi önündə seçicilər çox rahatlıqla növbəliliyə riayət edirdilər. Məntəqənin giriş qapısında şəxsiyyət vəsiqələrini təqdim edib içəri daxil olaraq, öz təşəbbüsü ilə iştirak edən, eləcə də   siyasi partiya bloklarından olan müşahidəçilərin nəzarəti ilə elektron lampada barmaq izlərini verirdilər.**



Məntəqədə 1478 seçicinin səsvermədə şəffaflıqla iştirak etməsi  üçün lazımi şərait yaradılıb. Burada bələdiyyə üzvü olmaq istəyən 19 yerə qarşı 31 namizəd mübarizə aparırdı.

Müşahidəçilərdən Gülşən İsgəndərova və Xuraman Əliyeva bildirdilər ki, səsvermə normal keçir, elə bir ciddi qanun pozuntusu müşahidə edilməyib.

Xoş ovqatla məntəqədən çıxan seçicilərdən Teyyub Əliyev, Nərminə Əliyeva,  onların qapıbir qonşuları Hümbət və Nərminə Mustafazadələrlə həmsöhbət olduq. Yaşı 60-ı ötmüş bu seçicilər məntəqədə səsvermə üçün yaradılan şəraitdən razılıqlarını bildirdilər.

Rayonun 19 saylı Nərimanov I Seçki Dairəsinin 15 saylı məntəqəsində də seçici fəallığı müşahidə olunurdu. Əksəriyyəti məntəqənin yaxınlığında yaşayan sakinlər idi. Onlar da bir-bir, iki-bir qeydiyyatdan keçib, seçki kabinələrinə daxil olub istədikləri namizədə səs verirdilər. Burada bələdiyyə üzvlüyü uğrunda 19 yerə qarşı 31 nəfər mübarizəyə qoşulmuşdu.

Məntəqədə öz təşəbbüsü ilə müşahidəçi qismində iştirak edən Lalə Əzimova, eləcə də "Ana vətən" Partiyasının nümayəndəsi Məzahir Cəfərov  bildirdilər ki, səsvermə prosesində heç bir neqativ hal nəzərə çarpmayıb. Məntəqənin yaxınlığında - Ağa Nemətulla küçəsi 35, mənzil 24-də yaşayan, sinəsi orden və medallarla dolu Böyük Vətən müharibəsi veteranı 84 yaşlı Şahbaba Məmmədov isə məmnunluqla dedi:

- İndiyədək neçə-neçə seçkidə iştirak etmişəm. Bugünkü seçki də çox şəffaf və rahat təşkil olunub. Gənc nəslin səsvermədə həvəslə iştirak etməsi məni çox sevindirdi. Ümidvaram ki, onlar ən layiqli namizədə səs verirlər.

### Hər kəs istədiyi namizədə səs verdi

Xətai rayonunun digər məntəqələrində olduğu kimi, rayonun 1-33 saylı dairəsinin 4 saylı seçki məntəqəsində də insanlar səsvermədə həvəslə iştirak edirdilər. Seçicilər şəxsiyyət vəsiqələrini təqdim edərək qeydiyyatdan və elektron lampada barmaq izlərini təsdiqlətməklə  bülletenləri əldə edib seçki kabinələrinə daxil olub istədikləri namizədə səs verirdilər. Digər məntəqələrdə olduğu kimi, burada da veb-kamera fəaliyyət göstərirdi.

Xatırladaq ki, 2008-ci ildən etibarən ölkəmizdəki səsvermələrdə tətbiq olunan veb-kamera səsvermədə şəffaflığın təmin edilməsinə şərait yaradır. Səsvermədə iştirak edənləri və səsvermə prosesini müşahidəçilər, media nümayəndələri, habelə peşəkar seçki mütəxəssisləri rahatlıqla müşahidə edirlər.

Məntəqənin həyətində seçicilərdən Həsən və Sevda Məmmədovlarla, Sevər Rüstəmova, oğulları  Vüqar, Anar və gəlini Təranə ilə, eləcə də  Müseyib Əliyevlə həmsöhbət olduq. Müseyib Əliyev səsverməyə bacısı Şəmslə gəlmişdi. Müseyib Əliyev dedi:

- Bacım gəncdir, ilk dəfədir seçkilərdə iştirak edir. Tək gəlməyə çəkinirdi, tərəddüd edirdi. Qərara aldıq ki, mənimlə gəlsin. Çox sevinir ki, o, vətəndaş olaraq səsvermə hüququna malikdir.

Onlarla bərabər bizə də məntəqəyə daxil olmaq imkanı yaranır. Məntəqənin görməli yerində əyləşən bir neçə müşahidəçi prosesin qüsursuz  davamına nəzarət edirdi. Onlardan "Böyük qurtuluş" Partiyasının nümayəndəsi Rövşən Həsənov və müstəqil müşahidəçi qismində könüllü iştirakçı Natiqə Hüseynova ilə həmsöhbət olduq. Hər iki müşahidəçi seçkinin normal və qanun pozuntusu olmadan keçdiyini bildirdi. Natiqə Hüseynova onu da qeyd etdi ki, bir az əvvəl ətrafda yaxşı tanınan bir nəfər şəxsiyyət vəsiqəsi olmadan şəsverməyə qatılmaq istəyirdi. Ona çox sakit və ətraflı şəkildə izah edildi ki, bu, mümkün deyil. Həmin şəxs evinə gedib, çox keçmədən şəxsiyyət vəsiqəsi ilə gəlib özünü təqdim etdi, tələblərə uyğun səs verdi.  Bundan özü də, biz də çox məmnun qaldıq.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

## Müşahidəçilər səsvermənin gedişindən razılıq etdilər









**Ötən gün Azərbaycanda 118 seçki dairəsi üzrə 5846 seçki məntəqəsində bələdiyyə seçkiləri ilə əlaqədar səsvermə həyata keçirildi.**

"Azərbaycan" qəzetinin əməkdaşı olaraq 11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin bir neçə seçki məntəqəsində olaraq müşahidəçilərin bələdiyyə seçkiləri ilə bağlı ümumi təəssüratlarını öyrəndik.

11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin 32 saylı seçki məntəqəsində müşahidəçi olan Nuranə Səmədova söylədi ki, o, Yeni Azərbaycan Partiyasını (YAP) təmsil edir: "Artıq neçə illərdir ki, ölkəmizdə keçirilən seçkilərdə müşahidəçi kimi iştirak edirəm. Hazırkı bələdiyyə seçkilərində indiyəqədərki müşahidələrimə əsasən deyə bilərəm ki, seçki prosesi qanunvericiliyə uyğun gedir. Heç bir qanun pozuntusuna rast gəlinməyib. Seçici aktivliyi yaxşıdır. Seçicilər məntəqəyə gəlib rəvan şəkildə səs verirlər".

Könüllü müşahidəçi Ziyəddin Həmzəyev söylədi ki, məntəqədə müşahidə etdiyi seçici fəallığı qənaətbəxşdir.

30 yaşlı Nicat Cəlilli də könüllü müşahidəçi olduğunu bildirdi: "Ötən il fevralın 7-də keçirilən prezident seçkilərində, həmçinin sentyabrın 1-də Milli Məclisə keçirilən seçkilərdə də müşahidəçi kimi iştirak etmişəm. Həmin seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də heç bir qanun pozuntusuna rast gəlməmişəm".

N.Cəlilli vurğuladı ki, erkən saatlar olmasına baxmayaraq,  məntəqəyə gələn seçicilərin sayı kifayət qədərdir: "Ümid edirəm ki, bu seçkinin nəticələri də xalqımızın ürəyindən olacaq".

### Seçkilər demokratik keçirilir

11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin 30 saylı seçki məntəqəsində könüllü müşahidəçi olan Sona Qarayeva seçki prosesi ilə bağlı müşahidələrinin müsbət olduğunu dilə gətirdi: "Seçki şəffaf keçir və seçicilər sərbəst şəkildə gəlib öz istədikləri namizədə səs verirlər".

Aysel Bayramova da könüllü müşahidəçi olduğunu bildirdi və bələdiyyə seçkilərinin şəffaf şəkildə keçirildiyini söylədi: "Seçicilərin aktivliyi diqqət çəkir. İndiyə qədər hər hansı qanun pozuntusuna rast gəlməmişik. Seçicilərin fəallıq nümayiş etdirməsi, ümumilikdə seçki prosesinin şəffaf həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki bu, həm də seçkilərin demokratik keçirilməsindən xəbər verir".

11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin 32 saylı seçki məntəqəsində könüllü müşhidəçi olan Zahidə Məmmədli ilk dəfədir ki, müşahidəçi kimi seçkilərdə iştirak etdiyini deyir: "Bələdiyyə seçkiləri müşahidəçi kimi ilk təcrübə qazandığım seçki oldu. Təəssüratlarım çox yaxşıdır. Hər şey qanunauyğun formada həyata keçirilir".

Könüllü müşahidəçi olan 33 yaşlı Səfa Əhmədova da ilk dəfədir ki, seçkilərdə müşahidəçi kimi iştirak etdiyini,  heç bir qayda pozuntusuna rast gəlmədiyini bildirdi.

### Beynəlxalq standartlara uyğun seçkilər

11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin 26 saylı seçki məntəqəsinin YAP-dan olan müşahidəçisi Vəzir Qurbanov vurğuladı ki, bələdiyyə seçkiləri çox fəal keçir: "Səhər saat 8-dən, yəni seçkiyə start veriləndən indiyə qədər seçicilərin axını davam edir".

Könüllü müşahidəçi Sahib Şirinov söylədi ki, səsvermə seçki qanunvericiliyinə uyğun qaydada keçir: "Başlanğıc çox yaxşıdır. Əgər belə davam etsə, düşünürəm ki,  seçicilərin bu məntəqədə böyük səs faizi ilə iştirakı qeydə alınacaq".

Könüllü müşahidəçi olan Fizzə Qurbanova da dedi ki, seçicilər tərəfindən fəallıq yüksək səviyyədədir. Proses normal qaydada davam edir.

"Seçki başlayandan indiyə qədər apardığım müşahidələrimə əsasən deyə bilərəm ki, bələdiyyə seçkilərində əhali aktiv iştirak edir", - deyə qeyd edən könüllü müşahidəçi  Yeganə Əzməmmədovanın sözlərinə görə seçkilərin şəffaflığını pozacaq heç bir neqativ halla qarşılaşmayıb.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Bölgələrdə seçkilər ədalətli və şəffaf şəraitdə keçirildi

















## NAXÇIVAN

Bələdiyyə seçkiləri Naxçıvan Muxtar Respublikasında 6 dairə, 330 məntəqə üzrə 44 bələdiyyəni əhatə edir. Həmin dairələrdə ümumilikdə 286 min 956 seçici qeydiyyata alınmışdı ki, onlardan da 1889-u ilk dəfə səsvermə hüququndan istifadə edirdi.

AZƏRTAC Naxçıvan Tibb Kollecində yerləşən və 1262 seçicinin qeydə alındığı 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin 12 saylı məntəqəsində prosesi izləyib. Məntəqədə seçkilərin yüksək əhvali-ruhiyyədə keçməsi, şəffaflığın təmin olunması, yerli müşahidəçilərin, eləcə də media nümayəndələrinin prosesi sərbəst izləməsi üçün əlverişli şərait yaradılmış, veb-kamera quraşdırılmışdır.

4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin sədri Ramil Sadiqovun verdiyi məlumata görə, dairə üzrə 44 məntəqə fəaliyyət göstərir. Həmin məntəqələrin 4-də veb-kameralar quraşdırılıb. Dairə üzrə 46 mindən çox seçici qeydiyyata alınıb ki, onlardan 237-si ilk dəfə səsvermə hüququndan istifadə edirdi.

Digər seçki dairələrinə gəlincə, 1 saylı Şərur-Sədərək Seçki Dairəsinin Sədərək rayonu üzrə 11 seçki məntəqəsi yaradılıb. Dairə üzrə seçicilərin sayı 48 min 81 nəfərdir. Onların 35 min 49-u Şərur, 13 min 32-si Sədərək rayonunun payına düşür. Məntəqələrdə 343 seçici ilk dəfə səs verirdi.

2 saylı Şərur-Kəngərli seçki dairəsində isə 57 daimi, 1 müvəqqəti seçki məntəqəsi yaradılıb. Həmin məntəqələrin 42-si Şərur rayonundadır. Dairə üzrə 50 min 224 seçici qeydə alınıb ki, onlardan 353-ü ilk dəfə səs verirdi. Seçkilərə yüksək hazırlıq işləri görülmüş, məntəqələrdə veb-kameralar quraşdırılmış və seçkilərin gedişatını internet vasitəsilə izləmək mümkün olmuşdur.

3 saylı Babək-Şahbuz-Kəngərli Seçki Dairəsi üzrə 64 seçki məntəqəsi fəaliyyət göstərib. Həmin məntəqələrdən 29-u Babək, 29-u Şahbuz, 6-sı Kəngərli rayonu ərazisində yerləşir. Dairə üzrə 47 min 95 seçici qeydə alınıb ki, onlardan 24 min 454-ü Babək, 16 min 779-u Şahbuz, 5862-i isə Kəngərli rayonunun sakinləridir.

5 saylı Babək-Naxçıvan-Culfa Seçki Dairəsi üzrə 47 məntəqə yaradılıb, həmin məntəqələrin 5-də veb-kamera quraşdırılıb. Dairə üzrə seçicilərin sayı 48 min 875 nəfərdir ki, onlardan 22 min 358-i Babək rayonunun, 13 min 678-i Naxçıvan şəhərinin, 12 min 839-u Culfanın payına düşür. Dairə üzrə ilk dəfə səs verənlərin sayı 79 nəfər idi.

6 saylı Ordubad-Culfa Seçki Dairəsi üzrə 63 seçki məntəqəsi fəaliyyət göstərir. Bu dairənin əhatə etdiyi ərazilər üzrə 45 min 841 seçici qeydə alınıb ki, onların 274-ü ilk dəfə olaraq seçkidə iştirak edirdi. Ordubad rayonu üzrə 42 məntəqədə seçicilər öz namizədlərinə səs vermişlər.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında 44 bələdiyyə üzrə 512 yer uğrunda 970 namizəd mübarizə aparırdı.

## GƏNCƏ

Budəfəki bələdiyyə seçkilərində də gəncəlilər əsl fəallıq nümayiş etdirdilər. Bunun da əsas səbəblərindən biri seçkilərin şəffaf və demokratik keçməsi üçün yaradılan şərait idi. İnsanlar istədikləri namizədə səs vermək üçün seçki məntəqələrinə gəlir, mövcud prosedurdan keçərək bələdiyyə üzvü görmək istədiyi namizədlərə səs verirdilər.

Şəhərdə fəaliyyət göstərən 38 saylı Gəncə birinci, 39 saylı Gəncə ikinci, 40 saylı Gəncə üçüncü və 41 saylı Gəncə-Samux-Goranboy Seçki dairələrini əhatə edən bütün məntəqələrdə demək olar ki, böyük canlanma var idi. Seçicilər növbə ilə seçki məntəqələrinə yaxınlaşıb öz vətəndaşlıq borclarını yerinə yetirirdilər.

39 saylı dairənin 12 saylı məntəqəsi Azərbaycan Dövlət Aqrar Universitetinin baş binasında yerləşir. Burada səs verməyə gələnlər növbəyə dayanmışdılar. Onlar bütün prosedurdan keçərək seçki hüququndan istifadə edir, istədiyi namizədə səs verirdilər. Yenicə səs vermiş şəhər sakinləri ilə söhbət etdik. Dedilər ki, seçkilər çox demokratik və şəffaf keçir, istədikləri namizədlərə səs veriblər.

Digər dairələri əhatə edən daha bir neçə seçki məntəqəsində olduq. Hiss olunurdu ki, bu məntəqələrdə də fəallıq yüksəkdir. Seçicilər layiq bildikləri namizədlərə səs verdiklərini dedilər. Çünki bilirlər ki, bu gün səs verdiyi layiqli bələdiyyə üzvü sabah onun etimadını doğruldacaq, istək və arzularını gerçəkləşdirəcək.

## SUMQAYIT

Bələdiyyə seçkilərində sumqayıtlılar da fəallıq nümayiş etdirdilər. Səsvermə günü normal və demokratik qaydada şəhər sakinləri məntəqələrə gələrək istədikləri namizədə səs verdilər.

45 saylı Sumqayıt IV Seçki Dairəsinin 1 saylı məntəqəsi Sumqayıt Dövlət Dram Teatrının binasında yerləşir. Məntəqənin sədri Samir Şəfiyev bizimlə söhbətində bildirdi ki, məntəqədə 1497 nəfər seçici qeydə alınıb. Onların sırasında 2 nəfər ilk dəfə səs verirdi. 2006-cı ildə anadan olan Şamil Osmanlı bildirdi ki, seçkidə iştirakını 18 yaşına çatdığı dövrün ilk qürurlu addımı sayır. Vətəndaş olaraq cəmiyyətdə təmsil edilmək böyük şərəfdir. Dövlətin yanında olmaq, inkişafdan kənarda qalmamaq, ona dəstək vermək gənclərin borcu və vəzifəsidir: "Bu vəzifə və borcunuzdan biri də bu gün layiqli namizədə səs verməkdir".

42 saylı Sumqayıt I Seçki Dairəsinin 16 saylı məntəqəsi 37 saylı şəhər tam orta məktəbində fəaliyyət göstərirdi. Məntəqə seçki komissiyasının sədri Ramil Niftəliyev bildirdi ki, seçkiyə start veriləndən seçicilərin fəallığı yüksəkdir. Dairənin 17 saylı məntəqəsində də seçici fəallığı müşahidə edilirdi. Məntəqə sədri Rəvanə Məmmədova səsvermənin demokratik və şəffaf keçirildiini vurğuladı. Bildirdi ki, 1208 nəfərin səs verməli olduğu məntəqədə seçkilər üçün hər bir şərait yaradılıb. İlk dəfə səs verən 7 nəfər məntəqəyə birinci gələnlər sırasında olmuşlar.

Dairənin 23 saylı məntəqəsində də dünən qələbəlik yaşandı. 1238 nəfərin qeydə alındığı məntəqənin sədri Səbirə Məmmədovanın sözlərinə görə, seçicilərə katiblər və məntəqə üzvləri adlarını tapmaqda kömək edirlər. Səsverməyə gələn Həmid Quliyev seçkinin gedişindən razı qaldığını bildirdi. Vurğuladı ki, yerli özünüidarəetmə orqanı olan bədiyyələr cəmiyyətin inkişafında müstəsna rola malikdir. Onların üzvləri vətəni sevən insanlar olmalıdır. Əminik ki, səs verdiyimiz namizədlər etimadı doğruldacaqlar.

Səbirə xanım bildirdi ki, seçkidə YAP, Ümid, Milli İstiqlal, Ana Vətən və digər partiyaların üzvləri və özləri tərəfindən namizədliyi verilən namizədlər iştirak edirlər.

## GORANBOY

96 saylı Goranboy-Naftalan Seçki Dairəsini əhatə edən məntəqələrdə seçici sıxlığı müşahidə olunurdu. Səhər tezdən rayon sakinləri seçki məntəqələrinə üz tutur, öz vətəndaşlıq borclarını yerinə yetirməklə istədikləri namizədlərə səs verirdilər.

Dairə Seçki Komissiyasının sədri Arif Abbasovla söhbət zamanı məlum oldu ki, seçkilər normal keçir. Bunun da əsas səbəblərindən biri seçkilərə yüksək hazırlıq işlərinin aparılmasıdır. Dairəni əhatə edən 54 mindən artıq seçicinin səs verməsi üçün bütün işlər Mərkəzi Seçki Komissiyasının tələbləri səviyyəsində həyata keçirilmişdir.

Müşahidəçilər də təsdiq etdilər ki, seçki prosesi zamanı heç bir qanun pozuntusu qeydə alınmamışdır. Müxtəlif siyasi partiyalardan olan 510 müşahidəçinin hamısı seçki prosesindən razılıq etdi.

## SAMUX

Bələdiyyə seçkilərində samuxlular da fəallıq nümayiş etdirdilər. Rayon sakinləri öz vətəndaşlıq borclarını yerinə yetirmək üçün gün ərzində seçki məntəqələrinə gəlib bələdiyyə üzvü olmağa layiq bildikləri namizədlərə səs verdilər.

101 saylı Samux-Şəmkir Seçki Dairəsini əhatə edən bir neçə məntəqədə olduq. Bu məntəqələrdə də böyük canlanma var idi. Seçkilərə ciddi hazırlıq işləri görülməsinin nəticəsi idi ki, seçki prosesində heç bir qanundan kənar hal müşahidə olunmurdu. Dairəni əhatə edən 56 məntəqənin 9-da veb-kamera quraşdırılmışdı ki, bu da hər bir şəxsə seçkiləri istədiyi yerdən izləmək imkanı verirdi. Bundan başqa, dairəni əhatə edən məntəqələrdə seçkiləri 397 müşahidəçi izləyirdi.

2 saylı məntəqədə olduq. Burada da seçici sıxlığı müşahidə olunurdu. Onlar növbə ilə məntəqə üzvlərinə yaxınlaşır, bülleten götürərək səsvermədə iştirak edirdilər. Biz məntəqədə olarkən 90 yaşlı Ayaz Namazovla qısa söhbət etdik. Dedi ki, seçkilər normal keçir: "Mən də heç kimin təzyiqi olmadan istədiyim namizədlərə səs verdim".

## GÖYGÖL

Bələdiyyə seçkiləri ilə əlaqədar görülən yüksək hazırlıq işlərinin nəticəsi idi ki, Göygöl rayonunda da seçicilərin yüksək fəallığı müşahidə olunurdu. Rayonda fəaliyyət göstərən 100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər Seçki Dairəsini əhatə edən məntəqələrdə seçkilərə ciddi hazırlıq işləri aparıldığından seçki zamanı heç bir qanun pozuntusu müşahidə edilmədi.

Dairəni əhatə edən 98 məntəqədə 52 mindən çox seçici qeydə alınmışdı. Seçkilərin şəffaf və azad keçirilməsi üçün 13 məntəqədə veb-kamera quraşdırılmışdır. Ümumiyyətlə, bütün məntəqələrdə seçici fəallığı vardı. Bunu rayon mərkəzində yerləşən 1 saylı seçki məntəqəsində də hiss etdik. Məntəqədə seçki prosesinin şəffaf keçirilməsi üçün hər cür şərait yaradılmışdı. Burada hər bir seçiciyə diqqətlə yanaşılaraq onun sərbəst şəkildə istədiyi namizədlərə səs verməsi üçün geniş imkanlar yaradılırdı. Məntəqənin sədri Cəmilə Vəliyeva ilə söhbətdən aydın oldu ki, rayon sakinləri bələdiyyə seçkilərində fəallıq nümayiş etdirirlər.

80 yaşlı Vilayət Hacıyevlə görüşdük. O, böyük həvəslə bələdiyyə seçkilərində iştirak edərək namizədlərə öz münasibətini bildirdiyini söylədi. Dedi ki, gərək belə əlamətdar günlərdə ağsaqqallar nümunə olaq: "Gənclər bizə baxıb öyrənsinlər. Odur ki, tezdən oyanıb seçkiyə gəlib istədiyim namizədlərə səs verim".

## ŞƏMKİR

Rayonda iki dairə - 102 saylı Şəmkir şəhər və 103 saylı Şəmkir Kənd Seçki Dairələri fəaliyyət göstərir. Bələdiyyə seçkilərinin mütəşəkkil və demokratik keçməsi üçün hər iki dairənin seçki məntəqələrində yüksək hazırlıq işləri həyata keçirilmişdir.

Səsvermənin mütəşəkkil keçməsi üçün seçki məntəqələrinin sədrləri və üzvləri maarifləndirici treninqlərdə iştirak etmişlər. Onlara seçkiqabağı təşviqat aparılmasına şərait yaradılması, bildirişlərin seçicilərə çatdırılması, metodiki və əyani vəsaitlərdən istifadə etməklə seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi və sair məsələlərlə bağlı ətraflı məlumat verilmişdir. Görülən bütün bu işlər seçkilərin mütəşəkkilliyini təmin etmişdir.

103 saylı Şəmkir Kənd Seçki Dairəsində də fəallığın şahidi olduq. Dairə Seçki Komissiyası Zəyəm qəsəbəsində yerləşir. Dairəni əhatə edən məntəqələrdə 56 mindən çox seçici qeydbyyatdan keçmişdir. Bu seçkidə müşahidəçilərin sayı da xeyli çox idi. Onlarla söhbətdən məlum oldu ki, seçki prosesi zamanı heç bir qanun pozuntusu qeydə alınmayıb. Seçicilər sərbəst şəkildə məntəqələrə gələrək heç bir təzyiq olmadan istədiyi namizədlərə səs verirdilər.

## LƏNKƏRAN

Lənkəranlılar rayonda yerləşən 3 seçki dairəsi üzrə 132 seçki məntəqəsində səs verdilər. Budəfəki bələdiyyə seçkilərində rayon üzrə ümumilikdə 139,2 min seçici qeydə alınmışdır.

Məntəqələrdə normal iş şəraitinin yaradılması üçün zəruri tədbirlər görülmüşdür. Belə ki, məsul şəxslərin iştirakı ilə seçki məntəqələrinin yerləşdiyi binalara qabaqcadan baxış keçirilmiş, binalar təmir edilmiş, elektrik, təbii qaz, su və telefonla təmin olunmuşdur. Bundan əlavə, məntəqələrdəki elektrik generatorlarına texniki baxış keçirilərək saz vəziyyətə gətirilmişdir. Eyni zamanda təşviqat materiallarının yerləşdirilməsi üçün seçki məntəqələrinin ərazisində 132 təşviqat lövhəsi quraşdırılmışdır.

Məntəqələrin hər birində seçici siyahıları seçicilərin yaxşı görə bildiyi yerlərdəki məlumat lövhələrində yerləşdirilmişdir. Seçki Məcəlləsində nəzərdə tutulduğu kimi, seçici siyahıları gündəlik dəqiqləşdirilmiş, həqiqi hərbi xidmətdən tərxis olunanlar, əraziyə daimi yaşamağa gələnlər, o cümlədən qeydiyyatsız daimi yaşayanlar, hərbi xidmətə çağırılanlar, qeydiyyatda olub digər şəhər və rayonlarda daimi, o cümlədən müvəqqəti və bir ildən artıq xarici ölkələrdə yaşayanlar, vəfat edənlər, əyani təhsil alan tələbələr, ilk dəfə səs verənlər, ən yaşlı seçicilər, seçki məntəqəsinə gəlməkdə çətinliyi olanlar və şəxsiyyət vəsiqəsi olmayanlar barədə əldə edilən məlumatlar əsasında müvafiq düzəlişlər olunmuşdur. Yeri gəlmişkən, bildirək ki, rayon üzrə ilk dəfə səs verənlərin sayı 649, seçki günü 18 yaşı tamam olanların sayı 45, ən yaşlı seçicilərin sayı 2049, o cümlədən yaşı 100-dən artıq olan seçicilərin sayı 3 nəfər idi.

Lənkəranda 24 bələdiyyə üzrə ümumilikdə 278 nəfər bələdiyyə üzvü seçilməlidir. 278 bələdiyyə üzvlüyünə Yeni Azərbaycan Partiyası tərəfindən 278, Ədalət, Hüquq və Demokratiya, Ümid partiyalarının hər birindən 1, Böyük Qurtuluş Partiyasından 3 nəfərin namizədlikləri irəli sürülmüşdür. Tərəfsiz olmaqla öz təşəbbüsləri ilə namizədliklərini irəli sürənlərin sayı isə 218 nəfər idi. Seçkilərin gedişini birbaşa izləmək üçün ümumilikdə məntəqələrdə 25 veb-kamera quraşdırılmışdır.

76 saylı Lənkəran-Masallı Seçki Dairəsinin 25 saylı məntəqəsi Rəfael Ağayev adına Şağlaser kənd tam orta məktəbində yerləşir. Məntəqənin sədri Lətif Nəhmətov:

- Məntəqəmiz saat 8:00-da açıldı. Elə ilk dəqiqələrdən məntəqəyə seçicilər gəlməyə başladılar. Səsvermə tam şəffaf, obyektiv və demokratik keçdi. Müşahidəçilər üçün lazımi şərait yaradılmışdır. Məntəqəmiz hər cür avadanlıqla, o cümlədən veb-kamera ilə təchiz edilmişdir.

Bu məntəqədə Yeni Azərbaycan Partiyasını təmsil edən müşahidəçi Dadaş Əzimovarov bizimlə seçkinin gedişi ilə bağlı fikirlərini bölüşdü:

- Ötən bələdiyyə seçkilərindən fərqli olaraq, bu dəfə seçicilərdə böyük ruh yüksəkliyi hiss edirəm. Seçicilərin müstəqil iradə nümayiş etdirmələrinə heç bir təzyiq göstərilmir. Vətəndaşlar ürəklərinin səsinə qulaq asaraq istədiyi namizədlərə səs verirlər. Məntəqədə səs vermək üçün, demək olar ki, hər cür şərait yaradılıb. Məncə, bu hal bələdiyyə seçkilərinin beynəlxalq demokratik standartlara tam cavab verməsinə bariz nümunədir. Elə düşünürəm ki, yeni bələdiyyələrin fəaliyyəti dövründə ərazimizin daha da çiçəklənməsi üçün müsbət işlər görüləcək.

Bu məntəqədə rastlaşdığımız 86 yaşlı Səyadulla Əsgərovun seçki təəssüratları zəngin idi:

- Bugünədək parlament, prezident, bələdiyyə seçkilərində çox iştirak etmişəm. Hər dəfə istədiyim namizədə səs vermişəm. Bu gün keçirilən bələdiyyə seçkilərində daha böyük fəallıq hiss edirəm. Səs verdiyim məntəqədə seçkilərin obyektiv keçirilməsi üçün ideal şərait yaradılıb. Heç bir maneə, təzyiq yoxdur. Ərazimizin daxil olduğu bələdiyyə üzvlüyünə layiq bildiyim namizədlərə səs verdim. İnanıram ki, bu seçki xalqımızın rifahı, ərazimizin daha da çiçəklənməsi naminə xeyirli olacaq.

75 saylı Lənkəran-Masallı Seçki Dairəsinin 26 saylı Şağlaser kənd seçki məntəqəsində apardığımız müşahidələrdən məlum oldu ki, burada da seçicilərin sərbəst səsvermələri və komissiya üzvlərinin normal fəaliyyətləri üçün bütün imkanlar yaradılıb. Səsverməyə gələnlərin xoş ovqatı, yüksək əhvali-ruhiyyəsi aydın hiss olunurdu.

Kənd sakini, 44 günlük Vətən müharibəsində şəhid olmuş Murad Hüseynzadənin atası Mahmud Hüseynovun təəssüratları da marağımızı çəkdi:

- Bu gün qəlbim qürur hissi ilə coşubdaşır. Sevinirəm ki, xalqımız dinc şəraitdə, firavan yaşayır. Çoxlu oğul-uşağım, nəvə-nəticəm var. Oğlum Murad 44 günlük Vətən müharibəsində şəhid oldu. Amma qədirbilən elimiz oğlumun xatirəsini uca tutur, bizi tək qoymur. Dövlətimiz də sağ olsun, bizim üçün yaxşı şərait yaradıb. Adam naşükür olmaz. Evimizə qaz gəlir, fasiləsiz işığımız var. Bu yaxınlarda şəhid ailəsi kimi mənə də Lənkəran şəhərinin mərkəzində hər cür şəraiti olan mənzil verildi. Buna görə Prezidentimizə təşəkkürümü bildirirəm. Biz ondan çox razıyıq. Allah onu qorusun. O ki qaldı bələdiyyə seçkisinə, yaxşı tanıdığım, etimad göstərdiyim namizədlərə səs verdim. Qoy yaxşı işləsinlər, xalqa xidmət etsinlər. Biz də onlardan razı qalaq.

# Bölgələrdə seçkilər ədalətli və şəffaf şəraitdə keçirildi














## TOVUZ

Tovuzda 3 dairə - 105 və 106 saylı Tovuz, eləcə də 107 saylı Tovuz-Qazax-Ağstafa Seçki dairələri yaradılmışdır. Bu dairələri əhatə edən seçki məntəqələrində də bələdiyyə seçkilərinə geniş hazırlıq işləri görülmüşdü. Bütün məntəqələr təmir edilmiş, elektrik generatorları və rabitə avadanlıqları ilə təmin edilmişdi.

105 saylı dairədə 53 seçki məntəqəsi fəaliyyət göstərir ki, bu məntəqələrin də 8-də veb-kamera quraşdırılmış, 600-dək yerli müşahidəçi qeydiyyatdan keçmişdir. Məntəqələr zəruri avadanlıqlarla təmin edilmiş, seçici siyahıları dəqiqləşdirilərək lövhədən asılmışdı.

106 saylı Tovuz Seçki Dairəsində seçkilərə hazırlığın yüksək səviyyədə aparıldığının şahidi olduq. Dairənin sədri Azər Hacıyev görülən hazırlıq işləri ilə bağlı dedi ki, seçkilərin şəffaf və aşkarlıq şəraitində keçirilməsi üçün 41 məntəqənin 12-də veb-kamera quraşdırılmışdır. Hər bir seçicinin sərbəst şəkildə məntəqəyə gəlib istədiyi namizədə səs verməsində heç bir problem yoxdur.

107 saylı Tovuz-Qazax-Ağstafa Seçki Dairəsində də seçkilərə hazırlıq işləri yüksək səviyyədə aparıldığından seçki zamanı heç bir qanun pozuntusu qeydə alınmadı. Dairə Seçki Komissiyasının sədri Fərman Qurbanov da bunu təsdiq etdi.

Dairənin Aşağı Öysüzlü kəndində yerləşən 1 saylı seçki məntəqəsində olduq. Burada seçki prosesi çox mütəşəkkil keçirdi. Hər bir seçici istədiyi namizədlərə sərbəst şəkildə səs verirdi. Məntəqədə 96 yaşlı Abutalıb Mehdiyevlə görüşdük. Dedi ki, bütün seçkilərdə fəallıq göstərib: "Əvvəlki seçkilər kimi bələdiyyə seçkiləri də ədalətli keçir. Hər bir seçici istədiyi namizədlərə səs verir".

## AĞSTAFA

Seçkilərdə ağstafalılar da fəal oldular. Gün ərzində seçki məntəqələrinə gələn sakinlər aşkarlıq şəraitində istədikləri namizədlərə səs verdilər.

108 saylı Ağstafa Dairə Seçki Komissiyasının sədri Tameyran Eyyubov dedi ki, dairəni əhatə edən məntəqələrdə seçki mütəşəkkil keçir. Dairə üzrə qeydiyyatdan keçmiş 1000 nəfərə yaxın müşahidəçi üçün bütün məntəqələrdə hər cür şərait yaradılmışdır.

Qeyd edək ki, uzunömürlülər diyarı olan Ağstafada çoxlu sayda yaşlı nəslin nümayəndəsi var. Onların səs vermələri üçün məntəqələr xüsusi hazırlaşmışlar. 90 yaşlı Gülüm Yusifova ilə görüşdük. Yaşının çox olmasına baxmayaraq, səsverməyə özü gəlmişdi. Dedi ki, seçkilərdə iştirak etməyi özünün vətəndaşlıq borcu hesab edir.

## GƏDƏBƏY

104 saylı Gədəbəy Seçki Dairəsini əhatə edən seçki məntəqələrində də heç bir qayda pozuntusu qeydə alınmadı. Bunu Dairə Seçki Komissiyasının sədri Xalq Xudaverdiyevdən öyrəndik. Sədr bildirdi ki, həmişə olduğu kimi, bu seçkilərdə də seçicilər fəallıq nümayiş etdirdilər. Məntəqələrə gələn rayon sakinləri istədikləri namizədlərə səs verdilər. Bunun üçün məntəqələrdə hər cür şərait yaradılmışdı. Məntəqələrin bir neçəsində veb-kameralar quraşdırılmış, müşahidəçilər üçün xüsusi yer ayrılmışdı.

Dairənin 2 saylı məntəqəsində səs verməyə gələn 104 yaşlı Gədəbəy sakini Bəsdi Quliyeva ilə söhbət etdik. Fiziki cəhətdən hələ gümrah olan Bəsdi nənə dedi ki, bələdiyyələrdən çox şey gözləyir: "Açığını deyim ki, onların fəaliyyəti hələ istənilən səviyyədə deyil. Arzu edirəm ki, təzə seçilən bələdiyyələr işlərini daha da fəallaşdırsınlar".

## XIZI

55 saylı Siyəzən-Quba-Xızı Seçki Dairəsi 68 saylı seçki məntəqəsi Sitalçay kəndindəki Nicat Allahverdiyev adına tam orta məktəbin binasında fəaliyyət göstərir. Məntəqə Seçki Komissiyasının sədri Xəyal Qocayev bildirdi ki, bələdiyə seçkilərinə start veriləndən seçicilər məntəqəyə gələrək demokratik və sərbəst şəkildə istədikləri namizədə səs veriblər.

906 nəfərin qeydə alındığı məntəqə üzrə 80-100 arası 11 nəfər qeydə alınmışdı. Nənəsi ilə məntəqəyə gələn Mehriban Əliyarova Nəsrəddin Tusi adına Dövlət Pedaqoji Universitetinin birinci kurs tələbəsidir. Bildirdi ki, 5 kəndi birləşdirən bələdiyyəmizdə işgüzar insanların çalışmasında hamımız maraqlıyıq: "Sitalçay, Yeni Yaşma, Şurabad, Giləzi və Məşədi Həsən kəndlərinin sakinləri bu gün özlərinin yaxın beş il üçün problemlərini həll edə biləcək namizədlərə səs vermək üçün burdadır. Onların hamısını tanıyırıq. Əminik ki, səs verəcəyimiz namizədlər etibarımızı doğruldacaqlar".

Məntəqədə ilk dəfə səs verənlər 15 nəfər idi. Yavər Abuzərov, Rəhimə Cavadova və Zöhrə Ağayeva da seçkilərdə yaxından iştirak etdiklərini bildirdilər. Həmçinin yaşadıqları ərazidə bələdiyyələrdən çox şey gözlədiklərini vurğuladılar. Qeyd etdilər ki, növbəti seçkidə onlar da öz namizədliklərini verəcəklər.

Məntəqə üzrə seçkinin gedişini müşahidəçi izləyirdi. Onlar seçki zamanı heç bir qanun pozuntusunun olmadığını bildirdilər.

## QUBA

59 saylı Quba Seçki Dairəsi üzrə 49795 seçici qeydə alınmışdır. Onların səs verdikləri 68 məntəqə seçki qanunlarına uyğun olaraq bütün texniki avadanlıqlarla təmin edilmiş, 11 məntəqədə veb-kamera quraşdırılmışdır.

Dairə üzrə ilk dəfə səsverənlərin sayı 21, müşahidəçilərin ümumi sayı 980 nəfər idi. Sıralarında siyasi partiyalarla yanaşı, müstəqil muşahidəçilər də var idi.

Dairənin 28 saylı məntəqəsi Nəsrəddin Tusi adına Dövlət Pedaqoji Universitetinin Quba filialının binasında təşkil edilmişdi. Məntəqə seçki komissiyasının sədri Aysel Şeydayeva bildirdi ki, seçkiyə start veriləndən katiblər Mələk Bağırova, Nəhayət Şirinova və üzvlər Aytən Dadaşova, Telman Hacımuradov və Ramin Əliyev seçicilərə səs vermək prosedurlarını izah etmişlər. Məntəqədə müşahidə üçün veb-kamera quraşdırılıb. Onu da bildirək ki, məntəqədə 1102 seçici qeydə alınmışdır.

Məntəqədə ilk dəfə səs verən Nəzrin Bayramova dedi ki, yerli özünüidarə strukturu olan bələdiyyəyə üzv olmaq istəyən namizədlərin platformaları ilə yaxından tanış olmuşam. Aralarında inandığım namizədlər çoxdur. Lamiyə Məhərrəmova da Nəzrinin fikirlərini təsdiqlədi. Bildirdi ki, gənclərin rolu cəmiyyətdə artırılmalı və hər bir qubalı öz sözünü səsi ilə bildirməlidir.

Aysel Şeydayeva sonda bildirdi ki, səsvermədə Quba bələdiyyəsinə 15 üzv seçiləcək. Qeydə alınmış namizədlərin sayı 37 nəfərdir. Onlar müxtəlif partiyaları təmsil edirlər.

## NEFTÇALA

Seçkinin gedişi ilə yaxından tanış olmaq üçün Neftçala şəhərindəki Mədəniyyət və İncəsənət Mərkəzində yerləşən 3 saylı məntəqədə olduq. Məntəqə seçki komissiyasının sədri Cahangir Abdullayev qısa söhbət zamanı dedi:

- 1461 nəfər seçicimiz var. Onlardan 717 nəfəri kişi, 744 nəfəri qadındır. Məntəqədə veb-kamera quraşdırılmışdır. İlk səsverənlər 10 nəfərdir. 19 xəstə seçicinin səsverməsini də təşkil etmişik.

Səsvermə öz ahəngi ilə davam edirdi. Seçicilər bir-bir məntəqəyə daxil olur, səsvermədə iştirak edib geri qayıdırdılar. Seçkinin gedişi müşahidəçilər və media nümayəndələri tərəfindən izlənilirdi.

Bir neçə seçicidən səsvermənin gedişi ilə bağlı fikirlərini bildirmələrini xahiş etdik. Birinci Qarabağ müharibəsi qaziləri Məhəmməd Məcidov və Mübariz Lətifov seçicilərin heç bir maneə, təsir, müdaxilə ilə üzləşmədiklərini dedilər. Bildirdilər ki, hər bir seçici kimi biz də bülleten götürüb istədiyimiz namizədlərə səs verdik. İnanırıq ki, etimad göstərdiyimiz adamlar Neftçala şəhərinin problemlərinin aradan qaldırılması üçün qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Müşahidəçi Gülər Mirzəyeva seçkinin sərbəst, şəffaf və demokratik keçdiyini, heç bir qanun pozuntusu görmədiyini bildirdi.

## ABŞERON

Abşeron rayonunun sakinləri də bələdiyyə seçkilərində yaxından iştirak etdilər. Onların hər biri sərbəst şəkildə layiq bildikləri namizədlərə səs verdilər.

47 saylı Sumqayıt-Abşeron-Qaradağ Seçki Dairəsinin 26 saylı seçki məntəqəsi Ceyranbatan qəsəbəsindəki 1 saylı tam orta məktəbdə təşkil edilmişdir. Məntəqə seçki komissiyasının sədri Şahsuvar Mirzəyev bildirdi ki, 1349 seçici qeydə alınmışdır. İlk dəfə səs verənlərin sayı isə 47 nəfərdir. Şəfa İmanova, Yusif Musayev, Mədinə Novruzova və Zəhra Mehdieva və digər gənclər səsvermədə fəal iştirak etdilər. Mədinə bildirdi ki, gənclərin rolu cəmiyyətdə böyükdür. İstər sosial, istərsə də ictimai işlərdə gənclər birinci olmaq istəyir. Bizə bu ruhu verən suveren dövlətimizdir. Artıq biz də belə bir seçkinin tamhüquqlu vətəndaşlarıyıq".

Səsvermədə iştirak edən sakinlər Elçin Ağayev, Nemət Həşimov, Namiq Cəfərov da seçkinin gedişatından razı qldıqlarını bildirdilər. Vüqar Əmirxanov vurğuladı ki, ölkədə fəaliyyət göstərən müxtəlif partiyaların nümayəndələri bu seçkiyə qatılmışlar: "Təşviqat dövründə keçirilən görüşlərdə onların qarşısında müəyyən məsələlər qoyduq. Əminik ki, irəli sürdüyümüz məsələlər yeni tərkib tərəfindən öz həllini tapacaqdır".

## ASTARA

79 saylı Astara Seçki Dairəsi üzrə 50, 80 saylı Lerik-Astara Seçki Dairəsi üzrə 19 seçki məntəqəsi yaradılmışdır. Seçki Məcəlləsinin tələblərinə əməl edilməklə seçkilərin demokratik, şəffaf keçirilməsinə nail olmaq məqsədilə bütün məntəqələrdə zəruri tədbirlər görülmüşdür.

Seçki günü məntəqələrə gedən astaralılar inkişafa, yeniliyə çalışan, problemlərin həllinə dəstək ola bilən dövlətçi, bacarıqlı, layiqli namizədlərə səs verdilər. Astara şəhər 2 saylı seçki məntəqəsində səs verən şəhər sakini Anar Qasımov dedi ki, seçki məntəqələrinə səs vermək üçün gələnlər səslərini rayonun abadlığı və inkişafında, əhalinin sosial problemlərinin həllində fəal, ictimaiyyətdə nüfuzu olan şəxslərə verdilər. Həmçinin qeyd etdi ki, onun özü də namizədliyi qeydə alınmış 27 nəfərdən müstəqil dövlətimizin inkişafı üçün həyata keçirilən tədbirlərə dəstək ola biləcək namizədlərə səs verib.

Maşxan kənd 35 saylı seçki məntəqəsində səs verən Jalə Həsənova isə fikrini bu cür bildirdi: "Hamı başa düşür ki, bələdiyyə seçkilərində iştirak edərək düzgün seçim etmək, yerli sosial və infrastruktur problemlərinin həllində fəallıq göstərə biləcək namizədləri seçmək lazımdır. Ölkədə və rayonumuzda son illər baş verən əsaslı dəyişikliklər, aparılan tikinti və quruculuq işləri, sosial problemlərin həlli istiqamətində həyata keçirilən proqramlar əhalidə məmnunluq yaratmışdır. Bu seçkilərdə fəallığımız məhz həmin işlərin davamlı olması üçün çox vacibdir".

Ümumiyyətlə, rayonun bütün seçki məntəqələrində bələdiyyə seçkilərinin şəffaf, ədalətli və obyektiv keçirilməsi üçün yüksək şəraitin yaradılmasının şahidi olduq. Bunu məntəqələrdə seçkilərin gedişini müşahidə edən ictimaiyyət nümayəndələri də etiraf etdilər. Vətəndaş Həmrəyliyi Partiyası rayon təşkilatının sədri Səfərəli Teymurzadə rayonda seçkilərin demokratikliyinə qətiyyən şübhə etmədiyini bildirdi.

## XAÇMAZ

Xaçmaz rayonunda iki seçki dairəsi fəaliyyət göstərir. 57 saylı Xaçmaz Şəhər Seçki Dairəsi rayon mərkəzində yerləşir. Dairənin sədri Bəhram Ömərov bildirdi ki, seçicilərin ümumi sayı dairə üzrə 45942, o cümlədən ilk dəfə səs verən gənclərin sayı isə 100 nəfərdir.

46 məntəqənin 12-də veb-kamera quraşdırılıb. Onların vasitəsilə seçkinin gedişatı birbaşa izlənmişdir. Müşahidəçilərin sayı 873 nəfərdir. 4 bələdiyyə üzrə namizədliyini verənlərin sırasında müxtəlif partiyaların təmsilçiləri də var idi.

Dairənin 1 saylı məntəqəsində seçki fəallığı müşahidə edildi. Xaçmaz şəhər 1 saylı tam orta məktəbin binasında fəaliyyət göstərən məntəqənin sədri Rasim Muradov bildirdi ki, məntəqə üzrə seçicilərin sayı 1258, o cümlədən ilk dəfə səs verənlərin sayı 4 nəfərdir.

Səsvermədə iştirak edən Oktay Zəkiyev seçkinin gedişindən razı qaldığını bildirdi. Qeyd etdi ki, məntəqədə səsvermə demokratik və şəffaf keçirildi, hər kəs sərbəst şəkildə istədiyi namizədə səs verdi.

## BƏRDƏ

Yerli özünüidarəetmə orqanı olan bələdiyyəyə növbəti seçkilər respublikamızın bütün bölgələrində olduğu kimi, Bərdə rayonunda da siyasi fəallıq və yüksək əhvali-ruhiyyə şəraitində keçirildi.

99 saylı Bərdə Seçki Dairəsi 60 məntəqəni əhatə edir. Dairə Seçki Komissiyasının sədri Dilsuz Nəcəfovun məlumatına əsasən deyə bilərik ki, seçkilərə hazırlıq dövründə heç bir qanun pozuntusuna yol verilməmiş, hər hansı bir problem qeydə alınmamışdır. Seçkilərə qatılmaq istəyən hər kəsin istəyinə qayğı və diqqətlə yanaşılmışdır. Nəticə etibarilə seçki bülletenlərinə 157 namizədin adı salınmışdır.

Dünən Bərdə şəhəri üzrə 17 məntəqədə seçki keçirildi. Səhər saatlarından demək olar ki, bütün məntəqələrdə qələbəlik oldu. Bu seçkilərdə Bərdə bələdiyyəsi ərazi baxımından yeni strukturda formalaşacaq. Yeni qaydalara əsasən yeni bələdiyyələrin əhatə dairəsi genişləndirilir. Əvvəlki dönəmdə Bərdə bələdiyyəsi yalnız şəhəri əhatə edirdisə, indi Qaradağlı, Türkmən və Alaçadırlı kəndləri də Bərdə bələdiyyəsinin tərkibində yer olacaqlar.

Akademik Zərifə Əliyevanın adını daşıyan tam orta məktəb Bərdənin qabaqcıl təhsil ocaqlarındandır. 4 saylı seçki məntəqəsi burada yerləşir. Seçki məntəqəsinin foyesində qoyulmuş stendlərdəki seçici siyahısına səsvermə hüququ olan 1432 nəfər şəhər sakininin adı daxil edilmişdir.

Seçki məntəqəsinin qarşısında şəhər sakini, Bərdənin nüfuzlu ziyalısı Əlövsət Məmmədovla görüşdük. Həmsöhbətimiz təəssüratını bizimlə həvəslə bölüşdü:

- İndiki bələdiyyə seçkiləri çox əlamətdar bir dövrə təsadüf edir. Qəhrəman Azərbaycan əsgərinin, Müzəffər Ali Baş Komandan İlham Əliyevin güclü iradəsi sayəsində ölkəmizin ərazi bütövlüyünü bərpa etmişik. Erməni faşistlərinin 30 il işğalda saxlayıb viran qoyduqları Qarabağı və Şərqi Zəngəzuru indi başdan-başa yenidən qururuq. Doğma yurda, hər cür rahatlığı olan yeni yaşayış məntəqələrinə qayıdış hər bir ölkə vətəndaşında yüksək əhvali-ruhiyyə, gerçək bayram ovqatı yaradır. Bax biz indiki bələdiyyə seçkilərini belə xoş duyğularla keçiririk. Təbii ki, elin ən layiqli övladlarına səs veririk. İnanırıq ki, onlar doğma, eyni zamanda zəngin dövlətçilik ənənələri olan qədim Bərdənin daha da gözəlləşməsi üçün ürəklərinin odunu, əllərinin hərarətini əsirgəməyəcəklər.

# Bölgələrdə seçkilər ədalətli və şəffaf şəraitdə keçirildi

## ŞƏKİ-ZAQATALA BÖLGƏSİ

Dünən respublikamızın hər yerində olduğu kimi, Şəki-Zaqatala bölgəsi rayonlarında da bələdiyyə seçkiləri mütəşəkkilliklə keçdi.

AZƏRTAC xəbər verir ki, səhər saat 08:00-dan etibarən bölgəyə daxil olan Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ rayonlarında fəaliyyət göstərən 8 seçki dairəsinin 439 seçki məntəqəsi qapılarını seçicilərin üzünə açdı.

Dairə Seçki komissiyalarından verilən məlumata görə, bu seçki dairələri üzrə adları seçici siyahılarına daxil edilən seçicilərin ümumi sayı 425 min 379 nəfərdir. Onlardan 2 min 219 nəfəri seçkilərdə ilk dəfə səs verirdi. Yaşı 100-dən yuxarı olan seçicilərin sayı isə 10 nəfər idi.

Seçkilərdə bu rayonlar üzrə 73 bələdiyyəyə 823 nəfər üzv seçiləcək. Mübarizə aparan namizədlərin ümumi sayı isə 1711 nəfər olmuşdur. Bələdiyyə üzvlüyünə namizədlərin 876 nəfəri YAP və digər siyasi partiyaları təmsil edir. 835 nəfərin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülmüşdü.

Səsvermənin şəffaf və demokratik keçməsi üçün bütün seçki məntəqələrində lazımi şərait yaradılmış, məntəqələr zəruri avadanlıq və texniki vasitələrlə, o cümlədən etibarlı rabitə sistemi və elektrik generatorları ilə təmin olunmuş, 77 seçki məntəqəsində veb-kameralar quraşdırılmışdır. Bu dairələr üzrə seçkilərin gedişini 5 min 396 nəfər yerli müşahidəçi izləmişdir.

113 saylı Qax-Şəki Seçki Dairəsinin seçki məntəqələrində də bələdiyyə seçkiləri seçicilərin fəallığı şəraitində keçdi. Səsvermə hüququ olan vətəndaşlar səhər saatlarından etibarən seçki məntəqələrinə gəlir, vətəndaşlıq borclarını yerinə yetirərək seçimlərini edirdilər.

Dairənin 2 saylı seçki məntəqəsi Qax şəhər 2 nömrəli məktəb-liseydə yerləşir. Seçki məntəqəsində səsvermə prosesini müxtəlif siyasi partiyaları və ictimai birlikləri təmsil edən yerli müşahidəçilər izləyirdilər. Səsvermənin gedişi eyni zamanda veb-kamera vasitəsilə də müşahidə olunurdu.

Məntəqə seçki komissiyasının sədri Abdulla Orucovun məlumatına görə, məntəqə üzrə 1113 seçici qeydə alınıb.

İlk olaraq Qax şəhər sakini, 86 yaşlı ağsaqqal Fikrət Adaşov səs verib. Seçkidə iştirak etməkdən qürur hissi keçirdiyini vurğulayan ağsaqqal deyib: "Əvvəlki seçkilərdə olduğu kimi, bu seçkiyə də böyük həvəslə gəldim. Seçki məntəqəsində məni çox yaxşı qarşıladılar. Seçki bülletenində olan namizədlərin adlarını diqqətlə oxudum. Ən layiqli namizədlərə, şəhərimizin, yaşadığım məhəllənin inkişafını təmin edə biləcək insanlara səs verdim".

113 saylı Qax-Şəki Seçki Dairəsinin tərkibinə daxil olan 73 seçki məntəqəsinin 60-ı Qaxda, 13-ü isə Şəki rayonunda yerləşir. Səsvermənin gedişini izləmək üçün 10 seçki məntəqəsində veb-kamera quraşdırılmışdı. Dəqiqləşdirilmiş son seçici siyahılarına görə, dairə üzrə 54 min 673 seçici qeydə alınmışdı. Onlardan 324 nəfəri bu seçkilərdə ilk dəfə səs verirdi. Seçkilərdə bu dairə üzrə 10 bələdiyyəyə 110 nəfər bələdiyyə üzvü seçilirdi. Bu bələdiyyələrin 8-i Qax, 2-si isə Şəki rayonunun ərazisində fəaliyyət göstərəcək. Mübarizə aparan namizədlərin sayı isə 260 nəfər idi.

## LERİK

Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa olunduqdan sonra ilk dəfə keçirilən bələdiyyə seçkilərinə 80 saylı Lerik-Astara Seçki Dairəsi də ciddi hazırlaşmışdır.

Seçki dairəsi üzrə 127 seçki məntəqəsi fəaliyyət göstərir. Bu məntəqələrin 108-i Lerik , 19-u Astara rayonunun ərazisində yerləşir. Ümumilikdə 46 min nəfərdən çox seçici qeydə alınmışdır. Seçki dairəsi üzrə dünən 12 bələdiyyəyə yeni üzvlər seçildi. Dairə üzrə 278 nəfər namizəd 142 yer uğrunda mübarizə aparırdı. Səsverməni müxtəlif siyası partiyaları təmsil edən və öz təşəbbüsü ilə qeydə alınan 1478 müşahidəçi müşahidə edirdi.

1 saylı Lerik seçki məntəqəsində 1235 nəfər seçicinin səs verməsi üçün hər cür şərait yaradılmışdı. Seçki məntəqəsinə gələnlərin arasında Lerik uzunömürlüyünə xas olan yaşlı seçicilərə rast gəldik. 92 yaşlı Aydın Abdullayev dedi:

- Bələdiyyə seçkilərində həvəslə iştirak edirəm. Arzu edirəm ki, bu seçkilər xalqımıza xeyirli və düşərli olsun.

Müşahidəçi Şakir Ağayev isə bildirdi ki, səsvermə prosesi qanunvericiliyin tələblərinə uyğun şəkildə aparılır, seçicilər öz iradələrini sərbəst şəkildə ifadə edə bilirlər.

5 saylı Cəngəmiran seçki məntəqəsində 548 nəfər seçici səs verməli idi. Bu seçki məntəqəsində səs verən Xumar Şıxəliyeva bunları söylədi ki, 18 yaşı yenicə tamam olub, səsvermə hüququndan ilk dəfə istifadə edir. Sonra o, gənc seçici olaraq ən layiqli namizədlərə səs verdiyini qeyd etdi, Azərbaycanın tərəqqisi və inkişafında gənclərin xüsusi rol oynadığını bildirdi.

Ağsaqqal pedaqoq Abdulla Tahirov səsvermənin Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə keçirildiyini bildirdi və yerli özünüidarəetmə orqanlarına layiqli namizədlərin seçiləcəyinə ümid etdiyini diqqətə çatdırdı.

## SALYAN

Səhər saat səkkiz radələridir. Qar-yağış olmasa da, havada şaxta var. Buna baxmayaraq, adamlar dəstə-dəstə öz seçici məntəqələrinə gedirlər.

Salyan şəhəri ərazisində bir neçə seçki məntəqəsi var. Onlardan biri 65 saylı Salyan-Biləsuvar-Neftçala Seçki Dairəsinin Aşıq Pənah adına 1 saylı orta məktəbin binasında yerləşən 11 saylı seçki məntəqəsidir. Məktəbin həyətində qələbəlikdir. Seçicilərin bir çoxu nəvəsi ilə gəlib. Onlar bir-bir məntəqənin giriş qapısına yaxınlaşıb şəxsiyyət vəsiqəsini göstərib içəri keçirlər. Sonrakı prosedurlar məlumdur. Hamısı qaydalar çərçivəsində icra olunur. Nəhayət, seçici kabinəyə keçib istədiyi namizədə səs verir və bülleteni qutuya salır.

Məntəqədə seçkinin gedişini izləmək üçün müxtəlif partiyalardan, qeyri-hökumət təşkilatlarından və mediadan olan nümayəndələr üçün xüsusi yer ayrılmışdır. Seçici - Salyan şəhər Təbriz Xəlilbəyli küçəsi 133 ünvanında yaşayan Raziyyə Ələsgərovaya yaxınlaşıb seçkinin necə keçməsi barədə fikrini öyrəndik:

- Hər şey qaydasındadır. Hər kəs istədiyi namizədə səs verir. Məsələn, mən bülletendə adları olan 28 namizədin ən yaxşılarını seçib səs verdim. - Sonra sözünə əlavə etdi: - Bəli, bu gün bələdiyyələrin öhdəsinə az iş düşmür. Əminəm ki, Salyan bələdiyyəsinə səs verdiyim, yəni seçmək istədiyim 15 nəfərdən hər biri məsuliyyətli, işinin öhdəsindən yaxşı gələn adamlardır. Onlar Salyan şəhərinin abadlaşmasında yaxından iştirak edəcək, yaşadıqları şəhərin inkişafı üçün əllərindən gələni əsirgəməyəcək, yerli idarəetmə orqanı kimi üzərlərinə düşən vəzifələri ləyaqətlə icra edəcəklər.

Müşahidəçi Ofeliya Ağalarova isə seçkilərin gedişindən danışdı:

- Seçkilərin gedişinə müdaxilə, maneə, təsir yoxdur. Hər bir vətəndaş seçici hüququndan istifadə edərək namizədin və ya namizədlərdən bir neçəsinin adı qarşısında öz qeydini edir. Onlara qarşı qanun pozuntusu görməmişəm.

Müşahidəçilərdən Ağamehdi Mehdiyev həmkarlarının fikri ilə razı olduğunu, seçkinin aydın, şəffaf, demokratik şəraitdə keçdiyini bildirdi.

Qeyd edək ki, 65 saylı Salyan-Biləsuvar-Neftçala Seçki Dairəsi üzrə 50 məntəqə yaradılmışdır. Onlardan 38-i Salyan, 6-sı Biləsuvar, 6-sı isə Neftçala rayonunun ərazisindədir. Seçkisi keçirilən 7 bələdiyyənin 5-i Salyan, 1-i Biləsuvar və 1-i Neftçaladadır. Bu bələdiyyələr üzrə 159 nəfər namizəd qeydə alınmışdı ki, onların da 81 nəfəri YAP, 1 nəfəri VHP tərəfindən, 77 nəfəri öz təşəbbüsü ilə irəli sürülmüşdü. Dairə üzrə seçkiləri 584 müşahidəçi izləmişdir.

## BİLƏSUVAR

Biləsuvar əhalisi bütün seçkilərdə olduğu kimi, bələdiyyələrə keçirilən seçkilərə də yaxşı hazırlaşmışdı. Seçkilərin gedişatını qeydə alınmış 587 müşahidəçi izləyirdi. Müşahidəçilər və media nümayəndələri üçün bütün məntəqələrdə lazımi şərait yaradılmışdı.

Rayon üzrə bütövlükdə 10 bələdiyyəyə seçkilər keçirildi. 112 yer uğrunda 221 namizəd mübarizə apardı. Həmin namizədlərin 112 nəfəri YAP, 1-i MMP, 1-i YZP, 1-i HƏP, 1-i VP, 105 nəfəri isə öz təşəbbüsləri ilə seçkilərə qoşulmuşdular.

69 saylı dairənin 2 saylı məntəqəsi şəhid polkovnik-leytenant Orxan Əkbərovun adını daşıyan Uşaq İncəsənət Məktəbində yerləşir. Buradakı təmizlik, səliqəsahman, məntəqə üzvləri, seçicilər və müşahidəçilərdən ötrü yaradılan şərait hazırlığın mükəmməl səviyyədə olduğunu göstərirdi. Öyrəndik ki, məntəqə üzrə 1381 nəfər seçici qeydə alınıb. 80-100 yaş arasındakı seçicilərin sayı 13 nəfər idi. Məntəqədə veb-kamera quraşdırılmışdı. 5 nəfər isə xəstəliklə əlaqədar ərizə verib səyyar qutu göndərilməsini xahiş etmişdi.

Məntəqədə heç bir çatışmazlıq müşahidə etmədik. Telefon, seyf, yanğına qarşı mübarizədən ötrü avadanlıq və s. ilə təchiz edilən məntəqədə alternativ işıq mənbəyi olan generator da saz vəziyyətdə idi.

Səsvermədən keçən seçici - Biləsuvar şəhər B.Abbasov 39 ünvanda yaşayan Şahverdi Bayramov:

- Seçkinin gedişinə heç bir söz ola bilməz. Şəxsiyyət vəsiqəmlə bülleten alıb səsvermə kabinəsinə keçdim. İstədiyim namizədlərin adları qarşısında işarə qoyduqdan sonra bülleteni qutuya atdım. Hamı da mənim kimi. İstərdim ki, yeni seçilən bələdiyyə daha fəal və təşəbbüskar olsun, əhalinin qayğısına qalsın. Açıq deməliyik ki, hələ görüləsi işlər çoxdur. Onlar fəaliyyət dairələrini genişləndirməlidirlər. Vəzifələrini hansısa küçəyə, yola bir-iki maşın çınqıl tökməklə bitmiş hesab etməməlidirlər. Əsasnaməyə uyğun olaraq seçicilər qarşısında hesabat verməlidirlər.

Müşahidəçi Vüsal Abbasov isə bunları dedi:

- Seçkilər aydın, şəffaf, demokratik keçir. Heç bir qanun pozuntusu, neqativ hal yoxdur. Hər bir seçiciyə istədiyi namizədə səs verməsi üçün normal şərait yaradılıb.

## HACIQABUL

63 saylı Hacıqabul-Kürdəmir Seçki Dairəsi üzrə 52 məntəqə yaradılmışdır. Məntəqələrdə səs verəcək seçicilərin sayı 51 min 789 nəfər idi. İlk dəfə səs verənlər 85, o cümlədən səsvermə günü 18 yaşı tamam olan 3 nəfər olmuşlar. Rayonda 8 bələdiyyə üzrə seçkilər keçirildi. 94 bələdiyyə üzvü yeri uğrunda 182 namizəd mübarizə aparmışdır.

Seçki günü şəffaflığın təmin edilməsi məqsədilə 8 məntəqədə veb-kamera qurulmuşdu. Eyni zamanda seçki prosesində aşkarlığı təmin etmək üçün 4 siyasi partiyadan, o cümlədən YAP, ADMP, AVP, DİP-dən 185 nəfər və öz təşəbbüsü ilə 553 nəfər olmaqla 738 müşahidəçi qeydə alınmışdı.

Məntəqələrdə seçicilərin fəallığı hiss olunurdu. Hacıqabul şəhər 1 saylı seçki məntəqəsində də seçicilər yüksək fəallıq göstərirdilər. Məntəqənin sədri Cəmilə Ağamalıyeva da bunu təsdiqlədi:

- Seçici fəallığı yüksəkdir. Seçicilər sərbəst şəkildə seçki məntəqəsinə gələrək öz iradələrini ifadə edirlər. Məntəqəmiz üzrə 1182 seçici olmuşdur. İlk dəfə səs verənlər 17, 80-100 yaşlılar isə 21 nəfərdir. Seçki məntəqəsində veb-kamera qurulmuşdur. Eyni zamanda səsvermənin gedişini müxtəlif siyasi partiyalardan və tərəfsizlərdən ibarət 14 müşahidəçi izləyir.

Həmin məntəqə üzrə seçici Samirə Talıbova:

- Səsvermə normal şəraitdə keçir. Hər hansı bir təsir və təzyiqlə rastlaşmadım. Sərbəst şəkildə istədiyim namizədlərə səs verdim. Seçki məntəqəsində müşahidəçilər səsvermənin gedişini izləyirdilər.

Müşahidəçi Hafis İbrahimov bildirdi ki, bələdiyyə seçkiləri şəffaf, obyektiv və azad şəkildə keçirilir. Seçicilər fəallıq göstərirlər. Seçki məntəqəsində hər hansı seçki qanunvericiliyinin pozulması hallarına rast gəlinməmişdir.

## TƏRTƏR

Tərtər-Ağdərə-Goranboy Seçki Dairəsi üzrə 50 seçki məntəqəsində seçicilər xoş əhvali-ruhiyyə ilə bələdiyyə seçkilərinə qatıldılar. Bu da təbiidir. Çünki insanların builki seçkilərdən gözləntiləri böyükdür. Xüsusən də yerli özünüidarəetmənin təkmilləşdirilməsi, əhaliyə göstərilən xidmətlərin yüksəldilməsi və vətəndaş məmnunluğunun artırılması kimi mühüm vəzifələrin yerinə yetirilməsində yeni seçilən bələdiyyələr əvvəlki illərdəkindən daha fəal olmalıdırlar.

1 saylı seçki məntəqəsinə gələn şəhər sakini Svetlana Bağırova bununla bağlı öz fikirlərini söylədi.

- Həyatımız daim yenilənir. Hər bir sahədə müasir tələblərə cavab verən islahatlar həyata keçirilir. İndiki bələdiyyə seçkiləri də bu məqsədi daşıyır. Yəni iri, bir neçə kəndi əhatə edən bələdiyyələrin imkanları da çox olacaq və bunlar sakinlərin etimadını doğrulda biləcəklər. Mən məntəqəyə ailə üzvlərimlə birlikdə gəlmişəm. Burada şəhər sakinlərinin fəallığını görürəm. Məntəqədə işlər şəffaf qurulub, hər kəs sərbəst şəkildə istədiyi namizədlərə səs verir.

Səsverməyə nəzarət edən müşahidəçilər burada heç bir qanun pozuntusu olmadığını bildirdilər.

## CƏLİLABAD

Cəlilabadda da bələdiyyə seçkiləri yüksək siyasi fəallıq şəraitində keçdi. Qeyd edək ki, rayon üzrə 109 min 490 seçici qeydə alınmışdı və onlar 3 Seçki Dairəsi üzrə 106 seçki məntəqəsində səs vermişlər.

Biz bir neçə seçki dairəsində seçkilərin gedişi ilə tanış olduq. Əvvəlcə 71 saylı Cəlilabad Şəhər Dairə Seçki Komissiyasının sədri İsa Allahverdiyevlə görüşüb söhbət etdik. O dedi ki, Dairə Seçki Komissiyasının ərazisində 52 seçki məntəqəsi fəaliyyət göstərir. Həmin məntəqələrdə ilk dəfə səs verən seçicilərin sayı 147 nəfərdir. Hazırlıq işləri yüksək səviyyədə aparılıb. Görüşlərin keçirilməsi üçün 53 qapalı və bir o qədər də açıq şəraitdə yerlər ayrılmışdır. Dairə üzrə müxtəlif partiyalardan, habelə öz təşəbbüsləri ilə 580 nəfər müşahidəçi qeydə alınmışdır. Məntəqə seçki komissiyasının üzvləri hər bir iştirakçıya təlimlərdə istifadə etmək və yaxından tanış olmaq üçün MSK tərəfindən hazırlanan yaddaş kitabçası, səsvermənin nəticələri haqqında protokol nümunəsi, eləcə də bir sıra digər zəruri metodiki vəsaitlər və əyani materiallar verilmişdir. Məntəqə üzvləri üçün hərəkət cədvəli, protokolların doldurulması və s. barədə treninq keçirilmişdir. Seçkilərin gedişini izləmək üçün 14 məntəqədə veb-kamera quraşdırılmışdır. İsa Allahverdiyev həmçinin qeyd etdi ki, dairə üzrə 208 namizəd qeydə alınmışdır.

Cəlilabad şəhərindəki 16 saylı məntəqə 9 nömrəli tam orta məktəbin binasında yerləşir. Seçki məntəqəsində müstəqil müşahidəçi Xəzər Mustafayev suallarımıza cavab verərək dedi ki, dövlətimizin gücü vətəndaşlarımızın həmrəyliyindən və birliyindən asılıdır: "Hazırkı seçkilərin tam demokratik və yüksək siyası fəallıq şəraitində keçirilməsini öz gözlərimizlə görürük. Bu seçkilərin milli hədəflərimizə çatmaq üçün yeni bir başlanğıca çevriləcəyinə şübhə etmirik. Hamıya gün kimi aydındır ki, Azərbaycan xalqının və dövlətinin qarşısında yeni üfüqlər açan tarixi bir dövrə qədəm qoymuşuq. Səsverməni izləməkdə tam müstəqilik. Nə müşahidəçilərə, nə də seçicilərə qarşı təzyiq var, bütün proses öz nizamında, öz qaydasındadır".

72 saylı Cəlilabad kənd DSK-nın sədri Mehman Rzayev də dedi ki, budəfəki bələdiyyə seçkiləri hüququn aliliyi qorunmaqla daha gərgin və rəqabət şəraitində keçir: "Bələdiyyələrin fəaliyyəti haqqında yeni qanunvericilik aktlarının, xüsusən bələdiyyələrin birləşdirilməsi, bələdiyyə əraziləri və torpaqları barədə yeni və mükəmməl sənədlərin qəbulu bələdiyyələrin işində iştirak edənlərin sayının artmasına təkan verib. Dairə üzrə 47 məntəqə mövcuddur. Həmin məntəqələrdə ilk dəfə səs verən seçicilərin sayı 141 nəfərdir. Dairə üzrə namizədlər 290, müşahidəçilərin sayı 599 nəfərdir. 5 məntəqədə veb-kamera quraşdırılıb". Dairə sədrinin dediklərindən o da məlum oldu ki, məntəqələrin hamısında seçici və müşahidəçilər üçün hər cür şərait yaradılıb, hər bir məntəqə lazımi vəsait və texniki vasitələrlə təmin edilib.

73 saylı Masallı-Cəlilabad Seçki Dairəsindəki 40 saylı seçki məntəqəsində Vətən müharibəsinin şəhidi Murad Səlifovun atası Nəbi Səlifovla həmsöhbət olduq. O, dedi:

- Azərbaycanda nümunəvi, beynəlxalq standartlara söykənən azad, demokratik seçki ənənəsi mövcuddur. Bu ənənənin əsası isə Ulu Öndər Heydər Əliyevin xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra qoyulub. Bu gün bələdiyyə seçkilərinə xüsusi ovqatla gəlmişəm. Əminəm ki, bələdiyyələrə seçiləcək insanlar vəzifələrinin öhdəsindən layiqincə gələcəklər. Mən də belə namizədlərə səs verdim və belə hesab edirəm ki, yanılmayacağam. Bələdiyyə seçkilərinə yüksək maraq həm də ondan irəli gəlir ki, insanlar ərazilərin inkişafında dövlətin dəstəyinə arxalanırlar. İnanırlar ki, irəli sürülən təşəbbüslər, təqdim olunan layihələr dövlət tərəfindən dəstəklənəcək.

*"AZƏRBAYCAN"*














**Bələdiyyə seçkiləri ilə bağlı yazılarda AZƏRTAC-ın fotolarından istifadə olunub**

# Azərbaycan vətəndaşları bələdiyyə seçkilərində ən layiqli namizədlərə səs verdilər

## Yerli müşahidəçilər seçki prosesini müsbət qiymətləndirdilər

### "Hər hansı qanun pozuntusu müşahidə olunmur, səsvermə normal keçir"



**Ötən il Prezident və Milli Məclisə keçirilən seçkilərdə şəffaf və demokratik nümunə ortaya qoyan Azərbaycan bələdiyyə seçkilərini də arxada qoydu. Ölkə həyatında mühüm siyasi hadisə olan seçkilərdə 23 siyasi partiyanı təmsil edən 16 min 92 namizəd mübarizə apardı.**

Mərkəzi Seçki Komissiyasında və dairə seçki komissiyalarında seçki prosesini izləmək üçün 70 min 625 yerli müşahidəçi akkreditasiyadan keçmişdi.

Müstəqil Azərbaycan tarixində sayca 6-cı bələdiyyə seçkiləri də şəffaf və demokratik şəraitdə baş tutdu. Bunu seçki məntəqələrində səsvermə prosesini izləyən yerli müşahidəçilər də təsdiqlədilər.

Biz də Nizami rayonu 25 saylı II Seçki Dairəsinin bir neçə məntəqəsində olub, həm seçki prosesini izlədik, həm də müşahidəçilərin fikirlərini öyrəndik.

18 saylı seçki məntəqəsində könüllü müşahidəçi Samara Məmişova qeyd etdi ki, səhər saat 08:00-dan məntəqədədir və seçki prosesinin başlanması ilə bağlı bütün prosesləri izləyib. O, qaydalara əməl olunduğunu dedi: "Seçki prosesi normal gedir. Səhər saatları olduğu üçün seçici fəallığı o qədər də yüksək deyil. Amma seçicilər məntəqəyə yaxınlaşaraq istədikləri namizədə sərbəst şəkildə səs verib, məntəqəni tərk edirlər".

Müşahidəçi vurğuladı ki, seçicilər arasında ortayaşlı şəxslər daha çoxdur: "Gənc və yaşlı seçicilərə o qədər də rast gəlinmir. Hələ səhər saatlarıdır. Yəqin ki, günün növbəti saatlarında aktivlik müşahidə olunacaq".

Seçki prosesi ilə bağlı fikirlərini öyrəndiyimiz digər müşahidəçi də bildirdi ki, səhər saatlarından seçicilər məntəqəyə gəlirlər.

YAP-ın müşahidəçisi Mehriban Vəliyeva da məntəqəyə yaxınlaşan seçicilərin əsasən orta nəslin nümayəndələri olduğunu vurğuladı: "Saat 08:30-dan məntəqədəyəm. Seçici fəallığı hiss olunur. Hər hansı pozuntu müşahidə etməmişəm. Məntəqəyə gələn seçicilər istədikləri namizədə rahatlıqla səs verirlər. Seçkilər şəffaf şəkildə keçirilir və səsvermə hüququna malik olan şəxslər öz seçki hüquqlarından sərbəst şəkildə istifadə edə bilirlər. Gün ərzində də məntəqələrdə müşahidəmi davam etdirəcəyəm".

Qeyd edək ki, səhər saat 08:00-da başlayıb, 19:00-da başa çatıb.

***Əsmər QARDAŞXANOVA,* *"Azərbaycan"***

## Naxçıvanda 102 yaşlı seçici səs verib



6 saylı Ordubad-Culfa seçki dairəsinin 43 saylı seçki məntəqəsində səs verən ən yaşlı sakinin 102 yaşı var.

AZƏRTAC verir ki, həmin şəxs 1923-cü il təvəllüdlü Culfa rayonunun Yaycı kəndindən olan Abdulla Səfərovdur. O, məntəqəyə gələrək səs verib.

## "Bələdiyyə qapısı mənim üçün bir ümid yeridir"

### Bu, bələdiyyə üzvlüyünə namizədə evində səs verən sakinin sözləridir



**Bütün seçkilərdə olduğu kimi, Qaraçuxur sakinləri dünən keçirilən bələdiyyə seçkisində də fəallıq nümayiş etdirdilər. 31 saylı Suraxanı II Seçki Dairəsində 32 nəfər bələdiyyə üzvlüyünə namizəd qeydə alınmışdı.**

Qeyd edək ki, yerli özünüidarə qurumu olan bələdiyyələrin bütövlükdə ölkənin sosial-iqtisadi inkişafında müəyyən payı var. Ona görə də bələdiyyələr mövcud şəraiti düzgün qiymətləndirərək ərazidə yaşayan əhalinin sosial rifah halının yaxşılaşdırılması üçün öz imkanlarından maksimum istifadə etməlidirlər.

Biz dairənin 5 saylı seçki məntəqəsində olarkən sakinlərin fəal səs vermələrinə şahidlik etdik. Bəri başdan bildirək ki, seçkilərdə heç bir qanun pozuntusu faktı qeydə alınmadı. Çünki məntəqədə seçicilərə öz seçimlərini sərbəst və tam şəkildə bildirmək imkanı yaradılmışdı. Müşahidəçilərə seçki prosesini yaxından izləmək imkanı verilmişdi.

Əslində, məqsədimiz evdə səs verən seçicilərlə görüşmək, onların səsvermə prosesində iştirak etmək idi. Məntəqə sədri Aygün Allahverdiyeva dedi ki, bu ərazidə yalnız bir nəfər var ki, o, məntəqəyə gəlib səsvermədə iştirak edə bilmir. Əlil arabasına məhkum olmuş Əli Kazımovun səs verməsi üçün hər zaman şərait yaradılır.

Məntəqənin iki nəfər nümayəndəsi ilə birlikdə Əli Kazımovun evinə yollandıq. O, istədiyi namizədin adını daşınan seçki qutusuna salıb dedi ki, bir Azərbaycan vətəndaşı olaraq bələdiyyə seçkisində iştirak etməyi özünə borc bilir: "Ona görə də hələ bir həftə əvvəl məntəqəyə ərizə ilə müraciət etdim. Sağ olsunlar, müraciətimə etinasız yanaşmadılar. Son illər ölkədə keçirilən seçkilərdə bu cür iştirak edirəm. Bu da məni təbii ki, qəlbən ağrıdır. Amma bədbin də deyiləm. Yeri gəlmişkən, deyim ki, bizim Qaraçuxur bələdiyyəsi vətəndaşların tələb, təklif və arzularının, şikayətlərinin operativ həllinə çalışır. Şəxsən mən hansısa bir problemimin həll olunması üçün etdiyim müraciətlərin cavabsız qaldığını görməmişəm. İndi də, əvvəllər də səs verib seçdiyim bələdiyyə üzvlərinin təmizlik, abadlıq-quruculuq işlərinin yerinə yetirilməsində canla-başla iştirak etmələri məni sevindirib. Bilirsinizmi, şəhid ailələrinin, müharibə veteranlarının, qocaların, imkansızların ümidlə açdıqları bələdiyyə qapısından gülərüzlə ayrılmaları necə xoş hissdir?! Ona görə də, nə olur-olsun, bələdiyyə seçkisində iştirak etməliydim".

***Züleyxa ƏLİYEVA,* *"Azərbaycan"***

## Veb-kameralar şəffaflığı təmin edir




**Azərbaycanda keçirilən seçkilərdə şəffaflığın yüksək səviyyədə təmin olunması üçün bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının imkanlarından da geniş istifadə olunur. Bunlardan biri internet vasitəsilə səsvermə prosesini canlı izləmə imkanı verən veb-kameralardan istifadədir.**






Geniş ictimaiyyət tərəfindən səsvermənin gedişinin müşahidə edilməsi, habelə məntəqə seçki komissiyalarının üzvləri tərəfindən seçki sənədləri ilə işin aparılması, heç bir qanunsuz müdaxilə olmadan seçicilərə səsvermə üçün sərbəst şəraitin yaradılması, seçki bülletenlərinin seçki qutusuna salınması, səslərin sayılması, nəticələrin müəyyənləşdirilərək rəsmiləşdirilməsi prosesinin izlənilməsi və bununla da aşkarlığın daha geniş surətdə təmin edilməsi məqsədilə Mərkəzi Seçki Komissiyası 2008-ci ildən başlayaraq seçkilərdə əlavə tədbirlər qismində İnformasiya Mərkəzinin sisteminə qoşulmaqla mövcud seçki məntəqələrinin 500-də (təqribən 10 faizində), sonradan isə 1000-də (təqribən 20 faizində) veb-kameralar tətbiq edib.

İnternet vasitəsilə səsvermə prosesini canlı izləmə imkanı verən veb-kameralardan istifadə təcrübəsi dünən bələdiyyə seçkilərində də davam etdirildi. Bu seçkidə də 118 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılmışdı. Bu da seçki prosesini əvvəldən axıradək izləməyə, geniş və hərtərəfli müşahidə aparmağa və beləliklə, aşkarlığın daha dolğun təminatına şərait yaratdı.

Beləliklə, veb-kameraların tətbiqi əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də seçki prosesinin şəffaf aparılmasına dəyərli töhfə verdi.

***Elçin CƏFƏROV,* *"Azərbaycan"***

## Astarada 101 yaşlı Məryəm nənə evində səs verib

Astara sakini 101 yaşlı Məryəm Diyarova bələdiyyə seçkilərində səs verərək həm öz vətəndaşlıq borcunu yerinə yetirib, həm də seçkilərdə fəal iştirak nümunəsi göstərib. Onun bu addımı yaşından asılı olmayaraq, insanların demokratik proseslərdə iştirak etməsinin önəmini vurğulayır.



AZƏRTAC xəbər verir ki, Astara rayonunun Ərçivan qəsəbəsində yaşayan Diyarova Məryəm Dadaş qızı səhhətində yaranan problemlərə görə 79 saylı Astara Seçki Dairəsinin 31 saylı məntəqəsinə gedə bilməyib. Buna görə də seçki məntəqəsinə müraciət edərək səyyar seçki qutusunun evinə gətirilməsini istəyib. Müraciətə əsasən, seçki qutusu Məryəm xanımın evinə gətirilib və o, səsini verib.

"İndiyə kimi bütün seçkilərdə iştirak etmişəm. Allah ömür versə, bundan sonra da iştirak edəcəyəm. Bu dəfə səhhətimdə yaranan problemə görə məntəqəyə gedə bilmədim. Xahiş etdim ki, daşınan seçki qutusunu evimə gətirsinlər. Layiqli namizədə səsimi verdim və ümid edirəm ki, bu seçim ölkəmizin gələcəyi üçün müsbət dəyişikliklərə səbəb olacaq. Seçkilərin nəticələrinin hamımız üçün xeyirli olacağına inanıram" , - deyə 101 yaşlı Məryəm Diyarova bildirib.

## *Səsvermədə ilk dəfə iştirak edən seçici:* "Bələdiyyə seçkilərində gənc namizədlərin çoxluğu müsbət haldır"

"Səsvermədə ilk dəfə iştirak etdiyim üçün bir az həyəcanlıyam, lakin ölkəmizin ictimai-siyasi həyatında iştirak etməyə başladığım üçün sevinirəm. Seçki məntəqəsinə sərbəst daxil olaraq qeydiyyatdan keçdim və bülleteni alıb seçdiyim namizədə səs verdim".



Bu sözləri AZƏRTAC-a açıqlamasında ilk dəfə səsvermədə iştirak edən 18 yaşlı seçici Nigar Quliyeva deyib. O bildirib ki, Azərbaycan yüksələn xətlə inkişaf edən bir ölkədir və onun ictimai həyatında gənclərin iştirakı vacibdir.

"Ölkəmizdə gənclərin inkişafı üçün geniş imkanlar var. Yaradılan şəraitdən istifadə edən gənclərin bələdiyyə seçkilərində də namizəd kimi iştirakı müşahidə olunur. Bələdiyyə seçkiləri ictimai-siyasi həyatda fəal iştirak üçün ilk addımdır. Bu baxımdan bələdiyyə seçkiləri zamanı səsvermədə iştirak etmək vacibdir", - deyə gənc seçici vurğulayıb.

Nigar Quliyeva gəncləri səsvermə prosesində fəal iştirak etməyə səsləyib.

## "Seçicilərin fəallığı bələdiyyə seçkilərinə olan marağın və vətəndaş məsuliyyətinin göstəricisidir"

"Seçicilər səhər saatlarından etibarən yüksək fəallıq nümayiş etdirirlər. Müşahidələrimiz göstərir ki, artıq yüzlərlə vətəndaş seçki məntəqəsinə gələrək öz hüququndan istifadə edir. Saatlar ərzində 400-dən çox insan bu məntəqədə səsvermədə iştirak edərək seçimini edib. Seçicilərin fəallığı seçkilərə olan böyük marağın və vətəndaş məsuliyyətinin göstəricisidir. Məntəqədə səsvermə prosesi ardıcıllıqla və maneəsiz şəkildə davam edir".



Bu sözləri AZƏRTAC-a açıqlamasında 27 saylı Sabunçu II Seçki Dairəsinin 3 saylı seçki məntəqəsində müşahidəçi qismində iştirak edən Vüsalə Kərimova söyləyib.

Seçki prosesinin gedişatını yüksək qiymətləndirən müşahidəçi əlavə edib: "Məntəqədə səsvermə demokratik prinsiplərə uyğun şəkildə təşkil olunub, seçicilərin sərbəst şəkildə iradələrini ifadə etmələri üçün bütün zəruri şərait yaradılıb. Seçki məntəqəsində yüksək təşkilatçılıq səviyyəsi müşahidə olunur, seçki komissiyası üzvləri peşəkar və obyektiv fəaliyyət göstərirlər".

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# Bələdiyyə seçkiləri ölkəmizdə seçki demokratiyasının daha da inkişafına öz töhfəsini verəcək

## MSK-nın İnformasiya Mərkəzi səsvermənin gedişinə dair məlumatları ictimaiyyətə operativ çatdırdı

**Yerli özünüidarəetmə orqanlarına seçkilər yanvarın 29-da səhər saat 8:00-da başladı. Seçkilər ölkə ərazisindəki 118 seçki dairəsini əhatə edən 5 min 846 məntəqədə təşkil edilmişdi. Seçkilərdə 685 bələdiyyəyə 8 min 71 üzv seçilmək üçün 16 min 92 namizəd mübarizə aparırdı.**





Bələdiyyə seçkilərində səsvermə hüququ olan 5 milyon 961 min 987 seçicinin rahat şəkildə azad və sərbəst səs vermələri üçün lazımi şərait yaradılmışdı. Seçki gününə qədər məntəqələrə 6 milyon 52 min 721 seçki bülleteni paylanmışdı. Məntəqələr zəruri avadanlıqlarla təmin edilmişdi.

Səsvermənin şəffaflığını təmin etmək üçün həmçinin 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılmışdı.

Qeyd edək ki, bələdiyyə seçkisindən bir gün öncə - yanvarın 28-də bələdiyyə seçkiləri ilə əlaqədar mətbuat konfransı keçirən Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov seçicilərin öz konstitusion hüquqlarını reallaşdırmaları üçün bütün lazımi şəraitin yaradıldığını bildirdi. Seçkilərin hazırlanıb keçirilməsinə məsul orqan kimi MSK bələdiyyə seçkilərinin təyin edildiyi ilk gündən prosesi Seçki Məcəlləsinin və digər qanunvericilik aktlarının tələblərinə uyğun təşkil etməyə çalışdığını diqqətə çatdırdı. Məzahir Pənahov MSK-nın atdığı bütün addımların şəffaf şəkildə həyata keçirildiyini, bu işdə media nümayəndələrinin də prosesləri müşahidə etdiyini bildirdi.

Yanvarın 29-da bələdiyyə seçkilərinin başlaması ilə əlaqədar keçirilən mətbuat konfransında Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov diqqətə çatdırdı ki, bələdiyyə seçkiləri müasir tələblərə uyğun olaraq təşkil edilib. Seçkilərin müşahidəsində veb-kameralar praktikasından istifadə edildiyini diqqətə çatdıran Mərkəzi Seçki Komissiyasının sədri istənilən ölkədən maraqlı tərəfin Mərkəzi Seçki Komissiyasının saytına daxil olaraq seçkiləri müşahidə edə biləcəyini bildirdi. Bu, beynəlxalq səviyyədə Azərbaycan praktikası kimi qəbul edilir.




Məzahir Pənahov diqqətə çatdırdı ki, bələdiyyə seçkilərində ümumilikdə 71 min 209 nəfərin səsverməni müşahidə etmək hüququ var: "Onların sırasına media nümayəndələri daxil deyil".

Gün ərzində ölkənin ərazilərində fəaliyyət göstərən seçki məntəqələrində bələdiyyə seçkilərinin gedişi, seçici fəallığı barədə məlumat verildi. Mərkəzi Seçki Komissiyasının İnformasiya Mərkəzinin müdiri Fərid Orucov bələdiyyə seçkiləri ilə əlaqədar səsvermənin gedişinə dair ilk rəsmi məlumatı saat 10:00-da açıqladı. Respublika üzrə 499 575 nəfərin səs verdiyini bildirdi. Ortalama seçici fəallığının 8,38 faiz olduğunu diqqətə çatdırdı.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Seçkilər İnformasiya Mərkəzi bələdiyyə seçkiləri ilə əlaqədar səsvermənin gedişinə dair növbəti statistik məlumatları saat 12:00-da açıqladı. Fərid Orucov həmin saata olan məlumata əsasən, seçicilərin 17,11 faizinin (1 milyon 20 min 231 nəfər) səs verdiyini bildirdi.

Bələdiyyə seçkiləri ilə əlaqədar səsvermənin gedişinə dair saat 15:00-a olan statistik məlumatları açıqlayarkən Mərkəzi Seçki Komissiyası Katibliyinin Seçkilər İnformasiya Mərkəzinin müdiri Fərid Orucov seçicilərin 24,71 faizinin (1 milyon 473 min 5 nəfər) səs verdiyini qeyd etdi.

Saat 17:00-da Mərkəzi Seçki Komissiyası Katibliyinin Seçkilər İnformasiya Mərkəzinin müdiri Fərid Orucov bələdiyyə seçkilərində seçicilərin 28,77 faizinin (1 milyon 715 min 291 nəfər) səs verdiyini açıqladı.

Azərbaycandakı bütün seçki məntəqələrində bələdiyyə seçkiləri ilə əlaqədar səsvermə saat 19:00-da başa çatdı.

***Zöhrə FƏRƏCOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

### *Bahar MURADOVA:*

## "Seçicilərin tam sərbəst qaydada səsvermədə iştirak etməsi faktdır"

**"Azərbaycanda növbəti dəfə keçirilən bələdiyyə seçkiləri normal şəraitdə baş tutub. Azərbaycanda keçirilən seçkilər artıq təkmilləşib və vətəndaşlar sərbəst şəkildə seçki hüququndan istifadə edərək istədikləri namizədə səs veriblər".**



AZƏRTAC xəbər verir ki, bu sözləri 23 saylı Nəsimi-Səbail Seçki Dairəsinin 3 saylı seçki məntəqəsində səsvermədə iştirak edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib. O bildirib ki, bələdiyyə seçkilərinin beynəlxalq standartlara uyğun formada keçirilməsi onu deməyə əsas verir ki, səsvermə prosesinə hazırlıq işləri yüksək səviyyədə təşkil olunub.

"Namizədlərin təbliğat və təşviqat kampaniyası üçün bütün imkanlar yaradılıb. Onlar ödənişli və ödənişsiz efir vaxtından istifadə edərək öz proqramlarını seçicilərin diqqətinə çatdırıblar. Seçkilərin təşkili, qanuna müvafiqliyi, vətəndaşların azad və sərbəst şəkildə iradələrini ifadə etməsi artıq müzakirə mövzusu deyil. Seçicilərin tam sərbəst qaydada səsvermədə iştirak etməsi faktdır. Təcrübə göstərir ki, həm seçicilər, həm namizədlər həm də seçki prosesini hazırlayanlar heç bir maneə və problemlə qarşılaşmayıblar. Bu prosesləri diqqətlə izlədiyim üçün seçkilərə hazırlıq prosesində ciddi bir nöqsan müşahidə etməmişəm. Hesab edirəm ki, seçki prosesi normal və qanunlara uyğun davam edir", - deyə Bahar Muradova vurğulayıb.

## Mətbuat Şurasının "qaynar xətt"inə heç bir zəng daxil olmayıb

**Dünən saat 19.00-dək bələdiyyə seçkiləri ilə bağlı Mətbuat Şurasının "qaynar xətt" rejimində fəaliyyət göstərən mobil və şəhər telefon nömrələrinə prosesi işıqlandıran jurnalistlər tərəfindən heç bir zəng daxil olmayıb.**

Bu barədə Mətbuat Şurasından məlumat verilib. Bildirilib ki, bununla da şuranın "qaynar xətt"i işini yekunlaşdırıb.

Qeyd edək ki, şuranın (012) 441 35 96 şəhər, (050) 242 09 91 və (055) 789 85 03 mobil nömrələri səsvermə başlayan andan bitənədək "qaynar xətt" rejimində işləyib.

Jurnalistlər qeyd edilmiş nömrələrlə əlaqə saxlayaraq prosesin işıqlandırılması zamanı mümkün anlaşılmazlıqlar və problemlər barədə məlumat vermək imkanına malik olublar.

***"Azərbaycan"***

## Ombudsman seçki günü aparılmış müşahidələrə dair açıqlama yayıb

**İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva yanvarın 29-da Azərbaycanda keçirilmiş bələdiyyə seçkilərində aparılmış müşahidələr barədə mediaya açıqlama verib.**



Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Səbinə Əliyeva seçkilər zamanı müşahidələrin bütün ölkə üzrə yaradılmış seçki məntəqələrində aparıldığını, təşkil olunmuş məntəqələrdə vətəndaşların seçki hüquqlarının həyata keçirilməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş lazımi şəraitin yaradıldığının müşahidə edildiyini bildirib.

Müvəkkil açıqlamada əvvəlki illərdəki müsbət təcrübə nəzərə alınaraq, Ombudsman təsisatının və Naxçıvan Muxtar Respublikasının Ombudsman Aparatının ümumilikdə 72 nəfər əməkdaşının bələdiyyə seçkilərində müşahidəçi qismində respublika üzrə 101 seçki dairəsinin 708 seçki məntəqəsində - Bakıda və ölkəmizin digər 37 şəhər-rayonunda, həmçinin muxtar respublikada müstəqil olaraq, özlərinin təşəbbüsləri ilə müşahidələr apardıqlarını deyib.

Müşahidələr həmçinin Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində və 16 penitensiar müəssisədə təşkil olunmuş seçki məntəqələrində də həyata keçirilib.

Eyni zamanda müşahidələr zamanı ombudsmanın məntəqə seçki komissiyalarının üzvləri, müşahidəçilər və seçicilərlə bilavasitə görüşdüyü, səsvermə prosesi ilə bağlı onların rəylərini öyrəndiyi qeyd edilib. Hüquq pozuntusu halları və hər hansı bir dövlət qurumunun, o cümlədən icra hakimiyyəti orqanının nümayəndələri, polis əməkdaşları tərəfindən müdaxilənin müşahidə olunmadığı da diqqətə çatdırılıb.

Açıqlamada seçki günü seçki hüquqlarının pozulması ilə bağlı ombudsmanın ünvanına hər hansı bir şikayət və müraciətin daxil olmadığı, müşahidələrin nəticəsi kimi bələdiyyə seçkilərinin əhalinin yüksək fəallığı şəraitində, demokratik, azad, şəffaf, ədalətli, seçki qanunvericiliyi və beynəlxalq standartlarla müəyyən edilmiş qaydada, nizam-intizamla keçirildiyi bildirilib.

Seçkilər ərəfəsində həyata keçirilmiş fəaliyyət barədə də məlumat verən müvəkkil seçkilərin təyin olunması haqqında qərarın rəsmi elan edildiyi gündən başlayaraq, yerlərdə seçki təbliğatının aparılması üçün müəyyənləşdirilən açıq və qapalı yerlərdə müşahidələrin aparıldığını, vətəndaşların seçki hüququnun təmini, seçki qanunvericiliyinin tələblərinin icrası vəziyyətinin dəyərləndirildiyini vurğulayıb.

Açıqlamanın yekununda bələdiyyə seçkilərində vətəndaşların təməl hüququ olan seçki hüququnun qanunvericiliyə müvafiq şəkildə təmin edildiyi diqqətə çatdırılıb.

## Məhkum və həbs edilmiş şəxslər səsvermə hüququndan istifadə etdilər






**Azərbaycanda keçirilən növbəti bələdiyyə seçkiləri ilə əlaqədar Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin müəssisələrində saxlanılan məhkumlar və həbs edilmiş şəxslər, həmçinin Mühafizə alayında müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçular hər bir Azərbaycan vətəndaşı kimi seçki hüquqlarından istifadə ediblər.**



Penitensiar xidmətin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu məqsədlə bütün digər seçki məntəqələrində olduğu kimi, qurumun tabe qurumlarında da əlverişli seçki mühiti yaradılıb, məntəqələr zəruri avadanlıq və texniki vasitələrlə təchiz olunub.

Məhkum və həbs edilmiş şəxslər penitensiar müəssisələrdə 13 dairəni əhatə edən 26 seçki məntəqəsində azad və sərbəst şəkildə səs veriblər.

Səsvermə prosesi müşahidəçilər tərəfindən izlənilib.

## Naxçıvanda məhkumlar namizədlərə səs verdilər



**Dünən Azərbaycanda bələdiyyə seçkiləri keçirilib. Seçkilərdə məhkum olan vətəndaşların da iştirakı təmin edilib.**

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində Babək-Şahbuz-Kəngərli 3 saylı Seçki Dairəsinin 3-60 saylı seçki məntəqəsində məhkumların səs verməsi üçün şərait yaradılıb. Cəza çəkən şəxslər sərbəst şəkildə səsvermə hüququndan istifadə ediblər.





# Prezident Ərdoğan Türkiyə-Azərbaycan-Özbəkistan üçtərəfli görüşünün iştirakçılarını qəbul edib

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yanvarın 29-da Azərbaycan, Türkiyə və Özbəkistanın xarici işlər, ticarət və nəqliyyat nazirlərinin üçtərəfli görüşünün iştirakçılarını qəbul edib.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan tərəfindən xarici işlər naziri Ceyhun Bayramov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və ölkəmizin Ankaradakı səfiri Rəşad Məmmədov, Özbəkistan tərəfindən xarici işlər naziri Baxtiyor Saidov, investisiya, sənaye və ticarət naziri Ləziz Kudratov və nəqliyyat naziri İlhom Maxkamov iştirak ediblər.

Türkiyə tərəfindən isə görüşə xarici işlər naziri Hakan Fidan, ticarət naziri Ömer Bolat, nəqliyyat və infrastruktur naziri Abdülkadir Uraloğlu və Prezidentin Xarici Siyasət və Təhlükəsizlik məsələləri üzrə baş müşaviri Akif Çağatay Kılıç qatılıb.

# *Ceyhun BAYRAMOV:* "Azərbaycan regionda sülhün bərqərar olması üçün konstruktiv addımları davam etdirəcək"

**"Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası geniş coğrafi məkanda iqtisadi əməkdaşlıq imkanları açdı. Bu gün Şərqlə Qərb arasında Orta dəhlizin işğaldan azad edilmiş Azərbaycan torpaqlarından keçən yeni arteriyasının formalaşdırılması istiqamətində addımlar atılır. Bu marşrutun böyük potensialı var".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Ankarada Türkiyə, Azərbaycan və Özbəkistanın xarici işlər, ticarət və nəqliyyat nazirlərinin üçtərəfli görüşünün yekunlarına dair birgə mətbuat konfransında ifadə edib.

Azərbaycan diplomatiyasının rəhbəri ölkəmizə qarşı ərazi iddialarının yer aldığı Ermənistan Konstitusiyasına diqqət çəkib. "Ermənistanın hazırkı Konstitusiyasının və bir sıra digər normativ aktların qəbuledilməz maddələri, habelə revanşizm çağırışları sülh yolunda maneə olaraq qalır. Azərbaycan bundan sonra da bu istiqamətdə konstruktiv addımlar atacaq", - deyə Bayramov bildirib.

Xarici işlər naziri Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa işləri barədə görüş iştirakçılarına məlumat verib, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafına verdiyi töhfələrə görə Türkiyə və Özbəkistana minnətdarlığını bildirib.

Türkiyə və Özbəkistanla əlaqələrə toxunan Azərbaycan XİN-in rəhbəri hər iki ölkə ilə əlaqələrin strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyini vurğulayıb. "Ölkələrimiz iqtisadiyyat, ticarət, investisiya, nəqliyyat sahələrində əməkdaşlıq istiqamətində ciddi addımlar atıb. Yeni, o cümlədən üçtərəfli əsasda layihələr müzakirə olunur", - deyə o bildirib.

C.Bayramov bərpaolunan enerji mənbələri sahəsini Türkiyə və Özbəkistanla əməkdaşlığın potensial əhəmiyyətli istiqamətlərdən biri kimi qeyd edib.

Nazir üç ölkənin ərazisindən keçən marşrutların tranzit və logistika potensialına da diqqət çəkib. "Bizim Orta dəhliz mövzusunu, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolunun (ildə 1 milyon tondan 5 milyon tona qədər) və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının (5 milyon tondan 25 milyon tonadək) ötürücülük qabiliyyətinin genişləndirilməsini müzakirə etmək imkanımız oldu. Ümumiyyətlə, Xəzər regionu yükdaşıma baxımından böyük potensiala malikdir", - deyə C.Bayramov bildirib.

Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbəri üç türk ölkəsi arasında əməkdaşlığın mühüm istiqamətləri sırasında yer alan ətraf mühitin mühafizəsi istiqamətində atılan addımları da qeyd edib. O, bununla əlaqədar olaraq sammitin yekunlarına səmərəli təsir göstərən COP29 iqlim konfransının keçirilməsinə verdiyi töhfəyə və fəal iştirakına görə Ankara və Daşkəndə təşəkkürünü bildirib.

C.Bayramov daha sonra məlumat verib ki, üç qardaş ölkənin nazirləri beynəlxalq müstəvidə, o cümlədən Türk Dövlətləri Təşkilatı (TDT), BMT, İƏT, ATƏT, D-8 və digər formatlarda əməkdaşlıq mövzusunu da müzakirə ediblər. Bununla yanaşı, "2024-cü ildə birləşmiş ərazi icması və cari ilin planları" mövzusunda aparılan işlərin nəticələrinə baxılıb.

Regional məsələlər kontekstində Əfqanıstandakı vəziyyət müzakirə edilib, bu ölkəyə humanitar yardımın çatdırılmasının və Trans-Əfqan dəmir yolu layihəsinin həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Bundan əlavə, Qəzza zolağında atəşkəs razılaşmasına hörmət edilməsinin vacibliyi qeyd olunub. "Azərbaycan İsrail və Fələstin arasında "iki xalq üçün iki dövlət" prinsipinə əsaslanan sülh ideyasını dəstəkləyir. Rəsmi Bakı bu istiqamətdə diplomatik səylərini davam etdirəcək", - deyə C.Bayramov əmin edib.

O, daha sonra Türkiyənin Suriyadakı proseslərdə müsbət rol oynadığını vurğulayıb. Nazir əlavə edib: "Sabitliyi və Suriyanın bərpasını təmin etmək istiqamətində addımlar atmaq lazımdır".

Azərbaycan diplomatiyasının rəhbəri çıxışında Bolu vilayətindəki dağ-xizək kurortunda baş vermiş faciə ilə əlaqədar Türkiyə rəhbərliyinə və xalqına başsağlığı verib.

# Azərbaycanla Özbəkistan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edilməsi üzrə Tədbirlərin Kompleks Proqramı təsdiqlənib

**Yanvarın 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan-Türkiyə-Özbəkistan xarici işlər, iqtisadiyyat/ticarət və nəqliyyat nazirlərinin 2-ci üçtərəfli görüşü çərçivəsində Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan-Özbəkistan müttəfiqliyindən irəli gələn məsələlər, ikitərəfli, həmçinin çoxtərəfli əməkdaşlığın genişləndirilməsi imkanları, habelə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Ötən ilin iki ölkə arasında müttəfiqlik münasibətlərini təsbit edən müqavilənin imzalanması ilə əlamətdar olduğu, diplomatik münasibətlərimizin 30 illiyini qeyd etdiyimiz cari 2025-ci ilin isə müttəfiqliyimizin siyasi, iqtisadi, ticarət, enerji, nəqliyyat-kommunikasiyalar, mədəni-humanitar aspektlərinin daha da zənginləşdirilməsi ilə yadda qalacağına dair ümidvarlıq ifadə olunub.

Azərbaycan ilə Özbəkistan arasında qardaşlıq və dostluğa əsaslanan müttəfiqliyin inkişafında iki ölkənin liderləri arasında mövcud yüksəksəviyyəli dialoqun, Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şurasının, Hökumətlərarası Komissiyanın, siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə və s. habelə digər çoxtərəfli formatlar çərçivəsində əməkdaşlığın, qarşılıqlı dəstəyin daha da gücləndirilməsinin vacibliyi vurğulanıb.

Ötən il ölkəmizdə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji"nin inkişafı, ötürülməsi sahəsində imzalanmış strateji tərəfdaşlıq sazişinin regional enerji, nəqliyyat və kommunikasiyaların inkişafı istiqamətində atılan əhəmiyyətli addımlardan biri olduğu qeyd edilib.

Nazir Ceyhun Bayramov həmçinin həmkarını postmünaqişə dövründə bölgədə bərpa, yenidənqurma, minatəmizləmə, o cümlədən sülh səyləri barədə ətraflı məlumatlandırıb. Azərbaycan-Ermənistan sülh prosesinin irəlilədilməsinin qarşısında duran maneələrin, o cümlədən Ermənistan konstitusiyasında ölkəmizə qarşı davam etdirilən ərazi iddiaları, bu ölkənin sürətli silahlandırılmasının normallaşma gündəliyinə hədə törətdiyi diqqətə çatdırılıb.

Görüş zamanı eyni zamanda qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edilməsi üzrə Tədbirlərin Kompleks Proqramı" imzalanaraq təsdiqlənib.

# Ankarada keçirilən Azərbaycan-Türkiyə-Özbəkistan üçtərəfli nazirlər görüşündə bəyannamə imzalanıb

**Yanvarın 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin Ankara şəhərinə işgüzar səfəri çərçivəsində Azərbaycan-Türkiyə-Özbəkistan xarici işlər, iqtisadiyyat/ticarət və nəqliyyat nazirlərinin 2-ci üçtərəfli görüşündə iştirak və çıxış edib.**






Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə həmçinin Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev iştirak ediblər. Nazirlər gündəlikdə duran mövzular, o cümlədən xarici siyasət və regional əməkdaşlıq məsələləri, ticarət, iqtisadiyyat və investisiya sahəsində əməkdaşlığın artırılması, regional nəqliyyat şəbəkələrini inkişaf etdirməklə nəqliyyat və kommunikasiya sektorunda əməkdaşlığın gücləndirilməsi mövzuları üzrə çıxışlar səsləndiriblər.

Ceyhun Bayramov çıxışında ölkələrimiz arasında mövcud üçtərəfli formatın qorunub saxlanılması və inkişaf etdirilməsinin hazırkı parçalanmaqda olan beynəlxalq münasibətlər sistemində nümunəvi xarakter daşıması ilə yanaşı, o cümlədən digər regional əməkdaşlıq formatlarını tamamlamaq, əməkdaşlıq potensialından istifadəni maksimallaşdırmaq, ortaq təhdidlərə qarşı birgə cavab tədbirlərinin görülməsi baxımından əhəmiyyətini qeyd edib.

Ölkələrimizin yerləşdikləri Xəzər, Qara və Aralıq dənizləri regionlarını birləşdirən bir sıra strateji əhəmiyyətli layihələrin, o cümlədən "Rəqəmsal İpək Yolu" və "yaşıl enerji ixracı" kimi təşəbbüslərin üçtərəfli əməkdaşlığımızın əhəmiyyətini artırdığı qeyd olunub.

Azərbaycan-Türkiyə-Özbəkistan arasında bir sıra regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (D-8), Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində əməkdaşlığın, qarşılıqlı dəstək və ortaq mövqedən çıxış edilməsi təcrübəsinin davam etdirilməsinin zəruriliyi diqqətə çatdırılıb.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyimiz zamanı fəaliyyətimizə, habelə irəli sürülən regional və qlobal təşəbbüslərə verilən dəstəyə görə təşəkkür edilib.

Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) sədrliyimizin də gündəliyinə uyğun olan bağlantılar, rəqəmsallaşma, dayanıqlı inkişaf, nəqliyyat, təhsil sahələri üzrə prioritetlərin irəlilədilməsinin, o cümlədən üçtərəfli əməkdaşlıq gündəliyimiz ilə üst-üstə düşdüyü qeyd olunub.

C.Bayramov həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə səyləri, Azərbaycan-Ermənistan normallaşma prosesinin gedişatı, mövcud çağırışlar barədə ətraflı məlumat verib. Keçmiş işğal nəticəsində 30 ilə yaxın müddət ərzində digər ərazilərimizdən təcrid olunmuş torpaqlarımızda nəqliyyat-infrastruktur quruculuğunun, xüsusilə Orta dəhliz boyunca nəqliyyat imkanlarının genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb, yenidənqurma işlərində qardaş Türkiyə və Özbəkistanın göstərdiyi dəstək təqdir olunub.

Geniş anlamda regional sülh, təhlükəsizlik və inkişafın təmininin ortaq baxışımızın əsasını təşkil etdiyi, bu istiqamətdə Əfqanıstana yönələn sosial-iqtisadi dəstək təşəbbüslərinin, Trans-Əfqanıstan Dəmir Yol Xətti layihəsinin inkişafının diqqət mərkəzində olduğu qeyd edilib. Yaxın Şərqdə, xüsusilə Qəzza bölgəsində əldə olunan atəşkəsin və ona riayət olunmasının əhəmiyyəti, İsrail-Fələstin münaqişəsinin beynəlxalq hüququn normalarına uyğun şəkildə "iki dövlət prinsipi" əsasında həllini tapmasının vacibliyi diqqətə çatdırılıb. O cümlədən Suriyada Əsəd rejiminin çöküşündən sonra bu ölkənin dirçəldilməsi səylərinə qardaş Türkiyə ilə birgə dəstək verilməsinin regional əməkdaşlığımızın daha bir komponentinə çevrildiyi qeyd olunub.

Daha sonra görüşün yekunlarına dair Ankara Bəyannaməsi qəbul olunub və imzalanıb.

Bəyannamədə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərlə bağlı əməkdaşlığın inkişaf etdirilməsi, habelə suverenlik və ərazi bütövlüyü əleyhinə atılan addımlara qarşı birgə fəaliyyətə dəstək ifadə olunub.

İqtisadiyyat, ticarət, investisiyalar, logistika, infrastruktur, rəqəmsallaşma, ətraf mühit və iqlim dəyişikliyi ilə mübarizə istiqamətləri üzrə mövcud potensialdan tam istifadə olunması, bu istiqamətdə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın, xüsusilə Orta dəhlizin səmərəliliyi və rəqabətə davamlılığının artırılmasının vacibliyi qeyd olunub.

Bəyannamədə həmçinin Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi bölgələrində yenidənqurma və humanitar minatəmizləmə fəaliyyətinə töhfə verilməsinin əhəmiyyəti vurğulanıb.

Ankara Bəyannaməsi eyni zamanda Azərbaycanın COP29 və AQEM sədrlikləri çərçivəsində oynadığı rolu təqdir edib.

Mərkəzi Asiyanın təhlükəsizliyində vacib rol oynayan Əfqanıstanın təhlükəsizliyi və inkişafı ilə bağlı Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq mövqenin formalaşdırılmasının, Qəzza bölgəsində əldə olunmuş atəşkəsin qorunub saxlanılmasının və İsrail-Fələstin münaqişəsinin "iki dövlət prinsipi" əsasında həllini tapmasının vacibliyi qeyd olunub.

Daha sonra nazirlər görüşün yekunlarına dair mətbuata bəyanatlarla çıxış ediblər.

# *Türkiyə XİN rəhbəri:* "Azərbaycan və Özbəkistan ilə münasibətimiz ən yüksək səviyyədədir"

**"Türkiyənin Azərbaycan və Özbəkistan ilə münasibətləri ən yüksək səviyyədədir. Əməkdaşlıq çərçivəsində nəqliyyat və logistika sahələrində əlaqələrin genişləndirilməsi üzrə atılan addımlar xüsusi önəm daşıyır. Bu, 2040-cı ilədək Türk Dövlətləri Təşkilatının (TDT) əsas hədəflərindən biridir".**




AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin xarici işlər naziri Hakan Fidan Ankarada Türkiyə, Azərbaycan və Özbəkistanın xarici işlər, ticarət və nəqliyyat nazirlərinin üçtərəfli görüşünün nəticələrinə dair keçirilmiş birgə mətbuat konfransında söyləyib.

O deyib ki, üçtərəfli görüşün iştirakçıları Orta dəhlizin infrastruktur bazasının möhkəmləndirilməsi üzrə atılan addımları müzakirə ediblər.

H.Fidan qeyd edib ki, hazırda qlobal ticarətin ən böyük payı Avropa və Asiya ölkələrinə düşür. "Türkiyə, Azərbaycan və Özbəkistan vacib nəqliyyat yollarının üzərində yerləşib. Koronavirus pandemiyasının nəticələri və Ukraynada gedən müharibə fonunda Orta dəhlizin əhəmiyyəti artır. Məhz bu marşrut Avropa ilə Asiya arasında ən təhlükəsiz və iqtisadi baxımdan sərfəli daşınma yoludur. Bu səbəbdən Mərkəzi Asiya, Xəzər dənizi, Cənubi Qafqaz və Türkiyədən keçən nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə birgə addımların atılması zəruridir", - deyə Türkiyənin XİN rəhbəri vurğulayıb.

Daha sonra o, üç türk dövlətinin gömrük sahəsində normativ bazasının yaxınlaşdırılması üzrə fikir mübadiləsinin aparılması, rəqəmsal xidmətlərin tətbiqi, həmçinin ticarətdə maneələrin mərhələli şəkildə aradan qaldırılması ilə bağlı təkliflərin müzakirə edilməsi barədə məlumat verib. Nazir diqqətə çatdırıb ki, bu mövzuların texniki səviyyədə müzakirəsi davam etdiriləcək.

Türk dövlətlərinin əməkdaşlığı məsələsinə toxunan Hakan Fidan bildirib ki, cari ildə Türk Dövlətləri Təşkilatının iki mühüm sammitinin keçirilməsi planlaşdırılıb. Bunlardan biri türk dövlətləri liderlərinin Macarıstanda keçiriləcək qeyri-formal görüşü, digəri isə TDT-nin Azərbaycanda keçiriləcək 12-ci sammitidir.

Türkiyə XİN rəhbəri regional məsələlərə də toxunub. O, Əfqanıstanın təcrid olunmasının yolverilməzliyinin vacibliyini vurğulayıb, Fələstin-İsrail münaqişəsinin 1967-ci il sərhədləri daxilində, paytaxtı Şərqi Qüds olan müstəqil Fələstin dövlətinin yaradılması yolu ilə həllinə çağırış edib.

Suriyadakı vəziyyətə toxunan Hakan Fidan dünya ictimaiyyətini üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə çağırıb. Deyib ki, Ankara qardaş Suriya xalqını dəstəkləməyə davam edəcək.

Nazir sonda bildirib ki, Türkiyə-Azərbaycan-Özbəkistan formatında üçtərəfli növbəti görüş Azərbaycanda keçiriləcək.

# Son 20 ildə Azərbaycanın nəqliyyat infrastrukturu kökündən dəyişib

## Ölkəmizin sürətli inkişafı bu işin davamını tələb edir



**Son 20 il ərzində Azərbaycanda 21 min kilometr avtomobil yolu tikilib və təmir edilib. Bir ilə min kilometrdən də çox yeni yol düşür! Bu, ölkədə nəqliyyatla bağlı görülmüş işlərin miqyasını göstərən rəqəmlərdən tək biridir. Həmin dövrdə Azərbaycanda, üstəlik, 335 körpü və yol ötürücüsü, 45 tunel, 163 yerüstü və yeraltı keçid də tikilib.**

Paytaxtımızda isə son 15 il ərzində yeni metro stansiyaları istifadəyə verilib, yol qovşaqları, tunellər, körpülər inşa edilib, yeni yollar salınıb. Bir sözlə, böyük layihələr icra edilib. Prezident İlham Əliyevin bu il yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə dediyi kimi: "Baxmayaraq ki, son illər ərzində bu istiqamətdə bir çox işlər görülmüşdür, böyük infrastruktur layihələri icra edilmişdir, yenə də Bakı şəhərində tıxac müşahidə olunur və əfsuslar olsun ki, tıxacların sayı ildən-ilə artır. Bunun təbii səbəbləri var. Ölkəmizin, o cümlədən Bakı şəhərinin əhalisi ildən-ilə artır. Son 30 il ərzində Azərbaycan əhalisi 7 milyondan 10 milyona çatıb, hətta o rəqəmi də ötüb. Əlbəttə ki, vaxtilə yaradılmış şəhər yol infrastrukturu, o cümlədən metro imkanları bu artımı həzm edə bilmir".

Dövlətimizin başçısı nəqliyyat infrastrukturunun inkişafının müzakirə olunmasına ehtiyacın da məhz bundan qaynaqlandığını qeyd edib. Həm də müzakirə zamanı ölkə nəqliyyatının bütün sahələrində əldə edilən nailiyyətlərdən söhbət gedib və qarşıda dayanan məsələlərdən bəhs olunub.

İndi artıq bütün şəhərlərimiz bir-birinə ən yeni yollarla bağlanıb. Bütün sərhədlərimiz müasir avtomagistrallarla birləşdirilib. Kənd yollarının təmiri və salınması dərəcəsi təqribən 85-90 faizə çatıb və hər il bu məqsədlər üçün vəsait ayrılır.

2008-ci ildən bəri metronun yeddi yeni stansiyası tikilib və qəbul ediləcək dövlət proqramında 10 yeni metro stansiyasının inşası nəzərdə tutulur. 266 yeni nəsil metro vaqonu alınıb və bu proses davam etdirilir. Ölkəyə yüzlərlə yeni sərnişin avtobusu gətirilib və bu ilin sonunda elektrobusların yığımı, ondan sonra lokalizasiyanın artımı işləri də başlanacaq.

Ölkəmizin coğrafi vəziyyəti elədir ki, ərazimizdən beynəlxalq nəqliyyat dəhlizləri keçir. Daha doğrusu, bu coğrafi vəziyyətdən səmərəli şəkildə istifadə edə bilmişik. Ona görə də bu gün Avrasiyanın nəqliyyat xəritəsini Azərbaycansız təsəvvür etmək mümkün deyil. Belə ki, hazırda ərazimizdən "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri keçir və bu dəhlizlər üzrə daşınan yüklərin həcmi ildən-ilə artır. Dövlətimizin başçısı müşavirədə bu məsələdən bəhs edərkən dünya okeanlarına çıxışımızın yoxluğuna baxmayaraq, görülən işlər nəticəsində Azərbaycanın əvəzolunmaz nəqliyyat mərkəzlərinin birinə çevrildiyini bildirib:" İşlər davam edir, həm "Şimal-Cənub", həm "Şərq-Qərb" nəqliyyat dəhlizləri üzrə indi əlavə tədbirlər görülür. Çünki vaxtilə hesablanmış yüklərin həcmi artıq onu göstərir ki, daha böyük həcmdə yüklər keçəcək. Bu, müxtəlif səbəblərə bağlı olan məsələdir. Ancaq fakt odur ki, biz indi bu dəhlizlərin aşırma qabiliyyətini artırmaq üçün əlavə sərmayə cəlb etmişik və edəcəyik".

Nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə yeni layihələr sırasında Zəngəzur dəhlizi xüsusi qeyd edilib. Məlumdur ki, bu layihə Azərbaycan tərəfindən irəli sürülüb. Yəni Vətən müharibəsindəki qələbəmizdən sonra Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir. Biz bu dəhlizin açılması üçün praktiki addımlar atırıq. Ermənistan tərəfi isə dörd ildən çoxdur məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sərgiləyir. Dırnaqarası "Sülh kəsişməsi" layihəsini ortalığa atıb və dünyada bir ölkə qalmayıb ki, bu layihə təqdim edilməsin. Prezident İlham Əliyev bu barədə belə deyib: "Onların dırnaqarası layihəsi Azərbaycansız tamamilə əhəmiyyətsizdir. Sadəcə olaraq, vaxt uzatmaqla məşğuldurlar, beynəlxalq ictimaiyyəti çaşdırmaqla məşğuldurlar. Yenə də Azərbaycana qarşı müxtəlif dairələrdə çirkin kampaniyaların aparılmasına rəvac veriblər. Bunun nəticəsində faktiki olaraq bu günə qədər Azərbaycanın ayrılmaz hissəsi - Naxçıvan Muxtar Respublikası ilə bizim ən qısa və ən rahat bağlantımız yoxdur. Düzdür, Naxçıvan Muxtar Respublikasının lazım olan ehtiyaclarını biz müxtəlif yollarla təmin edirik... Bununla belə, biz görəndə ki, Ermənistan tərəfi yenə də özünü qeyri-səmimi aparır, İran İslam Respublikası ilə müvafiq razılaşma əldə edilmişdir və Ermənistanı baypas edən avtomobil körpüsünün tikintisi də, artıq bu layihə də icra edilir və yəqin ki, bu il tamamlanacaq."

İkinci körpü də salınacaq. Bu, artıq Naxçıvan Muxtar Respublikasında olacaq. Birinci körpü Zəngilan rayonu ərazisində inşa edilir. Beləliklə, Ermənistan bundan sonra da dalan ölkə kimi qalmaqda davam edəcək və tranzit ölkəyə çevrilmək arzusuna da çatmayacaq.

Ölkəmizin polad magistralları ilə bağlı görülən işlər də təqdirəlayiqdir və təbii ki, sözügedən müşavirədə bu məsələ də diqqət mərkəzində olub. 1500 kilometrdən çox dəmir yolunun tikildiyi, 1800 kilometrin isə təmir edildiyi, yeni qatarların və vaqonların alındığı bildirilib. Eləcə də 90 kilometrdən çox olan Abşeron dairəvi xətti istifadəyə verilib. Bakı-Tbilisi-Qars dəmir yolu inşa edilib. Məlumdur ki, bu, Azərbaycan dövlətinin təşəbbüsü ilə icra edilmiş layihədir. Bu layihəyə güclü müqavimət göstərənlər vardı. Xüsusilə Amerika Birləşmiş Ştatları buna etiraz edirdi. Lakin zaman bu dəfə də göstərdi ki, biz haqlıyıq. Belə ki, indi Amerikanın Avropadakı müttəfiqləri Bakı-Tbilisi-Qars dəmir yoluna böyük maraq göstərirlər. Ümumiyyətlə, Azərbaycan ərazisindən keçən yüklərin Mərkəzi Asiyadan Avropaya və əks istiqamətə daşınmasına maraq böyükdür.

Mövcud yolların reabilitasiyası və müasirləşməsi, daşınma imkanlarının və qatarların sürətinin artırılması istiqamətində görülən işlər sırasında isə müşavirədə Sumqayıt-Yalama dəmir yolu qeyd edilıb. Bu yolun tikintisi artıq 80 faiz səviyyəsində təmin edilib. İndi Ələt-Astara yolu üzərində də iş gedir. Əslində, bu yol var. Amma gələcəkdə "Şimal-Cənub" dəhlizi üzrə yüklərin kəskin artacağı nəzərə alınır. Odur ki, bu yolun da genişləndirilməsi gündəlikdədir və cari ildə bunun üçün müəyyən vəsait də ayrılıb.

Eləcə də respublikanın şəhərləri arasında bağlantıları təmin etmək üçün bir neçə yeni qatar istiqaməti müəyyənləşdirilib. Məsələn, Bakı-Qəbələ marşrutu. İndiyədək bu şəhərə dəmir yolu xətti çatmırdı və o inşa olundu. Bakı-Balakən və Bakı-Ağstafa dəmir yolu fəaliyyətini bərpa edib. Bu yollar, əslində, ölkəmizi qərb sərhədi ilə, şimal-qərb sərhədi ilə və Qəbələ şəhəri ilə bağlayır. Bütün bu yollar boyu yerləşən yaşayış məntəqələrimiz də qatarların xidmətindən bəhrələnir.

20 il ərzində ölkəmizdə səkkiz beynəlxalq hava limanı inşa edilib. Doğrudur, onların dördü artıq var idi. Lakin vəziyyətlərinin qənaətbəxş olmadığı üçün Bakı, Naxçıvan, Gəncə və Lənkəran hava limanları yenidən quruldu. Dörd yeni hava limanı - Qəbələ, Zaqatala, Füzuli və Zəngilan aeroportları inşa edildi. Doqquzuncu beynəlxalq hava limanı bu il Laçında istifadəyə veriləcək. Bütün bu hava limanları istənilən ağırlıqda yük və sərnişin təyyarələrini qəbul etməyə qadirdir.

Heydər Əliyev Beynəlxalq Hava Limanı keçən il rekord sayda - yeddi milyondan çox sərnişin daşıyıb. İndi burada tikiləcək yeni terminal kompleksinin layihəsi və texniki-iqtisadi əsaslandırılması hazırlanır. Deməli, gələcəkdə sərnişinlərin sayı daha çox olacaq.

Son illər həyata keçirilən ən vacib layihələrdən biri də yeni Dəniz Ticarət Limanının inşasıdır. Şəhərdə, köhnə limanın ərazisində isə abadlıq işləri aparılacaq, istirahət zonaları, müxtəlif obyektlər inşa ediləcək. Ağ Şəhər bulvarına bitişik olan bu istiqamətdə master-plan hazırlanır.

Yeni Dəniz Ticarət Limanının birinci fazasının yükaşırma qabiliyyəti 15 milyon ton nəzərdə tutulurdu. Ancaq yüklərin artacağı şəksizdir. Odur ki, limanın imkanları 25 milyon tona çatdırılmalıdır.

Gəmiqayırma zavodumuz da son illərin yadigarıdır. Əvvəllər biz gəmiləri xaricdən alırdıq. Həyat göstərir ki, Bakıda belə bir zavodun tikilməsi nə qədər düzgün addım idi. Çünki əvvəl gəmi aldığımız mənbələrdən indi bunu etmək mümkün deyil.

Təsadüfi deyil ki, azad edilmiş ərazilərimizdə görülən işlərin əsasını da nəqliyyat layihələri təşkil edir. 44 avtomobil yolu layihəsi icra edilib, ya da icra edilməkdədir. Eyni zamanda 45 tunel, 447 körpü, 16 viaduk nəzərdə tutulub. Bunlardan 28 tunel, 392 körpü və 9 viadukun tikintisi tamamlanıb. Horadiz-Ağbənd dəmir yolunun 60 faizi , Bərdə-Ağdam dəmir yolunun 94 faizi inşa edilib.

Prezidentimiz: "Bu, sadəcə olaraq, əsas layihələrdir ki, mən ictimaiyyətin diqqətinə çatdırıram və bu rəqəmlər hər şeyi deyir, hər şeyi göstərir. Göstərir ki, hansı ölçüdə biz nəqliyyat layihələrini icra etmişik. Əgər biz bunları icra etməsəydik, bu gün həm Bakı şəhəri, həm digər şəhərlər, həm də ümumiyyətlə, ölkə şəhərləri arasındakı bağlantılar bizim nəqliyyat imkanlarımızı tamamilə iflic vəziyyətinə sala bilərdi", - dedi. Onu da dedi ki, həyat yerində durmur:" Biz indi yeni dövlət proqramı qəbul edəcəyik. Ölkə üzrə, o cümlədən azad edilmiş ərazilərdə bütün nəqliyyat layihələri bundan sonra da icra ediləcək. Hər şey plan üzrə gedir. Bu ilin investisiya proqramında da bu məqsədlər üçün lazımi vəsait ayrılıb".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

---

## bp Xəzər dənizinin Azərbaycan sektorunda Şahdəniz perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişin operatoru kimi elan edir ki, saziş üzrə iş proqramı çərçivəsində Şahdəniz Kompressiya (ŞDK) layihəsi üçün Ətraf Mühitə və Sosial-İqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədinin layihəsi podratçı tərəflər adından hazırlanıb və dərc edilib

Sənəddə layihənin tikintisi, quraşdırılması və istismarı fəaliyyətləri ilə əlaqədar ətraf mühitə və sosial-iqtisadi sahəyə ola bilən potensial təsirlər tədqiq edilir və tövsiyə edilən təsirazaltma tədbirləri təsvir edilir. ƏMSSTQ prosesi təklif edilmiş işlərin nəticəsində ətraf mühitə və sosial-iqtisadi sahəyə olan hər hansı mənfi təsirlərin müəyyənləşdirilməsini və minimuma endirilməsini və mümkün olan hallarda aradan qaldırılmasını təmin etmək məqsədi daşıyır.

ŞDK layihəsi Xəzər dənizinin Azərbaycan sektorunda Şahdəniz Müqavilə Sahəsinin işlənməsinin əvvəlki mərhələlərinin davamıdır. Bu layihə yataqdan aşağıtəzyiqli qaz ehtiyatlarının hasil edilməsini və maksimum qazvermə əmsalına nail olunmasını təmin etmək üçün dənizdə kompressor platformasının - ŞDK platformasının və əlaqədar qurğuların - quraşdırılmasından ibarətdir. ŞDK platforması Şahdəniz Bravo (ŞDB) platformasından təxminən 3 km və Şahdəniz Alfa (ŞDA) platformasından təxminən 10 km məsafədə, suyun dərinliyi təqribən 85 m olan sahədə yerləşəcək və ŞDA və ŞDB platformalarında qaz ixrac kompressiyası üçün əsas qurğunun yerləşdiyi obyekt kimi xidmət göstərəcək.

Maraqlı tərəflər ilə məsləhətləşmələrin aparılması ƏMSSTQ prosesinin mühüm komponentidir. Maraqlı tərəflərin dinlənməsi və fikirlərinin sənədləşdirilməsi əsas maraqlı tərəflərin kollektiv fikirlərinin layihə variantında və ƏMSSTQ sənədində əksini tapmasını təmin edir.

ƏMSSTQ sənədinin və Qeyri-Texniki Xülasənin layihə variantları Azərbaycan və ingilis dillərində tam hazırlanıb və aşağıdakı link və ya QR kodu vasitəsilə bp-nin veb-səhifəsindən əldə edilə bilər:

**İngilis dilində: https://www.bp.com/en_az/azerbaijan/home/news/reports/environmental-and-social-documentation/shah-deniz-/Shah-Deniz-Compression-Project.html**

**Azərbaycan dilində: https://www.bp.com/az_az/azerbaijan/home/news/hesabatlar/Etraf-muhit-ve-sosial-tesirlerin-qiymetlendirilmesi-hesabatlari/shah-deniz-/Sahdeniz-kompressiya-layihesi.html**

İctimaiyyətin nəzərdən keçirməsi üçün ŞDK üzrə ƏMSSTQ sənədi, həmçinin Qeyri-Texniki Xülasəsi 27 yanvar 2025-ci il tarixindən aşağıdakı ünvanlarda yerləşdirilib:

- bp-nin Xəzər Mərkəzi Ofisinin qəbul şöbəsi, Neftçilər prospekti, 153
- M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası, Xaqani küçəsi, 29
- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Elmi Kitabxanası, Hüseyn Cavid küçəsi, 31
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası, Azadlıq prospekti, 20
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bəhram Ağayev küçəsi, 100a
- Bakı Ali Neft Məktəbinin Kitabxanası, Kampus, yeni Salyan şosesinin 3-cü kilometri.

ƏMSSTQ sənədinin layihə variantı barədə fikir və rəyləriniz bizim üçün əhəmiyyətlidir. Qeydlərinizi və rəylərinizi:

- doldurulmuş rəy formaları ilə birlikdə elektron məktub ilə esiafeedback@bp.com ünvanına və ya
- doldurulmuş rəy formaları ilə birlikdə poçt ilə AZ1010, Neftçilər prospekti, 153, Port Baku, bp Xəzər Mərkəzinə göndərə bilərsiniz.

Siz doldurulmuş rəy formalarını yuxarıda qeyd edilən ictimai yerlərdən istənilən birində də təqdim edə bilərsiniz.

**ƏMSSTQ-in açıqlanma müddəti 60 gündür. Bu müddət 27 yanvar 2025-ci il tarixində başlayıb və 4 aprel 2025-ci il tarixində başa çatacaq.**

ƏMSSTQ sənədinin layihə variantı barədə fikir və rəylərinizi gözləyirik.

---

# Azərbaycan dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqində mühüm rol oynayır

Ölkəmizdə əsrlərin sınağından çıxmış, formalaşmış multikulturalizm və tolerantlıq ənənələri mövcuddur. Yüz illər öncə olduğu kimi, bu gün də respublikamızda dili və dini ayrı olan bütün xalqlar bir ailə kimi dostluq, mehribanlıq və sülh şəraitində yaşayırlar.

Azərbaycanda milli adət-ənənələrin qorunub saxlanılması, yaşadılması üçün bütün lazımi şərait yaradılıb. Dövlətimizin başçısı İlham Əliyevin vurğuladığı kimi, bu gün respublikamızda bütün dinlərin və etnik qrupların nümayəndələri yaşayır və ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər.

Dünyada öz nüfuzunu gündən-günə gücləndirən, əksər sahələrdə uğurlar qazanan ölkəmiz həm də multikultural mühitin təmin olunması, tolerantlıq ənənələrinin qorunması ilə tanınır. Multikulturalizm və tolerantlıq Azərbaycanın dövlət siyasətidir. Prezident İlham Əliyev çıxışlarında ölkəmizin multikultural dəyərlərini həmişə yüksək qiymətləndirir.

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanda tarixən olduğu kimi bu gün də müxtəlif dinlərin və konfessiyaların, o cümlədən yəhudi icmasının nümayəndələrinin dostluq, əmin-amanlıq və harmoniya şəraitində yaşadıqlarını yanvarın 27-də İsrail İqtisadi Forumunun həmtəsisçisi və İdarə Heyətinin üzvü Conatan Misneri qəbul edərkən də diqqətə çatdırdı. Prezident vurğuladı ki, bu, xalqımızın həyat tərzi olmaqla yanaşı, eyni zamanda Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin tərkib hissəsidir.

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın öz təcrübəsindən çıxış edərək dünya səviyyəsində də dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqində mühüm rol oynadığını, bundan sonra da öz töhfəsini verməkdə davam edəcəyini bildirdi.

Azərbaycanda tarixən yəhudi icmasının nümayəndələrinin dinc şəraitdə yaşamaları üçün yaradılmış şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirən qonaqlar ölkəmizlə bağlı xoş təəssüratlarını da ifadə etdilər.

2020-ci ildə, Vətən müharibəsində Azərbaycan Qarabağ və Şərqi Zəngəzur ərazilərini Ermənistanın işğalından azad etdi. Bu savaşda Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri işğalçılara qarşı döyüşmək üçün könüllü olaraq cəbhəyə yollandılar. Hər zaman olduğu kimi, birlik və qətiyyət nümayiş etdirdilər. Ermənistan silahlı qüvvələrinə qarşı döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi, rəşadət göstərdilər, sinələrini düşmən güllələrinə sipər etdilər. Qarabağı və Şərqi Zəngəzuru yağılardan xilas etdilər.

Vətən müharibəsindən sonra Qarabağa və Şərqi Zəngəzura yolu düşənlər gördüklərindən dəhşətə gəlirdilər. Çünki erməni vandalları dünyanın ən gözəl məkanlarından olan bu ərazilərin təbiətinə divan tutmuşdular. Nadir ağaclarla, kollarla zəngin meşələrini qırmışdılar. Azərbaycanın ölkə və dünya əhəmiyyətli abidələrini erməni vəhşiləri məhv etmiş, tarixi və müasir tikililəri uçurub dağıtmışdılar. Ermənistanın xarabalığa çevirdiyi Qarabağı və Şərqi Zəngəzuru dirçəltmək üçün yenidən qurmaq lazım idi. Bu isə uzun vaxt tələb edir. Ancaq hazırda həmin bölgələrimizdə uğurla reallaşdırılan tikinti-abadlıq, quruculuq işləri təsdiq edir ki, Azərbaycan bu çətin, müşkül işlərin də öhdəsindən gəlir.

Azərbaycan dövləti Qarabağda və Şərqi Zəngəzurda Böyük qayıdış proqramı həyata keçirir. Otuz il yağıların tapdağı altında qalmış ərazilərimiz tədricən bərpa olunur. İşğalçıların uçurduqları, külə çevirdikləri yurd yerlərimizdə yeni evlər tikilir, infrastrukturlar qurulur. Azərbaycanlılar öz doğma yurdlarına, evlərinə qayıdırlar.

İndi Qarabağa və Şərqi Zəngəzura səfər edənlər xarabalıqlar içərisində ucaldılan yeni kəndləri, qəsəbələri, rayonları, şəhərləri görəndə heyrətlərini və məmnunluqlarını dilə gətirirlər.

Sözügedən görüşdə də qonaqlar Azərbaycanın işğaldan azad olunmuş torpaqlarına səfər etdiklərini vurğuladılar. Həmin ərazilərimizdə qısa müddətdə həyata keçirilən bərpa-quruculuq işlərinin onlara böyük təəssüratlar bağışladığını bildirdilər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Ötən ilin uğurlu yekunları

# AİŞ-in missiyası həm də dayanıqlı infrastruktur yaratmaqdır

### Dövlət şirkəti Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsində fəal iştirak edir

**Xatırladaq ki, Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) ASC Prezident İlham Əliyevin sərəncamı ilə 2006-cı ildə yaradılıb. ASC-nin bütün payları dövlətə məxsusdur və məqsədi Azərbaycanın qeyri-neft sektoruna kapital sərmayələrinin qoyuluşunu təmin etməkdir.**

19 illik fəaliyyəti dövründə AİŞ iqtisadiyyatın müxtəlif sahələrinə sərmayə qoyub, əməkdaşlıq etdiyi xeyli müəssisənin fəaliyyətini sağlamlaşdırıb və onların işini daha səmərəli edib. Bu dövrdə xarici tərəfdaşlarla əməkdaşlıq AİŞ-in strategiyasının ayrılmaz hissəsinə çevrilib. Nəticədə qurumun beynəlxalq arenada etimadı güclənib.

Şirkətin fəaliyyət göstərdiyi 2020-2024-cü illər isə iqtisadiyyatın əsas sektorunun dayanıqlı inkişafına xidmət edən layihələrin həyata keçirilməsinə yönəlmiş aktiv fəaliyyət dövrü kimi yadda qalıb. Fakt: son 5 ildə vəsait qoyulan layihələrin ümumi dəyəri 1,7 milyard manata çatmışdır. Bu məbləğin 292 milyon manatı bilavasitə AİŞ tərəfindən təsdiqlənmiş investisiyadır. 476 milyon manat məbləğində birbaşa xarici investisiya cəlb edilməsi də ötən 4 ilin uğurudur.

İqtisadiyyat Nazirliyinin məlumatına görə, cəlb edilmiş sərmayələr 23 layihənin həyata keçirilməsinə, o cümlədən 19 yeni istehsal müəssisəsinin tikintisinə yönəldilib. Bu təşəbbüslər ölkənin istehsal imkanlarını gücləndirməklə yanaşı, növbəti bir neçə il ərzində 2300-ə yaxın iş yerinin yaradılmasına imkan verəcək. AİŞ-in qoyduğu hər 1 manata görə beynəlxalq və yerli sərmayədarlardan, həmçinin maliyyə institutlarından 6,5 manat cəlb olunub. Birbaşa xarici investisiyalar çərçivəsində isə bu nisbət AİŞ-in qoyduğu hər 1 manata 1,62 manat təşkil edib.

AİŞ rəqabətqabiliyyətli və əlavə dəyər yaradan, xüsusən ixrac və idxalın əvəzlənməsinə yönəlmiş layihələrdə də iştirak edir. Hazırda AİŞ-in dəstəyi ilə qida və əczaçılıq sənayesi, eləcə də tikinti materialları və geyim sahəsində strateji məhsulların fəal istehsalı həyata keçirilir. Bu, iqtisadiyyatın, biznesin və əhalinin həyati əhəmiyyət kəsb edən məhsullarla təmin edilməsinin mühüm göstəricisidir.

AİŞ həmçinin ölkə daxilində ən üstün beynəlxalq standartlara cavab verən yüksəkkeyfiyyətli tibbi ləvazimatların və dərman preparatlarının istehsalına imkan yaradan əczaçılıq layihələrinə investisiyaların ayrılmasına xüsusi diqqət yetirir. Bu tərəfdaşlığa nümunə olaraq "Diamed" şirkətlər qrupu ilə əməkdaşlıq çərçivəsində müəssisələrin istifadəyə verilməsi layihələrini qeyd etmək olar. Müəssisələrdən biri birdəfəlik şprislərin, digəri isə "Natrium xlorid", "Ringer laktat" və "Qlükoza" kimi həyati əhəmiyyət kəsb edən venadaxili infuziya məhlullarının istehsalı üzrə ixtisaslaşıb. İqtisadiyyatın strateji sahələrinin inkişafına yönəlmiş bir neçə layihənin tikintisi də yekun mərhələdədir. Onların sırasında Azərbaycanda geniş çeşiddə dərman preparatları istehsal edən zavodun tikintisi də yer alıb. Türkiyənin ən böyük dərman şirkətlərindən biri olan "GEN İlaç ve Sağlık Ürünleri A.Ş." ilə birlikdə tezliklə ölkəmizdə əhalinin sağlamlığı və rifahı üçün strateji əhəmiyyət kəsb edən ampullar və həblər daxil olmaqla 70 adda dərman preparatı istehsal ediləcək.




AİŞ regionlarda fəaliyyət göstərən şirkətlərin öz layihələrini həyata keçirmələri üçün gərəkli yardımlar da edir. Bu sırada Balakən, Ağdam, Yevlax, Qəbələ və İmişli rayonlarının adını çəkmək olar. Məsələn, Balakəndə "Balkhoorma" və "Balacans Agro Food" zavodlarında quru meyvələr istehsal edilir. AİŞ-in iqtisadi inkişafa təkan verən layihələri yerli istehsalçıların karına gəlir. İstehsal edilən məhsullar isə regionun, o cümlədən bütünlükdə ölkənin ixrac potensialının artırılmasına kömək edir. Əsas layihələr arasında Ağdam rayonunun Şahbulaq kəndində daş karxanasını, eləcə də Xocalıda bərpa edilmiş sement zavodunu qeyd etmək olar. Bu zavodlarda istehsal edilən sement və tikinti daşı işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa işlərində istifadə edilir. Şirkət həmçinin Ağdam Sənaye Parkında müxtəlif sənaye sahələrində çalışan işçilər üçün maksimum təhlükəsizlik və rahatlığı təmin edən işçi ayaqqabıları istehsal edən "Bafco" fabrikinə də sərmayə qoyub.

Ən böyük və əhəmiyyətli işlərdən biri kimi Macarıstanın "HELL Energy" şirkəti ilə birlikdə həyata keçirilən Quality Pack Caspian layihəsini göstərmək mümkündür. Quality Pack Caspian Cənubi Qafqazda alüminium içki qutuları istehsal edən ilk müəssisə olacaq. Zavod Ələt Azad İqtisadi Zonasında yerləşəcək və illik istehsal gücü 700 milyon ədəd alüminium qutu təşkil edəcək. Bu layihə yerli bazarın tələbatını tam ödəməklə ixrac potensialının inkişafına da imkan yaradacaq. Qurumun icraçı direktoru Ülvi Mansurov çıxışlarının birində demişdir: "Bizim missiyamız təkcə kapital cəlb etmək deyil, həm də gələcək nəsillərə xidmət edəcək dayanıqlı infrastruktur yaratmaqdır. Layihələrimiz Azərbaycanın perspektiv investisiyalar üçün regional mərkəzə çevrilməyə hazır olduğunu bir daha sübut edir". Şirkətin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərinə dəstək çərçivəsində 44,8 milyon manat sərmayə qoyması direktorun sözlərini təsdiqləyir.

AİŞ-in davamlı inkişafa sadiqliyini əks etdirən daha bir uğur Türkiyə şirkətlərinin Qarabağ və Şərqi Zəngəzurdakı fəaliyyətinə verdiyi dəstəkdir. "Demirören Holding" regionda 5 kiçik su-elektrik stansiyasının bərpası layihəsini həyata keçirir. AİŞ-in "yaşıl enerji" zonası elan edilmiş Cəbrayıl rayonunda 240 MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyasının tikintisi layihəsində iştirakı etməsi enerji infrastrukturunun inkişafı üçün atılan mühüm addımdır.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən ekoloji təşəbbüslərdən əlavə, AİŞ ölkənin digər regionlarında da "yaşıl layihə"lərin gerçəkləşməsində fəal iştirak edir. Bu layihələrdən biri də İtaliyanın "Technip Energies" şirkəti ilə birgə Sumqayıtda plastik tullantıların emalı zavodunun tikintisidir. AİŞ-in "yaşıl layihə"lərə ayırdığı investisiyaların ümumi həcmi 74 milyon manatdır ki, bu da şirkətin ətraf mühitin qorunması məqsədilə qarşıya çıxan problemlərin həllinə olan sadiqliyini əks etdirir.

AİŞ-in ötən il Bakıda baş tutan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) uğurla iştirak edərək, bir sıra ekoloji layihələr üzrə sazişlər bağlaması ASC-nin faydalı işlərindən biridir. Bu sazişlər AİŞ-in qlobal ekoloji əməkdaşlıqlarda fəal iştiraka hazır olduğunu təsdiq edir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# "Kaşaqan" neftinin də Avropaya yolu tezliklə BTC-dən keçəcək

**Qazaxıstanın "Kaşaqan" yatağının neftini daşıyan "Taraz" tankeri Aktau limanından Bakıya doğru yol gəlir. "KazMunayQaz" (KMQ) şirkətinin məlumatına görə, bundan sonra neft Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə Aralıq dənizinə qədər nəql ediləcək.**

Əvvəla xatırladaq ki, "KazMunayQaz" Qazaxıstanın dövlət neft-qaz şirkətidir. 2002-ci ildə "Kazaxoyl" və Neft-Qaz Nəqliyyatı şirkətlərinin birləşdirilməsi ilə təsis edilib. 2022-ci ildə isə "KazMunayQaz" və SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) arasında Qazaxıstan neftinin tranzitinə dair saziş imzalanıb. 2024-cü ilin martında KMQ və SOCAR arasında neftin Azərbaycan Respublikası ərazisindən tranzit həcminin mərhələli şəkildə artırılması ilə bağlı razılıq əldə edilib. Sənəd il ərzində tranzit həcminin 2,2 milyon tona qədər artırılmasını nəzərdə tutur.

Onu da qeyd edək ki, dost və qardaş Qazaxıstan BTC-nin çəkilişi ideyası yaranandan bəri bu layihəni həmişə dəstəkləyib. 1999-cu il noyabrın 18-də İstanbulda, ATƏT-in Zirvə toplantısında mühüm bir sənəd imzalandı. Bu, xam neftin BTC vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyənin əraziləri ilə nəql edilməsinə dair saziş idi. Kəmərin tikintisi üçün həlledici rol oynayan həmin vacib sənədi Azərbaycanın, Gürcüstanın, Türkiyənin, ABŞ-nin dövlət başçıları ilə birgə Qazaxıstanın ovaxtkı prezidenti də imzaladı. 2005-ci il mayın 25-də Səngəçal terminalından BTC-yə ilk neft vuruldu. Bu həm də kəmərin Azərbaycan hissəsinin işə düşməsi demək idi. Bu münasibətlə Bakıda və Səngəçalda təntənəli mərasimlər keçirildi. Həmin vaxt da Qazaxıstan bizimlə idi.



Hələ 2018-ci il mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimindəki nitqində Prezident İlham Əliyev demişdir: "2002-ci ildə biz artıq "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada, Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün eyni zamanda tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir".

BTC-nin operatoru olan BP şirkətinin məlumatına görə, hazırda bu boru kəməri əsasən Azərbaycandan "Azəri-Çıraq-Günəşli" neft və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, BTC vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan, Türkmənistan, SOCAR-ın Azərbaycanda hasil edilmiş digər həcmləri) də nəql olunur.

İndi BTC-yə Qazaxıstanın "Kaşaqan" yatağının nefti də vurulacaq. Bununla BTC polad kəmər kimi Azərbaycanla Qazaxıstanı bir-birinə daha da sıx bağlayacaq.

Əlavə edək ki, "Kaşaqan" yatağı Xəzərin Qazaxıstan sektorunda, Atırau şəhərindən 80 kilometrlik məsafədə yerləşir. Burada şelfin dərinliyi 3-7 metr arasında dəyişir. Yataq 2000-ci il iyunun 30-da "Vostok-1" quyusundan alınan nəticəyə əsasən açılıb. Bu, son onilliklər dünyada kəşf edilmiş ən zəngin karbohidrogen yataqlarından biridir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

**2024-cü il dekabr ayının 31-nə Dövlət Neft Fondunun aktivləri keçən ilin əvvəlinə (56 milyard 069,7 milyon dollar) nisbətən 7,1 faiz artaraq 60 milyard 031,4 milyon dollar təşkil etmişdir. Ötən il ərzində fondun büdcə gəlirləri 18 milyard 039,0 milyon, büdcə xərcləri isə 12 milyard 896,4 milyon manat olmuşdur.**



# ARDNF ötən il üzrə gəlir və xərclərinə dair məlumatları açıqlayıb

### İl ərzində fondun aktivləri 7,1 faiz artaraq 60 milyard dolları üstələyib

ARDNF-nin yaydığı məlumatda daha sonra bildirilir ki, keçən il ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 12 milyard 243,7 milyon, o cümlədən mənfəət neftinin və qazın satışından 11 milyard 461,4 milyon, bonus ödənişləri 778,2 milyon, tranzit gəlirləri 0,5 milyon, akr-hesabı ödənişləri 3,6 milyon manat təşkil etmişdir. Fondun vəsaitlərinin idarə olunmasından əldə edilən investisiya gəliri isə 5 milyard 795,3 milyon manat olmaqla investisiya portfeli üzrə gəlirlilik 6 faizə çatmışdır.

Hesabat dövrü ərzində ARDNF-nin 2024-cü il büdcəsinin icrası çərçivəsində 12 milyard 781,0 milyon manat vəsait dövlət büdcəsinə transfert edilmişdir. Ötən il "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşməsinə 34,0 milyon, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı"nın maliyyələşməsinə isə 47,3 milyon manat yönəldilmişdir. Sözügedən dövrdə fondun idarə edilməsi ilə bağlı xərcləri 34,1 milyon manat təşkil etmişdir. Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar gəlirinə gəldikdə, bu rəqəm hesabat dövrü üzrə 1 milyard 592,2 milyon manat olmuşdur.

2024-cü ildə aktivlərin artımı ARDNF-nin vəsaitlərinin idarə edilməsindən əldə edilən gəlirlər, o cümlədən büdcədənkənar gəlirlər hesabına formalaşmışdır.

İl ərzində səhm bazarlarında müşahidə olunan müsbət tendensiyanın 4-cü rübdə də davam etməsi fondun aktivlərinə öz töhfəsini vermişdir. Bunun səbəbləri kimi isə ümumilikdə böyük texnologiya şirkətlərinin bazar dəyərlərində artımın davam etməsi, ABŞ-də keçirilən seçkilərdən sonra şirkətlərin gəlirliliyinə müsbət təsir edə biləcək əlverişli biznes mühiti ilə bağlı investor gözləntiləri göstərilə bilər.

Eyni zamanda aparıcı mərkəzi banklar tərəfindən faiz dərəcələrinin azaldılmasının davam etdirilməsinə baxmayaraq, dövlət istiqrazlarının gəlirlilik dərəcələrində son rübdə artımlar müşahidə olunmuşdur. Bu artımlar istiqraz bazarlarında müəyyən geriləmələrə səbəb olsa da, il ərzində orta gəlirliliyin yüksək olması fondun borc öhdəlikləri altportfeli üçün ili müsbət nəticələrlə yekunlaşdırmağa şərait yaratmışdır. Gəlirlilik dərəcələrindəki sözügedən artımlar əsasən uzunmüddətli ABŞ dövlət istiqrazlarının gəlirlilik dərəcələrində müşahidə edilmişdir ki, buna başlıca olaraq inflyasiya və artan dövlət borcları kimi iqtisadi göstəricilərdəki qeyri-müəyyənliklər səbəb olmuşdur.

İl ərzində qızıl qiymətində artımın son rübdə yavaşlamasına baxmayaraq, sadalanan aktiv bütövlükdə 2024-cü ildə ARDNF-nin büdcədənkənar gəlirlərinə əhəmiyyətli töhfə vermişdir. Yüksək geosiyasi risklər, il ərzində bir çox ölkələrdə seçkilərin keçirilməsi və mərkəzi banklar tərəfindən artan tələb qızıl qiymətlərinin yüksəlməsini şərtləndirən başlıca amillərdən hesab olunur.

# Metallurqların keçənilki uğuru - 1,3 milyard manatlıq məhsul

Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində 2024-cü ildə 1 milyard 349,3 milyon manatlıq məhsul istehsal olunmuşdur.

Dövlət Statistika Komitəsinin verdiyi bu məlumatda həmçinin bildirilir ki, hazır metal məmulatlarının istehsalı sahəsində 38,9, metallurgiya sənayesi məhsullarının istehsalında isə 27,1 faiz artım müşahidə edilmişdir. 2024-cü ildə metallurgiya sənayesi üzrə mis məftilin istehsalı 5,5 dəfə, alüminium məmulatlarının istehsalı 72,1, armatur istehsalı 28,7, hazır metal məmulatlarının istehsalı sahəsi üzrə metaldan sair məmulatların istehsalı 20,4, izolyasiyası olmayan çoxnaqilli məftil, troslar və oxşar məmulatların istehsalı isə 17,9 faiz artmışdır.

# Fərdi sahibkarların sayı 1,4 milyona yaxındır

**2025-ci il yanvarın 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 1 milyon 389 mini ötüb.**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına istinadən Dövlət Statistika Komitəsi bildirir ki, hesabat dövründə hər dörd fərdi sahibkardan üçü "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Ticarət, nəqliyyat vasitələrinin təmiri", Nəqliyyat və anbar təsərrüfatı" və "Digər sahələrdə xidmətlərin göstərilməsi" sahələri üzrə qeydiyyatdan keçib.

Fərdi sahibkarların 76,7 faizini kişilər, 23,3 faizini isə qadınlar təşkil edir. Qadınlar "Digər sahələrdə xidmətlərin göstərilməsi" fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 36,6 faizini, "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" fəaliyyət sahəsində 25,9 faizini, "Ticarət, nəqliyyat vasitələrinin təmiri" fəaliyyət sahəsində isə 21,8 faizini təşkil edir.



Sahibkar qadınların 28,6 faizi Bakıda, 10,1 faizi Lənkəran-Astara, 9,6 faizi Qazax-Tovuz, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçmişdir.

Fərdi sahibkarların cins tərkibinin regionlar üzrə say bölgüsündən aydın olur ki, Qazax-Tovuz (28,4 faiz), Naxçıvan Muxtar Respublikası (27,2 faiz), Gəncə-Daşkəsən (26,1 faiz), Bakı (25,1 faiz) iqtisadi rayonlarında qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır.

# 1311 nəfər SXA-nın yollayışlarından yararlanıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi (SXA) 2024-cü ildə 1311 nəfər imtiyazlı şəxsi yollayışla təmin edib.**

Həmin şəxslər xəstəliklərinə uyğun sanatoriya-kurort və müalicə mərkəzlərinə göndəriliblər. Onların arasında əlilliyi olan uşaqlar da olub və həmin uşaqlar valideynlərindən birinin müşayiəti ilə qeyd olunan mərkəzlərə yola salınıblar.

İmtiyazlı şəxslər verilmiş yollayışlar əsasında respublikamızın müxtəlif ərazilərindəki mərkəzlərdə müalicə kursu keçiblər.







# Mədəniyyət







● İstirahət yerlərimiz

# Bakı dünyanın ən gözəl şəhərlərindən biridir



**Bakını gözəlləşdirən, onu belə ürəyəyatımlı edən son illər şəhərdə aparılan möhtəşəm quruculuq işləri, ətraf qəsəbələrdəki 52-dən çox yeni, 90-dan çox əsaslı təmir olunmuş mədəniyyət və istirahət parklarıdır.**

Qədimliyi ilə gözoxşayan müasir Bakıda dünya standartlarına uyğun yeni magistral yolların, dünyanın brend arxitektura layihələri əsasında inşa edilən yüksəkmərtəbəli binaların tikintisi, yerli mədəniyyət abidəsi hesab edilən tarixi mülklərin, məscid və inanc yerlərimizin bərpası məmnunluq doğurur. Reallıqdır ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, Bakının yaşıllaşdırılmasına, yeni park və xiyabanların, istirahət guşələrinin yaradılmasına da xüsusi diqqət yetirilir.

Etiraf edək ki, son illər istər bölgələrdən, istərsə də qonşu xarici ölkələrdən Bakıya gələnlərin sayı çoxalıb. Çünki Bakı və onun ətraf qəsəbələri gündən-günə gözəlləşir, abadlaşır, insanların sosial şəraitinin hərtərəfli təmini üçün lazımi infrastruktur yaradılır.

Bakının gəzməli, görməli yerlərindən söhbət düşəndə ilk növbədə Xəzərin boyunbağısı adlandırılan Sahil bağı - Bakı bulvarı yada düşür. 104 ilə yaxın yaşı olan bu bağ dövlət başçısının şəxsi təşəbbüsü və sərəncamı əsasında genişləndirilərək 16 hektara çatdırılıb. Görülən iş, yaradılan şərait göz oxşayır. Buraya yolu düşənlərin əksəriyyəti sahildə Vətən müharibəsinin qələbəsindən, rəşadətindən söhbət açan Hərbi Qənimətlər Parkını ziyarət etməmiş geri dönmür.

Artıq bu kimi parklar, bağlar Bakı sakinlərinin və qonaqların əsl istirahət məkanına çevrilib. Yeni parklardan birində - Heydər Əliyev Sarayının arxasından Akademik Milli Dram Teatrına qədər uzanan park-fəvvarə kompleksində olduq. Parka gələnlərin ardıarası kəsilmir, əksəriyyəti də yaxın ərazilərdə yaşayan sakinlərdir.

Parkda yaradılan səliqə-sahman, yarlı-yaraşıqlı dekorativ kollar, qol-budaq atmağa başlayan Gəncə çinarları, müxtəlif ölkələrdən gətirilmiş ağaclar, müasir işıqlandırma sistemi, oturacaqlar göz oxşayır. Uşaqların gəzintisi, istirahəti, əylənmələri üçün hər cür şərait var.

Paytaxtın Zabitlər parkı, əslində, şəhərin ən köhnə parklarından hesab edilir. Park alman faşizminə qarşı döyüşlərdə həlak olan əsgərlərin xatirəsinə İkinci Dünya müharibəsi illərində salınıb. Müharibədən sonra bu parka iki dəfə Sovet İttifaqı Qəhrəmanı olan Həzi Aslanovun adı verilib.

4 hektar sahəsi olan parkın siması əsaslı yenidənqurmadan sonra tamamilə dəyişib. Burada orijinal işıqlandırma sistemi, əzəmətli daş fəvvarə və bürünc heykəllər qoyulub: fikrə dalan şahmatçı öz gedişini planlaşdırır, yaxud çayxana girişində gülərüz çayçı qonaqları salamlayır. Fəvvarənin yaxınlığında oturacaqların birində yorğun "bürünc fotoqraf" əyləşib. Bir az aralıda isə "qız yoldan ötənlərə çiçək satır". Başqa birisi "xana-xana" oynayır, ondan arxada bir dəstə uşaq əl-ələ verərək coşqun rəqs ritmində donub. Parkda 700 kvadratmetr sahəsi olan qapalı buz meydançası, görünüşü və orijinal dizaynı ilə diqqəti cəlb edən qeyri-adi "buz" kafesi var.

Parkda Bakının köhnə Yuxarı Dağlı məhəlləsində yaşamış hərbi həkim Ağababa kişinin nəvəsi İradə xanım və onun ailəsi ilə görüşdük. İradə xanım özü də həkimdir, hazırda Riqada yaşayır və işləyir:

- Bakıda, Yuxarı Dağlı məhəlləsində dünyaya gəlmişəm, Lakin tale elə gətirib ki, Riqada yaşamalı olmuşam. Amma hər il mən də, qardaşım Emil və Emin də ailələri ilə Bakıya gəlirlər. Biz buranı unuda bilmirik... Babamgilin yaşadıqları ərazidə oldum, qonşularla görüşdüm, qonaq qaldım, birgə şəkillər çəkdirdik. Nənəmin rəfiqələrinin nəvələri ilə Bakının bir neçə görməli-gəzməli istirahət məkanında - Heydər Əliyev Mərkəzində, Rixard Zorgenin adını daşıyan parkda, Dədə Qorqud bağında, köhnə "Sovetski" ərazisində yaradılan parkda, təzəlikcə istifadəyə verilən "Çəmbərəkənd" parkında olduq. Elə bil dünyanın hansısa başqa şəhərindəyəm, köhnə parkları tanıya bilmədim, təzə parklar isə lap möcüzədir. Bu, mənim 20 il əvvəl gördüyüm Bakı deyil. Burada hər şey dəyişib, yollar da, binalar da, parklar və xiyabanlar da. Şəhərdəki quruculuq işləri məni heyran etdi. Çoxlu şəkillər və videoçəkiliş etmişəm, aparıb Latviyada həmyerlilərimizə göstərəcəyəm. Latviyada, Riqada məni tanıyanların çoxuna məzuniyyət zamanında istirahətə və ya turist gəzintisinə Bakıya gəlmələrini məsləhət görəcəm...











Nə xoş ki, Bakının gəzməli-görməli yerlərinə çevrilən parkların sayı ildən-ilə artmaqdadır. Bakı və onun ətraf qəsəbələri gündən-günə gözəlləşir, abadlaşır, insanların sosial tələblərinin hərtərəfli təmini və istirahətlərinin mənalı keçməsi üçün lazımi infrastruktur yaradılır. Belə istirahət parklarından biri əsaslı təmir və yenidənqurmadan sonra ötən il açılışında Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi Nərimanov parkıdır.

Ərazisi 4,1 hektar olan bu park gəzinti və əyləncə baxımından şəhər sakinləri üçün sevimli məkandır. Xatırladaq ki, park nadir dizaynda yenidən qurulub. Burada müxtəlif istirahət guşələri, əyləncə qurğuları yaradılıb, o cümlədən uzun müddət yararsız vəziyyətdə olan fəvvarə meydanının yenidən qurulması işləri həyata keçirilib. Odur ki, buraya istirahət saatını səmərəli keçirmək uzun gəlib-gedənlərin sayı çoxalıb. Təmirdən sonra mənzərə tamam dəyişib. Parkın ümumi görkəminə xələl gətirən tikili və qurğular ərazidən götürülüb, yerində salınan yeni yaşıllıq sahələri, dekorativ kollar göz oxşayır. Mövcud ictimai-iaşə obyektlərinin fasadları müasir üslubda təmir edilib, yeni işıqlandırma sistemləri, idman qurğuları, uşaq-əyləncə meydançası yaradılıb, habelə yağış sularının axıdılması üçün xətlər çəkilib. Bir sözlə, parka əylənməyə gələnlərə, xüsusən də ailəli uşaq gəzintiləri üçün gözəl şərait yaradılıb.

Qeyd edək ki, dövlət başçısının tapşırığı ilə paytaxt Bakıda parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində ardıcıl tədbirlər davam etdirilir. "Yaşıl dünya naminə həmrəylik ili"ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir.

Belə ünvanlardan biri, bəlkə də birincisi Bakı Konqres Mərkəzinin qarşısında salınmış istirahət parkıdır. Ümumi sahəsi 7 hektardan çox olan parka gəlib-gedənlərin sayı günbəgün artır. Ərazisində 300-dən çox müxtəlif növ ağac, 50 mindən artıq dekorativ gül və kol bitkiləri əkilib. Burada çinar, tut, dəmirağacı, söyüd və palıd ağaclarının bir neçə növü var. İtaliyadan gətirilmiş bitki və ağaclar üstünlük təşkil edir.

Heydər Əliyev Mərkəzi və Təbriz küçəsi arasında yerləşən bu park mənalı istirahət yeridir. Burada 4 müxtəlif istirahət zonası var. İdman zonasında müxtəlif trenajorlar və qurğular qoyulub. Uşaqlar üçün xüsusi zonalar yaradılıb, həmin zonalar 2700 kvadratmetrə yaxın yumşaq səthlə örtülüb. Ərazidə fəvvarə və ümumi sahəsi 2200 kvadratmetrə yaxın 3 göl var. Burada ilin bütün fəsillərində fəaliyyət göstərən sintetik örtüklə təchiz edilmiş buz meydançası da mövcuddur. Bu park da gəzməli, dincəlməli və istirahət etməli məkandır.

Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin 2023-cü il 18 avqust və 2024-cü il 13 yanvar tarixli sərəncamlarına əsasən, Nərimanov rayonunda salınan daha bir yeni parkdır.

Ərazidə belə bir gözəl və yaraşıqlı parkın salınması ictimaiyyəti məmnun edir. Xatırladaq ki, bir neçə ay öncə Prezident İlham Əliyev yeni parkda işlərin gedişi ilə tanış olmuşdur.

"Antena" parkı kimi tanınan bu ərazi əvvəllər baxımsız vəziyyətdə idi. İstirahət parkının yenidən qurulması və bərpası ilə əlaqədar yararsız vəziyyətdə olan bəzi tikililər sökülüb. Ərazi daha da genişləndirilib və 19 hektara çatdırılıb. Parkın ərazisindəki mövcud tarixi inzibati bina saxlanılıb və həmin binada hazırda bərpa işləri aparılır. Yenidən qurulan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılacaq. Belə ki, burada müasir tələblərə cavab verən iki restoran inşa olunur. Həmçinin burada 2 fəvvarə də quraşdırılacaq. Bu da istirahət məkanına əlavə gözəllik verəcək.

Müasir istirahət kompleksinin ərazisinin 13,8 hektarında müxtəlif yaşıllıq sahələri salınacaq. Burada işıqlandırma sistemi yeni layihə əsasında ən müasir standartlara uyğun şəkildə qurulacaq. Parkda piyada və velosiped yolları çəkiləcək, uşaq-əyləncə və idman meydançaları yaradılacaq. Bu parkla yaxınlıqdakı "Dədə Qorqud" parkını əlaqələndirəcək tunelin inşası artıq başa çatıb.

Yenidən qurulan park həmçinin Azərbaycan dövlətinin ekoloji tarazlığın qorunması, yaşıllıqların artırılması, o cümlədən "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində gördüyü işlərə daha bir töhfə olacaq.

Xatırladaq ki, paytaxtın görməli yerlərindən olan Bakı Dəmir-yol Vağzalının və metronun "28 May" stansiyasının qarşısındakı bağda aparılan abadlıq və yenidənqurma işlərindən sonra burada mənzərə daha xoşagələn olub. Dövlət başçısı ötən il noyabrın 1-də bu ərazidə - Puşkin küçəsinin Azadlıq prospekti ilə birləşməsindən Dilarə Əliyeva küçəsi ilə kəsişməsinədək olan hissəsində aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

Ümumi sahəsi 3,5 hektar olan ərazidə minik avtomobillərinin hərəkəti ləğv edilərək, müasir tələblərə cavab verən avtobus, piyada və velosiped zolaqları yaradılıb. Köhnə döşəmə örtükləri ləğv edilərək, qranit bordürlər düzülüb və təqribən 22 min kvadratmetr qranit döşəmə örtüyü salınıb. Ərazidə ümumi sahəsi təqribən 2300 kvadratmetr olan yaşıllıq yaradılıb, İtaliyadan gətirilmiş 200-dən çox ağac, 15 mindən çox kol əkilib, işıqlandırma işləri aparılıb, müasir oturacaqlar quraşdırılıb. Həmçinin müasir tikinti norma və qaydalarına cavab verən 2 fəvvarə, 2 dayanacaq inşa edilib, elektrik avtobusları üçün 4 enerjidoldurma məntəqəsi quraşdırılıb.

Görünən odur ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizin hər yerində, Qarabağ bölgəsindən tutmuş, paytaxt Bakıyadək abadlıq-quruculuq işləri geniş vüsət alıb. Azərbaycanın 2030-cu ilə qədər təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinə çevrilməsi sosial-iqtisadi inkişafa dair milli prioritetlər sırasındadır. Bu yöndə görülən işlər həm paytaxt sakinlərinin və Bakıya gələn çoxsaylı turistin istirahəti üçün müvafiq şəraitin yaradılması, həm də şəhərin ekoloji durumunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlı olduğunu nümayiş etdirir. Ölkəmizdə keçən il "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində görülən abadlıq və yenidənqurma işləri ətraf mühitin sağlamlaşdırılmasına mühüm töhfə vermiş, Bakını dünyanın ən təmiz şəhərlərindən birinə çevrilməsini sürətləndirmişdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## Heydər Əliyev Sarayında "Dəniz, göy, məhəbbət" adlı bədii-musiqili gecə keçirilib



Heydər Əliyev Sarayında Xalq şairi Nəbi Xəzrinin 100 illiyi münasibətilə "Dəniz, göy, məhəbbət" adlı bədii-musiqili gecə keçirilib.

Tədbirdə çıxış edən Azərbaycan Yazıçılar Birliyinin (AYB) katibi, yazıçı-dramaturq İlqar Fəhmi Xalq şairinin yaradıcılığından söhbət açıb. O bildirib ki, Nəbi Xəzri Azərbaycan poeziyasına bənzərsiz bədii dil, poetik ahəng gətirən şairlərdəndir.

"Onun şeirləri yalnız oxuculara deyil, həm də musiqi dünyasına ilham mənbəyi olub. Məhz bu şeirlərin ritmik, duyğulu ahəngindən təsirlənən bəstəkarlarımız bir çox gözəl mahnılar yaradıblar. Hər gələn nəsil onun poeziyasını və musiqilərini yaşadaraq bu irsi zənginləşdirir. Bu, Nəbi Xəzrinin yaradıcılıqda böyüklüyünün və əbədi təsirinin ən gözəl nümunəsidir. Bu cür tədbirlər xalqımızın böyük şairlərə olan ehtiramının təzahürüdür və Nəbi Xəzrinin əsərlərinin bədii dəyərini bir daha ortaya qoyur", - deyə katib əlavə edib.

Nəbi Xəzrinin övladı Arzu Babayev onun yaradıcılığından dərin hörmət və sevgi ilə danışıb. Xalq şairinin cəmi 20 yaşında yazdığı "Söz" şeiri ilə bağlı fikirlərini bölüşən A.Babayev deyib ki, bu poeziyada o, öz sözünü deyərək, klassik irsimizin layiqli davamçısı olub. Məhz bu səbəbdən onu Məhəmməd Füzulidən sonra "Sözü zirvələrə qaldıran şair" adlandırıblar.

"Qarabağda baş verən hadisələr və sevimli həyat yoldaşının vəfatından sonra Nəbi Xəzrinin poeziyasında qəmgin not hiss olunurdu. Xüsusilə Qarabağa həsr etdiyi silsilə şeirləri onun yurd sevgisini, vətənə olan bağlılığını əks etdirir. "Şuşa gəlir", "Kəlbəcər harayı" kimi şeirlərində Nəbi Xəzri sanki gələcək qələbəmizin həsrətini çəkir və eyni zamanda onu görürdü. Onun bu duyğuları xalqımızın mübarizə ruhuna, gələcəyə inamına poetik bir töhfə idi. Nəbi Xəzrinin yaradıcılığı onun həyatında qarşılaşdığı sınaqlardan güc alırdı. Bu sınaqlar onun şair ruhunu daha da dərinləşdirir, qələmindən süzülən misralara təsir edirdi. Onun bənzərsiz istedadı Ulu Öndər Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilib. Dövlətimiz onun yaradıcılığına daim xüsusi diqqət göstərərək, böyük şairin poeziyasını layiq olduğu zirvəyə qaldırıb. Hazırda Prezident İlham Əliyevin diqqəti ilə şairin xatirəsi yüksək səviyyədə anılır və Nəbi Xəzri irsi yeni nəsillərə çatdırılır", - deyə o əlavə edib.

Bədii-musiqili gecədə Nəbi Xəzrinin incə və duyğulu şeirləri mədəniyyət və incəsənət nümayəndələri tərəfindən səsləndirilib.

## Balet sənətinin sönməz ulduzu

*Bu il görkəmli balerina Leyla Vəkilovanın anadan olmasından 98 il ötür*



Bir zaman səhnədə Qu quşu obrazını canlandıranda, zərif bədəninin plastika imkanlarından məharətlə istifadə edərək bütöv bir əfsanəni auditoriyaya çatdıranda, sənətsevərlərə və pərəstişkarlarına ülvi hisslər aşılayanda ağlına belə gətirməzdi ki, vaxt gələcək, o da öz sənəti ilə insanların qəlbində əfsanəyə çevriləcək. Rəqsin, baletin uşaq vaxtından vurğunu olan bu gözəl qız səhnədə yaratdığı obrazlara bütün ruhunu verir, tamaşaçıları öz qəhrəmanının arzusuna, sevincinə, kədərinə şərik etməyi bacarırdı...

Bu il SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Leyla Vəkilovanın anadan olmasının 98-ci ildönümü tamam olur.

Leyla Vəkilova 1927-ci il yanvarın 29-da Bakıda dünyaya göz açıb. Xoreoqrafiya məktəbində böyük sənətkar Qəmər Almaszadədən sənətin incəliklərini öyrənib, 1943-cü ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasına solist qəbul edilib. İxtisasını təkmilləşdirmək məqsədilə 1945-1946-cı illərdə Moskva Xoreoqrafiya Məktəbində xüsusi kurs keçib, Bakıya qayıtdıqdan sonra Opera və Balet Teatrının aparıcı balet aktrisası kimi çalışıb.

Leyla Vəkilova müxtəlif illərdə A.Adamın "Jizel", R.Qlierin "Qırmızı lalə", P.Çaykovskinin "Sonalar gölü", "Yatmış gözəl", "Şelkunçik", L.Minkusun "Don Kixot", A.Kreynin "Laurensiya", B.Zeydmanın "Qızıl açar", B.Asafyevin "Bağçasaray fəvvarəsi", Ə.Bədəlbəylinin "Qız qalası", Q.Qarayevin "Yeddi gözəl", "İldırımlı yollarla", S.Hacıbəyovun "Gülşən" və digər baletlərdə yaddaqalan obrazlar yaradıb.

Sənətkar klassik balet elementləri və milli rəqs hərəkətlərimizi ustalıqla birləşdirərək uğurlu ifa təqdim edib. Yüksək səhnə mədəniyyəti, ifa texnikası və artistizm onun yaradıcılığının başlıca xüsusiyyətlərindən olub.

Leyla Vəkilovanın ifası emosionallığı, zərifliyi, coşqunluğu, çevikliyi ilə seçilirdi. Psixoloji məzmuna malik hərəkətləri sanki dil açıb danışırdı. Ə.Bədəlbəylinin "Qız qalası"nda böyük məharətlə oynadığı Gülyanaq insanlara həyatsevərlik, paklıq aşılayırdı. A.Məlikovun "Məhəbbət əfsanəsi" baletində canlandırdığı Şirin obrazı tamaşaçıların qarşısında dərin məhəbbət hisslərindən pərvazlanan insan idi. Ə.Abbasov "Qaraca qız" baletini məhz Leyla Vəkilova üçün yazıb. Bu əsərin xoreoqrafiyası balerinanın yaradıcılıq diapazonu üçün nəzərdə tutulmuşdu. Q.Qarayevin "Yeddi gözəl"indəki Ayişə surəti isə sənətkarın milli balet səhnəsində uzun müddət liderliyini təmin edib.

Görkəmli balet ustası Leyla Vəkilova 1999-cu il fevralın 20-də vəfat edib, Fəxri xiyabanda dəfn olunub.

## Türkiyənin "Ulusal Kanal TV" telekanalı Azərbaycan həqiqətlərinin yayımlanmasına dəstək olacaq



Azərbaycan Respublikasının Türkiyədəki səfirliyinin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov Türkiyənin "Ulusal Kanal TV" İdarə Heyətinin sədri Adnan Türkkanı və telekanalın Ankara təmsilçisi Arzu Əliyeva, TRT "Azebaycan rüzgarı" proqramı və layihəsinin rəhbəri Səidə Ömərlə görüşüb.

Görüşdə Türkiyədə media sahəsində tanınan, vətənpərvərlik, tarix, mədəniyyət mövzularına daha çox önəm verən və bu istiqamətdə layihələr həyata keçirən "Ulusal Kanal TV" ilə Azərbaycan Mədəniyyət Mərkəzi arasında əməkdaşlıq, Azərbaycan həqiqətlərinin yayılması, milli mədəniyyətimizin təbliği ilə bağlı birgə layihələri müzakirə edilib.

İlkin olaraq Azərbaycan mədəniyyəti, ədəbiyyatı, tarixi, Türk dünyasının ortaq dəyərləri, Azərbaycan-Türkiyə qardaşlığı ilə bağlı verilişlərin, görüşlərin hazırlanması, bu istiqamətdə sənədli materiallar, filmlərin nümayişi və birgə layihələrin reallaşdırılması razılaşdırılıb.

# Tofiq Bəhramovun xatirəsi yad olunub




**Dünən dünyaşöhrətli azərbaycanlı hakim Tofiq Bəhramovun anadan olmasının 100 illik yubileyi qeyd olunub.Bu münasibətlə AFFA rəhbərliyi və futbol ictimaiyyətinin nümayəndələri onun məzarını ziyarət ediblər. Əfsanəvi referinin məzarı üstünə gül çələngi qoyulub.**




Xatırladaq ki, dünyaca tanınmış futbol hakimi 1925-ci il 29 yanvarda Ağdamda anadan olub. Futbolçu karyerasına 1940-cı ildə başlayan T.Bəhramov əvvəlcə "Spartak"ın (Bakı) gənclərdən ibarət komandasında çıxış edib. Sonra isə "Neftçi"yə dəvət olunub. O, futbolçu kimi təkcə Azərbaycan çempionatında iştirak edib.

DÇ-1966-nın oyunları həmyerlimizi futbolla maraqlanan hər kəsə tanıtdırdı və Tofiq Bəhramovun adını tarixə əbədi yazdı. Həmin turnirin finalı mundialın bütün tarixi ərzində ən maraqlı və dramatik oyunlardan biri oldu. T.Bəhramov matçın yan xətt hakimi idi. Əsas vaxt heç-heçə (2:2) başa çatdığından qalibi müəyyənləşdirmək üçün 30 dəqiqə əlavə olundu. 110-cu dəqiqədə ingilislərin hücumçusu Herst topu almanların qapısına göndərir. Top dirəyə dəyib yerə düşür. Oyunun baş hakimi, isveçrəli Dinst topun uçuş trayektoriyasını görmədiyindən özünü itirir. Lakin dərhal oyunun bütün taleyini üzərinə götürəcək adamı tapır. Dinst özünün yanxətt köməkçisinə işarə edərək son sözü onun deyil, köməkçisi - azərbaycanlı hakim T.Bəhramovun deyəcəyini göstərir. O isə bayrağı yellədərək mərkəzi göstərməklə ingilislərdə sevinc, almanlarda isə qəzəb doğurur. Almanlar onu əhatəyə alaraq bu qərara etiraz edirlər, lakin T.Bəhramov fikrindən dönmür. Oyun davam edir, hakimin əlavə vaxtın bitdiyini bildirən fitinə az qalmış Herst bu oyun ərzində özünün üçüncü qolunu vurur. Oyun 4:2 hesabı ilə İngiltərənin xeyrinə başa çatır.

Oyundan sonra İngiltərə Kraliçası T.Bəhramova "Qızıl fit"i (o vaxtadək bu mükafat yalnız meydan hakimlərinə verilirdi) və "Qızıl ilahə"nin kiçik modelini təqdim edir. Bu gün yeni "Uembli" stadionunun muzey vitrinlərinin birində Tofiq Bəhramovun bürüncdən tökülmüş heykəli var.

***"Azərbaycan"***

# Fransanın Kinşasadakı səfirliyinin divarı yandırılıb

**Konqo Demokratik Respublikasının (DRC) paytaxtı Kinşasada bir neçə yüz etirazçı küçələrə çıxaraq Fransa səfirliyinin hasarının bir hissəsini, Belçika səfirliyinin girişini yandırıb, Uqanda səfirliyini isə qarət edib.**



AZƏRTAC xəbər verir ki, Fransa səfirliyinin divarı giriş hissədə qismən yandırılıb. Rəsmi Parisin bu hadisəyə reaksiyası gecikməyib. "Bu hücumlar qəbuledilməzdir. Əməkdaşlarımızın və vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək üçün bütün tədbirlər görülür", - deyə Fransanın xarici işlər naziri Jan-Noel Baro "X" hesabında bildirib.

Konqonun paytaxtının əsas prospekti olan "30 iyun" boyunca hərəkət edən etirazçılar Belçikanın diplomatik nümayəndəliyinin önündə - yandırdıqları giriş qapısının qarşısında dayandırılıb. Digər etirazçılar talan edilmiş və mebelləri boşaldılmış Uqanda səfirliyinə tərəf yönəliblər. Şəhərin mərkəzində Ruanda səfirliyinin yerləşdiyi binanın bir hissəsi dağıdılıb, avtomobillər yandırılıb və əmlak qarət olunub.

Konqo Baş nazirinin müavini Jakmin Şabani yerli radio vasitəsilə səfirliklərə yaxın şəxsləri də hədəf alan iğtişaşlar və talan halları qarşısında sakit və təmkinli olmağa çağırıb. Etirazçılar Konqonun Ruanda tərəfindən M23 üsyançı qrupu (23 Mart Hərəkatı) vasitəsilə gördüyü aqressiya qarşısında bu dövlətlərin susqunluğunu pisləyiblər.

Qeyd edək ki, bu hərəkat 2012-ci ildə Konqo ordusunun müxalif əsgərləri tərəfindən yaradılıb. Hakimiyyətə gəldikdən qısa müddət sonra - 2013-cü ildə MONUSCO sülhməramlılarının dəstəklədiyi Konqo Demokratik Respublikasının Silahlı Qüvvələri (FARDC) tərəfindən məğlub edilib. Bununla belə, M23 2022-ci ildə yenidən silaha əl ataraq Ruanda və Uqanda sərhədlərində yerləşən Şimali Kivu əyalətində bir neçə məntəqəni ələ keçirib.

Rəsmi Kinşasa Ruandanı bölgənin mineral sərvətlərinə çıxış üçün M23-ə fəal dəstək göstərməkdə ittiham edir.

# Emmanuel Makron sosial şəbəkələrdə tənqid atəşinə tutulub

**Fransada Milli Assambleyanın buraxılmasından sonra prezident Emmanuel Makronun siyasi təcridi daha çox müzakirə olunmağa başlayıb. Son günlər isə onun Luvr Muzeyinə səfəri geniş rezonans doğurub.**




AZƏRTAC xəbər verir ki, Luvr Muzeyinin direktoru mədəniyyət nazirinə ünvanladığı məktubda muzeyin bir çox hissəsinin qəzalı vəziyyətdə olduğunu, texniki avadanlıqların köhnəlməsini və temperatur dəyişikliklərinin konservasiya işlərinə təhlükə yaratdığını vurğulayıb. Həmçinin ziyarətçilər üçün şəraitin pisləşdiyini bildirib. Prezident Makron da bu narazılıqlar fonunda muzeyi ziyarət edib.

Lakin yerli mətbuat onun bu addımını siyasi məqsədlərlə izah edərək, zəifləmiş mövqeyini gücləndirmək və mandatını bərpa etmək cəhdi kimi qiymətləndirib. Hətta bu səfərin Parisin məşhur "Notre Dame" Katedralının təmirinə bənzər bir layihənin başlanğıcı kimi təqdim olunduğu iddia edilib.

Müzakirələr fonunda sosial şəbəkələrdə qəribə iddialar yayılıb. Belə ki, Luvrun təmiri üçün yüz milyonlarla avro lazım olduğu, dövlət borcunun isə rekord səviyyədə olduğu nəzərə alınaraq, Makronun muzeyin ən qiymətli əsərlərindən biri - "Mona Liza"nı satmaq niyyətində olduğu barədə şayiələr ortaya çıxıb.

Bu xəbər yayıldıqdan sonra "X" sosial şəbəkəsində minlərlə istifadəçi kəskin reaksiya verib. Bəzi paylaşımlarda "Sən abırsızsan, fransız irsini satmaq qəbuledilməzdir" kimi sərt ifadələr işlədilib. Digər istifadəçilər isə "Təmir edilmiş muzeyə heç kim gəlməyəcək, çünki hamı "Mona Liza"nı görmək üçün başqa yerə gedəcək" kimi ironiya ilə cavab veriblər.

Sosial mediada sürətlə yayılan bu iddialar "feysbuk" və "TikTok" kimi platformalarda da geniş müzakirə edilib. Hətta mətbuatda bu xəbərin tamamilə yalan olduğu açıqlansa da, Makrona qarşı təhqir və tənqidlər səngiməyib.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# *Qazaxıstan mediası:* Xəzər dənizinin dayazlaşması ilə bağlı Azərbaycanın müzakirələrin aparılması təklifinə xüsusi diqqət yetirilib

**Qazaxıstan Xəzər dənizinin dayazlaşması ilə bağlı məsələləri Xəzər Tədqiqat İnstitutunun mütəxəssis və ekspertlərini cəlb etməklə ölkə daxilində müzakirə edəcək.**




AZƏRTAC xəbər verir ki, bu barədə "Kazinform" beynəlxalq informasiya agentliyinin "Qazaxıstan Xəzər dənizinin dayazlaşması ilə mübarizə üçün ekspertlərdən ibarət işçi qrupu yaradır" sərlövhəli məqaləsində deyilir.

Məqalədə bildirilir ki, ötən il noyabrın 18-də Bakıda Azərbaycanın sədrliyi ilə baş tutmuş COP29 çərçivəsində iqlim dəyişikliyi fonunda Xəzər dənizində suyun azalmasının müzakirəsinə həsr olunmuş tədbirlər keçirilib. Müzakirələr zamanı Xəzər dənizinin dayazlaşmasının aradan qaldırılması ilə bağlı təkliflər səsləndirilib, habelə bu ekoloji böhranın nəticələrinin yumşaldılması üçün tədbirlər planı təklif edilib.

Məqalədə bildirilib ki, Azərbaycanın Xəzər dənizinin dayazlaşdırılması ilə bağlı peşəkar müzakirələrin aparılması təklifinə xüsusi diqqət yetirilib. Qazaxıstanın Su Ehtiyatları və Suvarma Nazirliyinin verdiyi açıqlamaya görə, Xəzər dənizinin vəziyyəti bütün sahilyanı dövlətlər tərəfindən diqqətlə izlənilir. Nazirlikdən bildirilib ki, Azərbaycan, Rusiya, İran, Türkmənistan və Qazaxıstan tərəfindən imzalanmış Xəzər dənizinin dəniz mühitinin mühafizəsi üzrə Çərçivə Konvensiyasının (Tehran Konvensiyası) sammit və iclaslarında Xəzər dənizinin su səviyyəsi və vəziyyəti həmişə müzakirə olunur. Xəzər dənizinin su səviyyəsindəki dəyişiklikləri beştərəfli formatda öyrənmək üçün ekspertlərdən ibarət işçi qrupunun yaradılması təklif olunub və hazırda qrupun tərkibinin yaradılması ilə Qazaxıstan məşğul olur.

Nazirlikdən bildirilib ki, Qazaxıstan Xəzər dənizinin dayazlaşması ilə bağlı məsələləri Xəzər Tədqiqat İnstitutunun mütəxəssis və ekspertlərini cəlb etməklə ölkə daxilində müzakirə edəcək.

Mütəxəssislərin fikrincə, 2006-cı ildən bəri Xəzər dənizinin suyunun səviyyəsi təxminən 2 metr aşağı düşüb və bəziləri bunun Volqa və Ural çaylarının yuxarı axınında su anbarlarının tikintisi ilə bağlı olduğunu düşünürlər.

# Hava şəraitinin əsasən yağmursuz olacağı gözlənilir

**Yanvarın 30-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, havanın gündüz bəzi şəhərətrafı ərazilərdə az çiskinli olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-7° isti, gündüz 8-12° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 773 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 7-12° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında əsasən yağmursuz hava gözlənilir. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-9° şaxta, gündüz 5-10° isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöl rayonlarında əsasən yağmursuz hava proqnozlaşdırılır. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 4-9° isti təşkil edəcək.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında əsasən yağmursuz hava gözlənilir. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-3° şaxta, bəzi yerlərdə 8°-dək şaxta, gündüz 5-10° isti olacaq.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan rayonlarında əsasən yağmursuz hava proqnozlaşdırılır. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 7-12° isti təşkil edəcək.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında əsasən yağmursuz hava gözlənilir. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 6-11° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 1-6° isti olacaq.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında əsasən yağmursuz hava proqnozlaşdırılır. Lakin səhər bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti təşkil edəcək.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında əsasən yağmursuz hava gözlənilir. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 3°-dək isti, gündüz 7-12° isti, dağlarda gecə 2° şaxtadan 1°-dək isti, gündüz 4-7° isti olacaq.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3407
Sifariş 181

Qiyməti 60 qəpik